RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 36 (9491) 17 FEVRAL 2024-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Azərbaycan beynəlxalq əməkdaşlığa xüsusi önəm verir

### Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Münxendədir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 16-da 60-cı Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Almaniyanın Münxen şəhərinə səfər edib və bir sıra görüşlərdə iştirak edib.

Prezident İlham Əliyev səfər zamanı Münxendə ATƏT-in fəaliyyətdə olan sədri İan Borqla görüşüb.

Azərbaycan Prezidenti İlham Əliyev ilə Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Odil Reno-Bassonun görüşü olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Münxendə ABŞ Prezidentinin xüsusi koordinatoru Amos Hoxşteyn ilə görüşüb.

Münxendə Prezident İlham Əliyevin Bundestaqın Almaniya-Cənubi Qafqaz parlament qrupunun sədri Yohan David Vadeful ilə görüşü olub.

Azərbaycan Prezidenti İlham Əliyev həmçinin İsrailin Prezidenti İsxak Hersoqla görüşüb.

Səfər zamanı Prezident İlham Əliyevin "Leonardo" şirkətinin baş həmdirektoru Lorenzo Mariani ilə görüşü olub.

Azərbaycan Prezidenti İlham Əliyev Almaniyanın Şərqi Biznes Assosiasiyasının icraçı direktoru Mixael Harms ilə görüşüb.

Prezident İlham Əliyevin səfər çərçivəsində həmçinin Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidanla görüşü olub.

2

## Ə.H.Əsədovun Azərbaycan Respublikasının Baş naziri təyin edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Əli Hidayət oğlu Əsədov Azərbaycan Respublikasının Baş naziri təyin edilsin.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 16 fevral 2024-cü il*

## Litva Respublikasının Prezidenti zati-aliləri cənab Gitanas Nausedaya

Hörmətli cənab Prezident!

Litva Respublikasının milli bayramı münasibətilə Sizi və xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Hazırda ölkələrimiz arasında iqtisadiyyat, ticarət, nəqliyyat, bərpa olunan enerji və digər sahələrdə səmərəli əməkdaşlıq üçün yaxşı imkanlar və perspektivlər vardır. Biz mövcud imkanlardan yararlanaraq birgə səylərimizlə əlaqələrimizin inkişafına, əməkdaşlığımızın daha da dərinləşməsinə nail ola bilərik.

Əminəm ki, Azərbaycan-Litva münasibətləri həm ikitərəfli əsasda, həm də Avropa İttifaqı çərçivəsində bundan sonra da ardıcıl şəkildə inkişaf edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, Litva xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 13 fevral 2024-cü il*

## Milli Məclis Əli Əsədovun Baş nazir təyin edilməsinə razılıq verdi



**Əli ƏSƏDOV:**

- Müasir tariximizə möhtəşəm 20 il kimi yazılan ötən dövrdə zamanın çağırışları və mürəkkəb geosiyasi şərtlər fonunda həyata keçirilən siyasi kurs Azərbaycanın müstəqilliyinin daha da möhkəmlənməsini, respublikamızın bölgənin Lideri və söz sahibi olan, dünya birliyində öz layiqli yerini tutan, iqtisadi və hərbi gücü ilə öz problemlərini həll edən qüdrətli bir dövlətə çevrilməsini təmin etmişdir.

Bu gün Azərbaycan postmüharibə dövrünün çağırışlarına uyğun olaraq yeni inkişaf strategiyası ilə inamla irəliləyir, milli dövlət quruculuğunun növbəti şərəfli mərhələsini yaşayır.

Azərbaycan Hökuməti ölkəmizin davamlı inkişafının və xalqımızın firavan həyatının təmin edilməsi ilə bağlı dövlət başçısı cənab İlham Əliyev tərəfindən qarşımıza qoyulan vəzifələrin və verilən tapşırıqların vaxtında və yüksək keyfiyyətlə yerinə yetirilməsi üçün bütün səylərini səfərbər edəcəkdir.

## Yeni hədəflər

### Daha güclü iqtisadiyyat, daha qüdrətli ordu, daha təminatlı həyat

İşğaldan azad olunan ərazilər, həmçinin ölkəmizin iqtisadi inkişafına yeni güc qatacaq. Burada kənd təsərrüfatı, sənaye və turizmin inkişafı üçün imkanlar genişdir. Bu, eyni zamanda doğma yurdlarına dönən insanların məşğulluğunun təmin edilməsində önəmli rol oynayacaq. Dövlət başçısının dediyi kimi, ölkəmizdə başlanan yeni dönəmdə işğaldan azad olunan ərazilər də ümumi inkişafa əlavə imkanlar qazandıracaq.

7

## İLHAM ƏLİYEV etimadının məsuliyyəti

### Prezident yeni dövrün inkişaf strategiyasının icrasını təcrübəli peşəkarlar komandasına həvalə etdi

Əli Əsədovun ötən 5 ildə Baş nazir kimi fəaliyyəti Prezident və Milli Məclis tərəfindən yüksək qiymətləndirildi və o, növbəti müddətə yenidən etimad mandatı aldı.

Qarşıdakı dövrdə onun özünün və rəhbərlik etdiyi hökumətin fəaliyyətinin uğurlu olacağına zəmanət verən amil isə yeni Nazirlər Kabinetinin bacarıqlı mütəxəssis kadrlardan təşkil olunmasıdır.

Prezident İlham Əliyevin təsdiq etdiyi Nazirlər Kabinetinin yeni tərkibi, əsasən, öncəki hökumətin heyətidir. Ancaq nəzərə alaq ki, bu tərkibin Baş nazir də daxil olmaqla xeyli hissəsi ötən son 6 il müddətində dəyişilib, yenilənib.

Nazirlər və komitə, xidmət, agentlik rəhbərləri öz sahələrinin bacarıqlı mütəxəssisləri, peşəkarlarıdır. Unutmayaq ki, onlar həm də tarixin ən qüdrətli Azərbaycanının və möhtəşəm Zəfərinin müəllifi olan Prezidentin müxtəlif sahələr üzrə strateji inkişaf hədəflərini reallaşdıran iqtidar mənsublarıdır.

Prezidentin inaqurasiya mərasimindəki çıxışının tezisləri, əslində, yeni hökumətin qarşısında konkret vəzifələri müəyyənləşdirir. Daha güclü Azərbaycanı qurmağı qarşıdakı yeddi ilin əsas hədəfi elan edən İlham Əliyevin etimadını doğrultmaq isə yeni hökumətin tək siyasi yox, həm də mənəvi borcudur...

5

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin yeni tərkibi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin üzvləri aşağıdakı şəxslər təyin edilsinlər:

1.1. Azərbaycan Respublikası Baş nazirinin birinci müavini - Yaqub Abdulla oğlu Eyyubov;
1.2. Azərbaycan Respublikası Baş nazirinin müavini - Əli Cavad oğlu Əhmədov;
1.3. Azərbaycan Respublikası Baş nazirinin müavini - Şahin Abdulla oğlu Mustafayev;
1.4. Azərbaycan Respublikasının daxili işlər naziri - Vilayət Süleyman oğlu Eyvazov;
1.5. Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri - Muxtar Bahadur oğlu Babayev;
1.6. Azərbaycan Respublikasının elm və təhsil naziri - Emin Eldar oğlu Əmrullayev;
1.7. Azərbaycan Respublikasının energetika naziri - Pərviz Oqtay oğlu Şahbazov;
1.8. Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri - Sahil Rafiq oğlu Babayev;
1.9. Azərbaycan Respublikasının fövqəladə hallar naziri - Kəmaləddin Fəttah oğlu Heydərov;
1.10. Azərbaycan Respublikasının gənclər və idman naziri - Fərid Fazil oğlu Qayıbov;
1.11. Azərbaycan Respublikasının xarici işlər naziri - Ceyhun Əziz oğlu Bayramov;
1.12. Azərbaycan Respublikasının iqtisadiyyat naziri - Mikayıl Çingiz oğlu Cabbarov;
1.13. Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri - Məcnun Qadir oğlu Məmmədov;
1.14. Azərbaycan Respublikasının maliyyə naziri - Samir Rauf oğlu Şərifov;
1.15. Azərbaycan Respublikasının mədəniyyət naziri - Adil Qabil oğlu Kərimli;
1.16. Azərbaycan Respublikasının müdafiə naziri - Zakir Əsgər oğlu Həsənov;
1.17. Azərbaycan Respublikasının müdafiə sənayesi naziri - Vüqar Valeh oğlu Mustafayev;
1.18. Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri - Rəşad Nəbi oğlu Nəbiyev;
1.19. Azərbaycan Respublikasının səhiyyə naziri - Teymur Yusif oğlu Musayev;
1.20. Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri - Bahar Əvəz qızı Muradova;
1.21. Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin sədri - Fuad Rauf oğlu Muradov;
1.22. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri - Şahin Soltan oğlu Bağırov;
1.23. Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi - Elçin İsağa oğlu Quliyev;
1.24. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri - Tahir Yaqub oğlu Budaqov;
1.25. Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri - Anar Adil oğlu Quliyev;
1.26. Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri - Rövşən Şükür oğlu Rzayev;
1.27. Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi - Vüsal Əfqan oğlu Hüseynov;
1.28. Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi - Əli Nağı oğlu Nağıyev;
1.29. Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin rəisi - Orxan Sedyar oğlu Sultanov;
1.30. Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi - Mürsəl Qorxmaz oğlu İbrahimov;
1.31. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri - Zaur Rauf oğlu Mikayılov;
1.32. Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri - Fuad Hümbət oğlu Nağıyev;
1.33. Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri - Qoşqar İlahi oğlu Təhməzli;
1.34. Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin rəisi - Əsgər Adil oğlu Rəsulov.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 16 fevral 2024-cü il*

# Azərbaycan beynəlxalq əməkdaşlığa xüsusi önəm verir

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Münxendədir

### "Leonardo" şirkətinin baş həmdirektoru ilə görüş

Fevralın 16-da 60-cı Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Almaniyanın Münxen şəhərində səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən, İtaliyanın "Leonardo" şirkətinin baş həmdirektoru Lorenzo Marianinin görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşə görə təşəkkürünü bildirən Lorenzo Mariani dövlətimizin başçısını prezident seçkilərində qələbə münasibətilə "Leonardo" şirkəti ailəsi adından səmimi-qəlbdən təbrik etdi. Vurğuladı ki, İtaliya ilə Azərbaycan arasında strateji tərəfdaşlıqdan irəli gələrək, şirkətin ölkəmiz ilə əməkdaşlığı uğurla inkişaf edir.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.



Prezident İlham Əliyev Azərbaycan ilə "Leonardo" şirkəti arasında əməkdaşlıqdan məmnunluğunu bildirdi. Dövlətimizin başçısı qeyd etdi ki, prezident seçkilərində qələbə qazanması münasibətilə İtaliya Prezidenti tərəfindən göndərilmiş təbrik məktubunda İtaliya-Azərbaycan əlaqələrinin mükəmməl səviyyədə olduğu xarakterizə edilmişdir. Prezident İlham Əliyev də öz növbəsində Azərbaycan-İtaliya əlaqələrinin həqiqətən mükəmməl xarakter daşıdığını və strateji tərəfdaşlıq zəminində inkişaf etdiyini bildirdi.

Söhbət zamanı Azərbaycan ilə "Leonardo" şirkəti arasında müxtəlif sahələrdə, o cümlədən kibertəhlükəsizlik və kosmik sahələrdə, eyni zamanda SOCAR ilə "Leonardo" şirkəti arasında əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı, bu əməkdaşlıqdan məmnunluq ifadə olundu.

### Azərbaycan Prezidenti İlham Əliyev Münxendə ABŞ Prezidentinin xüsusi koordinatoru ilə görüşüb

Fevralın 16-da Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən, ABŞ Prezidentinin qlobal infrastruktur və enerji təhlükəsizliyi üzrə xüsusi koordinatoru Amos Hoxşteynin görüşü olub.

AZƏRTAC xəbər verir ki, Amos Hoxşteyn COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.



ABŞ Prezidentinin qlobal infrastruktur və enerji təhlükəsizliyi üzrə xüsusi koordinatoru hələ 1990-cı illərdən Azərbaycan ilə ABŞ arasında əməkdaşlığı və Xəzər dənizinin karbohidrogen resurslarının dünya bazarına çıxarılmasını ehtiva edən layihələrdə Prezident İlham Əliyev ilə birgə tərəfdaşlığı məmnunluqla xatırladı, Azərbaycanın regionda strateji əhəmiyyətə malik ölkə olduğunu diqqətə çatdırdı.

Görüşdə Orta dəhlizin inkişaf etdirilməsi və Azərbaycanın bu prosesdə rolu müzakirə olundu, COP29 çərçivəsində əməkdaşlıq məsələlərinə toxunuldu.

Söhbət zamanı Azərbaycan-ABŞ ikitərəfli əlaqələrinə dair fikir mübadiləsi aparıldı.

### Münxendə Azərbaycan Prezidenti İlham Əliyevin Bundestaqın Almaniya-Cənubi Qafqaz parlament qrupunun sədri ilə görüşü olub

Fevralın 16-da Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən, Almaniya Bundestaqının Xristian-Demokrat/Xristian-Sosialist İttifaqı fraksiyasının xarici, təhlükəsizlik və müdafiə siyasəti üzrə sədr müavini, Almaniya-Cənubi Qafqaz parlament qrupunun sədri Yohan David Vadefulun görüşü olub.



### Münxendə Azərbaycan Prezidenti İlham Əliyev ilə ATƏT-in fəaliyyətdə olan sədri İan Borqun görüşü keçirilib

Fevralın 16-da Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən, ATƏT-in fəaliyyətdə olan sədri, Malta Respublikasının xarici, Avropa işləri və ticarət naziri İan Borqun görüşü olub.

AZƏRTAC xəbər verir ki, İan Borq dövlətimizin başçısını prezident seçkilərində qələbə münasibətilə təbrik etdi.

Təbriklərə görə təşəkkürünü bildirən dövlətimizin başçısı öz növbəsində Maltanın ATƏT-in fəaliyyətdə olan sədrliyi münasibətilə təbriklərini çatdırdı.

Azərbaycan Prezidenti ATƏT çərçivəsində keçmişin qalıqları olan bir sıra mexanizmlərin - bu xüsusda ATƏT-in Minsk qrupu, Yüksək Səviyyəli Planlaşdırma Komitəsi və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi kimi tamamilə fəaliyyətsiz olan bu strukturların artıq rəsmi qaydada ləğv edilməsinin vacib olduğunu bildirərək, ATƏT çərçivəsində büdcənin də daha məqsədyönlü və vacib



layihələrə istiqamətləndirilməsinin önəmini qeyd etdi.

Dövlətimizin başçısı bildirdi ki, Qarabağ münaqişəsi artıq həll olunub, Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü təmin edib.

Prezident İlham Əliyev Ermənistan ilə Azərbaycan arasında normallaşma prosesinin ikitərəfli xarakter daşıdığını diqqətə çatdırdı.

Görüşdə Maltanın xarici, Avropa işləri və ticarət naziri COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı, Maltanın da kiçik ada ölkələrinin iqlim dəyişikliyi nəticəsində üzləşdiyi problemlərə həssaslıqla yanaşdığını və bu xüsusda Azərbaycan ilə birgə əməkdaşlığa hazır olduğunu bildirdi.

Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan COP çərçivəsində inklüziv konsepsiyanın tərəfdarıdır və kiçik ada dövlətlərinin iqlim dəyişikliyi nəticəsində üzləşdiyi problemlərə çox həssaslıqla yanaşır.

Görüşdə Azərbaycanın sədrliyi dövründə bu məsələyə xüsusi diqqət yetiriləcəyi və bu xüsusda da Malta ilə, həmçinin ATƏT platformasından istifadə edilərək birgə əməkdaşlığa hazırlıq ifadə olundu.

### Azərbaycan Prezidenti İlham Əliyev və İsrailin Prezidenti İsxak Hersoq Münxendə görüşüblər

Fevralın 16-da Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən, İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun görüşü olub.

AZƏRTAC xəbər verir ki, İsrail Prezidenti İsxak Hersoq dövlətimizin başçısına prezident seçkilərində qələbə qazanması münasibətilə təbriklərini çatdırdı.

Prezident İlham Əliyev təbrikə görə təşəkkürünü bildirdi və bununla bağlı İsxak Hersoqdan rəsmi məktub formasında da təbrik aldığını məmnunluqla qeyd etdi. Söhbət zamanı Azərbaycan ilə İsrail arasında müxtəlif sahələrdə əməkdaşlığa dair fikir mübadiləsi aparıldı, hökumətlərarası komissiyanın fəaliyyəti qeyd olundu, iqtisadi-ticari, mədəni, humanitar əlaqələrə toxunuldu. Həmçinin Azərbaycan Respublikasının İsrail Dövlətində səfirliyinin fəaliyyətə başlamasının ikitərəfli əlaqələrimizin inkişafına təkan verdiyi bildirildi.



Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

### Azərbaycan Prezidenti İlham Əliyev ilə Avropa Yenidənqurma və İnkişaf Bankının prezidentinin Münxendə görüşü olub

Fevralın 16-da Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən, Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti Odil Reno-Bassonun görüşü olub.

AZƏRTAC xəbər verir ki, Odil Reno-Basso dövlətimizin başçısına prezident seçkilərində qələbəsi münasibətilə təbriklərini çatdırdı.

Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirdi.

Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin həm Xəzər dənizində, həm də Qara dənizdə gəmi donanmasının artırılması layihələrində iştirakından məmnunluğunu ifadə etdi. Həmçinin AYİB-in Orta Dəhliz layihəsinə böyük əhəmiyyət verdiyini və bu çərçivədə Azərbaycanla əməkdaşlığı yüksək qiymətləndirdiyini qeyd edərək, bu kimi layihələrdə iştirak etməyə hazır olduğunu bildirdi.

Odil Reno-Basso vurğuladı ki, AYİB, eyni zamanda su



resurslarının idarə edilməsi sahəsində də Azərbaycanın tərəfdaşı rolunda çıxış edir və bu istiqamətdə hökumətin həyata keçirdiyi layihələrə dəstək verməyə hazırdır. O, həmçinin COP29 çərçivəsində də AYİB-lə Azərbaycan arasında əməkdaşlıq məsələlərinin, bu xüsusda ölkəmizin bərpaolunan enerji layihələri və "yaşıl keçid" istiqamətində siyasətinin də AYİB tərəfindən təqdir edildiyini və dəstəkləndiyini diqqətə çatdırdı.

Dövlətimizin başçısı Azərbaycanla AYİB arasında əməkdaşlıqdan məmnunluğunu bildirdi. Prezident İlham Əliyev Xəzər Dəniz Gəmiçiliyi ilə, həmçinin Orta dəhliz və su resurslarının idarə edilməsi sahələrində əməkdaşlığın mühüm əhəmiyyətini qeyd edərək, Azərbaycanda "yaşıl keçid" və bərpaolunan enerji resurslarının inkişaf etdirilməsi layihələrinə böyük əhəmiyyət verildiyini, artıq ölkəmizin yaxın dövrlərdə bərpaolunan enerji resurslarının ixracatçısı qismində çıxış edəcəyini vurğuladı.

Görüşdə iqlim dəyişikliyinin artıq Cənubi Qafqaz regionuna da öz təsirlərini göstərdiyi, bu xüsusda Xəzər dənizində suyun səviyyəsinin aşağı düşməsi, Azərbaycanda, həmçinin çaylarda suyun həcminin azalması və digər fəsadların hiss olunduğu qeyd edildi. Söhbət zamanı Xəzər dənizinin suyunun şirinləşdirilməsi layihələrində də AYİB ilə Azərbaycan arasında əməkdaşlıq məsələlərinə toxunuldu.

### Münxendə Azərbaycan Prezidenti İlham Əliyev ilə Almaniyanın Şərqi Biznes Assosiasiyasının icraçı direktorunun görüşü olub

Fevralın 16-da Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən, Almaniyanın Şərqi Biznes Assosiasiyasının icraçı direktoru Mixael Harmsın görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşdə alman iş adamlarının Azərbaycanla iqtisadi əlaqələrini genişləndirməkdə maraqlı olduqları bildirildi. Xüsusilə nəqliyyat, logistika, sənaye, bərpaolunan enerji və digər sahələrdə marağı olan şirkətlərin nümayəndələrinin fevral ayında Azərbaycana səfərinin həyata keçirilməsi barədə Prezident İlham Əliyevə məlumat verildi. Qeyd



edildi ki, bu səfər Azərbaycan Prezidentinin ötən il Almaniyaya səfəri çərçivəsində işgüzar dairələrlə keçirdiyi görüşün nəticəsidir və bu, indiyədək həm təmsilçilik, həm də say baxımından iş adamlarının ən böyük nümayəndə heyəti olacaq.

Görüşdə ölkəmizdə COP29-un keçirilməsinin öz növbəsində daha geniş miqyasda iqtisadi layihələrin reallaşdırılması potensialının gücləndirilməsi işinə xidmət etdiyi qeyd olundu.

### Azərbaycan Prezidenti İlham Əliyev Münxendə Türkiyənin xarici işlər naziri Hakan Fidanla görüşüb

Fevralın 16-da Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən, Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidanın görüşü olub.

AZƏRTAC xəbər verir ki, Hakan Fidan dövlətimizin başçısını prezident seçkilərində qələbə münasibətilə təbrik etdi.

Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə inkişaf etdiyi bir daha vurğulandı, əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik bildirildi.



Görüşdə Azərbaycan-Ermənistan münasibətləri, sülh sazişi ilə bağlı danışıqlar və regional təhlükəsizlik məsələləri müzakirə olundu.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Yenidən Azərbaycan Prezidenti seçilməyiniz münasibətilə Sizə təbriklərimi çatdırmaqdan böyük məmnunluq hissi duyuram. Sizin liderliyinizlə Azərbaycan 20 il ərzində sabitliyi, iqtisadi inkişafı və dini azadlığı təmin etməyə və qorumağa nail olub. Əminəm ki, Sizin yenidən Prezident seçilməyiniz ölkəniz üçün bundan sonra da parlaq və firavan gələcəyi təmin edəcək.

İsrail Dövləti Azərbaycan Respublikası ilə münasibətləri yüksək dəyərləndirir. Bizim ikitərəfli əlaqələrimiz çox vacib iqtisadi, təhlükəsizlik və siyasi faydalar təmin edir. Biz bu möhkəm və davamlı tərəfdaşlığa sadiqliyimizi bildiririk.

Mən Azərbaycan və İsrail arasında əlaqələrin daha da inkişafı və möhkəmlənməsi üçün Sizinlə birgə işləmək imkanına görə şəxsən minnətdarlığımı bildirirəm. Keçən il Sizin gözəl ölkənizə səfərimiz zamanı Mixala və mənə göstərdiyiniz səmimi qonaqpərvərliyi yüksək qiymətləndirirəm.

Gələcək illərdə qarşılıqlı maraqlarımıza dəstək olaraq ölkələrimiz arasındakı münasibətləri dərinləşdirməyə davam etmək istiqamətində Sizinlə işləməyi səbirsizliklə gözləyirəm.

*Hörmətlə,*

***İsxak HERSOQ,***
***İsrail Dövlətinin Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri və əziz Qardaşım.

Dost ölkənizdə bu yaxınlarda keçirilmiş seçkilərdə inamlı qələbə qazanmağınız və yeni müddətə Prezident seçilməyiniz münasibətilə zati-alinizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Fürsətdən istifadə edərək, dost Azərbaycan xalqının rifahı naminə tərəqqi və nailiyyət dolu inkişaf kursunu davam etdirməklə yüksək vəzifənizdə uğurlar arzulayıram.

Sizi Əlcəzairdə keçiriləcək 7-ci Qaz İxrac edən Ölkələrin Forumunun Sammitində görməyi səbirsizliklə gözləyirəm.

Zati-aliləri və hörmətli Qardaşım, ən yüksək və səmimi ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Abdelmacid TEBBUN,***
***Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Azərbaycan Respublikası Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizə Yaponiya hökuməti və Yaponiya xalqı adından səmimi təbriklərimi çatdırıram.

Azərbaycan beynəlxalq enerji təhlükəsizliyi üçün önəmli rola malik ölkə olmaqla yanaşı, regionun sabitliyinin və inkişaf açarının sahibidir. 2022-ci ildə ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümü qeyd edilmişdir. Diplomatik münasibətlər qurulandan sonra hökumətlərarası dialoqlar başda olmaqla, yüksəksəviyyəli səfərlər, parlamentlərarası, həmçinin regionlarda yerli özünüidarəetmə orqanları arasındakı münasibətlər, iqtisadi və ekoloji sahədə əməkdaşlıq və digər istiqamətlərdə əlaqələr fəallaşmaqdadır.

Yaponiya və Azərbaycan arasındakı önəmli münasibətlərin bundan sonra daha da inkişaf etdirilməsi üçün zati-alinizlə əməkdaşlıq etmək niyyətindəyəm.

Azərbaycana, eləcə də Azərbaycan xalqına ürəkdən firavanlıq arzu edirəm.

*Hörmətlə,*

***Fumio KİŞİDA,***
***Yaponiyanın Baş naziri***

❖ ❖ ❖

Zati-aliləri.

Sizi Azərbaycan Respublikasının Prezidenti seçkilərində qələbəniz münasibətilə Banqladeş xalqı adından və şəxsən öz adımdan təbrik edirəm. Qələbəniz Azərbaycan xalqının Sizin müdrik liderliyinizə olan yüksək inamını və etimadını nümayiş etdirir.

Azərbaycan və Banqladeş arasında ortaq dəyərlərə, qarşılıqlı anlaşmaya və dostluğa əsaslanan çox yaxşı ikitərəfli münasibətlər mövcuddur. Mən ikitərəfli münasibətlərimizi xalqlarımızın qarşılıqlı maraqları naminə çoxşaxəli tərəfdaşlığa çevirmək istiqamətində Sizinlə birgə işləməkdə davam etməyi səbirsizliklə gözləyirəm.

Bu fürsətdən istifadə edərək zati-alinizə möhkəm cansağlığı, uzun ömür və xoşbəxtlik, dost Azərbaycan xalqına isə davamlı sülh, inkişaf və rifah arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Məhəmməd ŞAHABUDDİN,***
***Banqladeş Xalq Respublikasının Prezidenti***

❖ ❖ ❖

Cənab Prezident.

Yenidən dövlət başçısı seçilməyiniz münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan şərəf və böyük məmnunluq duyuram.

Sizə yenidən etimad göstərilməsi həmvətənlərinizin ətrafınızda birləşməsinin bariz nümunəsidir. Seçkilərdə qazandığınız qələbə Sizə xalqınızın rifahı və ölkənizin inkişafı ilə bağlı faydalı hesab etdiyiniz islahatları həyata keçirmək üçün lazım olan bütün legitimliyi verir. Sizin uzaqgörən rəhbərliyinizlə Azərbaycan ən mühüm məsələlərdə, o cümlədən ölkə ərazisinin bütövlüyü və iqtisadiyyatının şaxələndirilməsi istiqamətində nəhəng addımlar atmışdır.

Cənab Prezident, əmin olun ki, Siz həmişə Cibuti xalqı və hökuməti tərəfindən ölkələrimiz arasında mövcud olan əlaqələrin möhkəmlənməsinə fayda verən hər cür dəstəyi görəcəksiniz.

Zati-aliləri cənab Prezident, Sizə bir daha müvəffəqiyyətlər arzulayır, qardaşlıq salamlarımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***İsmail Ömər QELLE,***
***Cibuti Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikası vətəndaşlarının müasir tarixdə ilk dəfə olaraq öz vətənlərinin bütün ərazisində seçki hüququndan istifadə edə bilmələri əlamətdar hadisədir və bu tarixi hadisə ölkənizin tam suverenliyini təsdiq edir.

Fürsətdən istifadə edərək ölkələrimizin nəinki qoruyub saxladığı, həmçinin sistemli şəkildə dərinləşdirdiyi möhkəm dostluq münasibətlərini vurğulamaq istəyirəm. Slovakiya Azərbaycanla ticari-iqtisadi əlaqələrin inkişafından tutmuş beynəlxalq səviyyədə qarşılıqlı dəstəyə qədər bir sıra sahələrdə əməkdaşlığı yüksək qiymətləndirir.

İnanıram ki, ikitərəfli əməkdaşlığımız qarşılıqlı anlaşma və ümumi maraqlar naminə bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Zati-aliləri, Sizə möhkəm cansağlığı, fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***Riçard RAŞİ,***
***Slovakiya Respublikasının investisiyalar, regional inkişaf və informasiyalaşdırma naziri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizə Rusiyanın TASS İnformasiya Agentliyinin kollektivi adından səmimi təbriklərimizi çatdırırıq.

Seçkilər Sizin siyasi kursunuza ümumxalq dəstəyini inamlı şəkildə nümayiş etdirdi. Əminik ki, Sizin dövlət başçısı vəzifəsində fəaliyyətiniz gələcəkdə də ölkələrimiz arasında konstruktiv əlaqələrin və tərəfdaşlıq qarşılıqlı fəaliyyətinin davam etməsinə kömək edəcək.

TASS Azərbaycan Respublikası, onun aparıcı kütləvi informasiya vasitələri, siyasi, ictimai, mədəni və elmi dairələri ilə sıx əməkdaşlıq tarixinə malikdir. Bizim mövqeyimiz ondan ibarətdir ki, Rusiya və Azərbaycanın informasiya sahəsində əməkdaşlığı dövlətlərimiz və xalqlarımız arasında sıx əlaqələrin inkişafında mühüm rol oynasın. Bununla əlaqədar agentliyimizin Azərbaycan Respublikasında fəaliyyətinə Sizin davamlı dəstəyinizə və köməyinizə güvənirik.

*Hörmətlə,*

***Andrey KONDRAŞOV,***
***Rusiyanın TASS İnformasiya Agentliyinin baş direktoru***

***Mixail QUSMAN,***
***Baş direktorun birinci müavini***

❖ ❖ ❖

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMTİP) adından ən səmimi təbriklərimi çatdırmaq istərdim.

30 ildən artıqdır ki, BMTİP və Azərbaycan Respublikası geniş spektrli inkişaf sahələrində əsaslı əməkdaşlıq edir. BMTİP inklüziv iqtisadi inkişaf, idarəetmə və rəqəmsallaşma, iqlim fəaliyyəti və fəlakətlərin idarə edilməsi və humanitar minalarla mübarizə də daxil olmaqla, əsas milli prioritetlərin dəstəklənməsində etibarlı tərəfdaş olmaq imtiyazına layiq görülüb. BMTİP Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun olaraq qarşılıqlı surətdə müəyyən edilmiş bu və digər prioritetlər üzrə Azərbaycan Respublikası Hökuməti ilə strateji əməkdaşlığın dərinləşdirilməsinə sadiqdir.

BMT-nin İnkişaf Proqramı ilə Azərbaycan Respublikası arasında strateji tərəfdaşlığı müzakirə etmək üçün Sizinlə görüşməyi səbirsizliklə gözləyirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Açim STEYNER,***
***BMT-nin İnkişaf Proqramının Administratoru***

❖ ❖ ❖

Cənab Prezidentim.

Fevralın 7-də prezident seçkilərinin Qarabağ da daxil olmaqla bütün Azərbaycan ərazisində uğurla keçirilməsi və yenidən dövlət başçısı seçilməyiniz münasibətilə Sizi Türkiyə Palatalar və Birjalar Birliyi və Türk Ticarət və Sənaye Palataları Birliyi adından təbrik edirəm.

Əminəm ki, zati-alinizin yenidən Prezident seçilməsi təkcə ölkələrimizdə deyil, bütün Türk dünyasında inkişaf, rifah, sülh, sabitlik və təhlükəsizlik üçün faydalı olacaqdır.

Sizə cansağlığı, fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

*Hörmətlə,*

***Rıfat HİSARCIKLIOĞLU,***
***Türkiyə Palatalar və Birjalar Birliyinin sədri, Türk Ticarət və Sənaye Palataları Birliyinin sədri***

❖ ❖ ❖

Cənab Prezident.

İşğaldan azad edilmiş ərazilər də daxil olmaqla, bu il fevralın 7-də bütün Azərbaycanda keçirilən prezident seçkilərində qazandığınız qələbə münasibətilə Sizi təbrik edirəm.

Seçkilərin nəticələrinin Azərbaycan xalqı üçün xeyirli olmasını diləyirəm.

Qardaş ölkələr olan Azərbaycan və Türkiyə arasında münasibətlərin "Bir millət, iki dövlət" prinsipi əsasında daha da möhkəmlənəcəyinə inanıram.

Cənab Prezident, Sizə dərin ehtiramımı bildirir, fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***Seyid ARDIÇ,***
***Ankara Sənaye Palatasının İdarə Heyətinin sədri***

❖ ❖ ❖

Cənab Prezident, qalib xalqın qalib Lideri.

Sizi yenidən Prezident seçilməyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Seçkilərdə qələbəniz Azərbaycan xalqının Sizin liderliyinizə olan inamının göstəricisidir. Can Azərbaycanı daha da inkişaf etdirəcəyinizə, xalqın firavanlığını daha da artıracağınıza tam əminəm.

Sizin rəhbərliyinizlə Azərbaycanın beynəlxalq miqyasda təsirli rolu və regionda sülhə töhfələri təqdirlə qarşılanır.

Türkmən elinin Azərbaycanla qardaşlıq bağlarını daha da möhkəmləndirmək əzmimiz və iradəmiz daim yüksəkdir.

Cənab Prezident, Azərbaycanın tərəqqisi və xalqın rifahı naminə fəaliyyətinizdə Sizə uğurlar arzulayıram.

*Hörmətlə,*

***Erşad SALİHİ,***
***İraq Nümayəndələr Şurasının İnsan hüquqları komitəsinin sədri, İraq Türkmən Cəbhəsinin Kərkük millət vəkili***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Sizi Azərbaycanda keçirilmiş növbədənkənar prezident seçkilərində parlaq qələbəniz münasibətilə təbrik edirik. İnanırıq ki, Sizin bu qələbəniz və növbəti müddətə prezidentliyiniz regionda təhlükəsizliyin, sülh və əmin-amanlığın qorunmasına töhfə olacaqdır.

Azərbaycana rəhbərlik etdiyiniz 20 il ərzində Siz ölkənizin tərəqqisi, xalqınızın rifahı, əmin-amanlığı üçün çalışmısınız. Siz hər zaman bütün sahələr kimi, idman sahəsinin inkişafına da diqqət göstərmisiniz, humanist dəyərlərə önəm vermisiniz. Müasir Azərbaycan dövləti atanız Heydər Əliyev tərəfindən mükəmməl və ali dəyərlər üzərində qurulmuşdur və Siz də həmişə bu dəyərlərin ən yüksək səviyyədə daşıyıcısı olmusunuz. Əlbəttə, bütün bunlar Sizin bir lider kimi şəxsi keyfiyyətlərinizdən qaynaqlanır. Hər zaman bütün insani dəyərləri öz şəxsinizdə və addımlarınızda əks etdirmisiniz. Xüsusən idman sahəsinə və idmançılara göstərdiyiniz diqqət və qayğı son dərəcə təqdirəlayiqdir.

Sizin rəhbərliyinizlə Azərbaycanda gənclərin inkişafı üçün bütün zəruri tədbirlər, strateji dövlət proqramları həyata keçirilir. Məhz Sizin diqqət və qayğınız sayəsində Azərbaycanda sağlam ruhlu, nümunəvi vətənpərvər gənclər yetişir, onlar elm, təhsil və idman sahələrində böyük uğurlar qazanırlar.

Möhtərəm cənab Prezident, Sizə bütün təşəbbüslərinizdə və işlərinizdə yeni-yeni nailiyyətlər diləyirik.

*Dərin hörmətlə,*

***Qabi MİXAELİ,***
***Dünya və Avropa Krav Maqa federasiyalarının prezidenti***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

Prezident seçkilərində inamlı qələbəniz münasibətilə Qırğızıstan Həmkarlar İttifaqları Federasiyası adından səmimi təbriklərimizi qəbul etməyinizi xahiş edirəm.

Bu qələbə Sizin Azərbaycan Prezidenti vəzifəsində fədakar fəaliyyətinizin məntiqi nəticəsi və xalqın gələcəkdə də respublikanın sosial-iqtisadi inkişafı, suverenliyinin möhkəmləndirilməsi və beynəlxalq arenada nüfuzunun yüksəldilməsi kursuna dəstəyinin təzahürüdür.

Əminik ki, Sizin rəhbərliyiniz altında qardaş xalqlarımız arasında mədəni və mənəvi bağlar daha da möhkəmləndiriləcək, ikitərəfli əməkdaşlıq, o cümlədən respublikalarımızın milli həmkarlar ittifaqları arasında əlaqələr inkişaf edəcəkdir.

Qırğızıstan Həmkarlar İttifaqları Federasiyası Sizin şəxsinizdə bütün Azərbaycan xalqını demokratiyanın, ədalətin və həmrəyliyin təntənəsi münasibətilə təbrik edir, Sizə möhkəm cansağlığı və ali dövləti fəaliyyətinizdə yeni nailiyyətlər, qardaş Azərbaycan xalqına isə sülh və əmin-amanlıq arzulayır.

*Hörmətlə,*

***Emil KIZAYEV,***
***Qırğızıstan Həmkarlar İttifaqları Federasiyasının sədri***

❖ ❖ ❖

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz və fəaliyyətə başlamağınız münasibətilə Sizə Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə Ofisi adından səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Fürsətdən istifadə edərək FAO-nun daha yaxşı istehsal, daha yaxşı qidalanma, daha yaxşı ətraf mühit və daha yaxşı həyat prinsiplərinə əsaslanan 2022-2031-ci illəri əhatə edən Strateji Çərçivə sənədinə istinad edərək, Azərbaycanda kənd təsərrüfatının dayanıqlı inkişafına dəstək göstərmək niyyətini bir daha vurğulamaq istəyirəm.

Biz, həmçinin Azərbaycan Respublikasına 2024-cü ildə keçiriləcək COP29 Tərəflər Konfransına təşkilatımızın mandatına uyğun sahələr üzrə dəstək göstərməyə hazır olduğumuzu bildiririk.

Sizin rəhbərliyinizlə Azərbaycan hökuməti ilə FAO arasında davamlı şəkildə tərəfdaşlıq və əməkdaşlıq edəcəyimizə inanıram.

Zati-aliləri, dərin hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Nasar HAYAT,***
***FAO-nun Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin rəhbəri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Sizi yenidən Prezident seçilməyiniz münasibətilə Portuqaliyanın Metallurgiya və Əlaqədar Sənaye İşçiləri Həmkarlar İttifaqı Təşkilatının üzvləri adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Cənab Prezident, Sizə ali dövləti fəaliyyətinizdə yeni uğurlar, Azərbaycan xalqına isə tərəqqi və rifah diləyirəm.

*Ən xoş arzularla,*

***Joze SİMOES,***
***Portuqaliyanın Metallurgiya və Əlaqədar Sənaye İşçiləri Həmkarlar İttifaqı Təşkilatının baş katibi***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Müstəqil Azərbaycanın tarixində ilk dəfə olaraq seçkilərin bütün ölkə ərazisində keçirilməsi tarixi hadisədir. Azərbaycan xalqı ilk dəfə olaraq ərazi bütövlüyünü tam bərpa etmiş qalib ölkənin Prezidentini seçdi.

Çünki 30 ilə yaxın həsrətini çəkdiyimiz torpaqlarımızın işğaldan azad edilməsi məhz Sizin güclü siyasi iradənizin və gərgin əməyinizin nəticəsidir. Siz dövlətçilik prinsiplərini əsas tutaraq Azərbaycanın haqq səsini beynəlxalq tribunalarda səsləndirirsiniz.

Mən uzun illərdir ki, atam Həsən Haqverdinin yolu ilə gedərək rəssam kimi xaricdə tədbir və sərgilər keçirməklə ölkəmizi təbliğ edirəm.

Cənab Prezident, Sizin yorulmaz fəaliyyətiniz sayəsində Azərbaycan dövlət quruculuğunda və beynəlxalq aləmdə sanballı uğurlar qazanmışdır. Sizin daxili və xarici siyasətinizə xaricdəki azərbaycanlılar da böyük qürur hissi ilə dəstək verirlər. Biz hər zaman dövlətimizin, Prezidentimizin yanında olacağıq. Azərbaycan dövlətinə və xalqına yorulmaz xidmətlərinizə görə Sizə minnətdarlığımı bildirirəm.

Ailə üzvlərimiz və şəxsən öz adımdan 7 fevral prezident seçkilərində qazandığınız mütləq qələbə münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Sizə bütün işlərinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***Səidə HAQVERDİ (Fagala),***
***keramika rəssamı, "The Post Oak School"un müəllimi.***
*ABŞ, Hyuston şəhəri.*

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Növbədənkənar prezident seçkilərində əldə etdiyiniz üstün qələbə münasibətilə Sizi ürəkdən təbrik edirəm. Bu qələbə xalqın Sizə olan etimadının bariz nümunəsidir.

Azərbaycanın inkişafı istiqamətində atdığınız addımlarda Siz hər zaman qətiyyət nümayiş etdirmisiniz.

Sizin müdrik idarəçiliyiniz sayəsində Azərbaycan xalqı öz tarixi torpaqlarına qayıtdı. Şanlı Zəfərimiz dünya azərbaycanlılarının qəlbində sevinc və qürur hissi oyatdı. Bunun nəticəsidir ki, Azərbaycan xalqı növbədənkənar prezident seçkilərində Müzəffər Ali Baş Komandanın-Sizin namizədliyinizi inamlı şəkildə dəstəklədi. Çox şadam ki, Qalib Xalqımız öz Qalib Liderini seçdi və bu seçim ilə Azərbaycan yeni inkişaf yoluna qədəm qoyur.

Cənab Prezident, Sizə gələcək fəaliyyətinizdə uğurlar arzulayır və bu uğurların ölkəmizin davamlı inkişafına xidmət edəcəyinə əminliyimi bildirirəm.

Yaşasın Azərbaycan!

*Hörmətlə,*

***İsa HƏMZƏZADƏ,***
***"Yorkshire" Azər-Türk Assosiasiyasının (ATAY) sədri.***
*Böyük Britaniya, Lids şəhəri.*

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Bu gün hər bir Azərbaycan vətəndaşı, dünyada yaşayan hər bir azərbaycanlı Şanlı Qarabağ Zəfərinin sevincini yaşayır, haqlı olaraq qürur hissi keçirir. Azərbaycanın çoxəsrlik tarixində heç vaxt buna bənzər qələbə olmayıb. Xalqımız Sizin kimi prezidenti ilə fəxr edir, ona qələbə sevinci yaşadan, başucalığı gətirən Liderinə böyük dəstək verir. Ölkəmizdə keçirilən prezident seçkiləri bir daha bunu göstərdi.

2024-cü il fevralın 7-də keçirilmiş prezident seçkilərində inamlı qələbə qazanaraq növbəti müddətə dövlət başçısı seçilməyiniz, xalqın öz liderinə sarsılmaz inamından qaynaqlanmaqla, son iyirmi ildə görülən işlərə, qazanılan uğurlara verilən ən böyük dəyərdir. Azərbaycan xalqı səsini Sizə verməklə, Ümummilli Lider Heydər Əliyevin ideyalarına sədaqətini bir daha nümayiş etdirdi.

Cənab Prezident, seçkilərdə qazandığınız uğurlu qələbə xəbərini Avropada yaşayan bütün azərbaycanlı soydaşlarımızla birlikdə sevinc hissləri ilə qarşıladıq. Sizi səmimiyyətlə təbrik edir, ölkəmizin daha da güclənməsi naminə fəaliyyətinizdə uğurlar diləyirik.

*Dərin hörmətlə,*

***Elsevər MƏMMƏDOV,***
***Beniluks Azərbaycanlıları Konqresinin sədri.***
*Niderland Krallığı, Rotterdam şəhəri.*

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

2024-cü ilin fevralın 7-də keçirilmiş növbədənkənar prezident seçkilərində qazandığınız qələbə münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Uzaqgörən siyasətiniz və düşünülmüş addımlarınız sayəsində xalqımızın Qarabağ həsrətinə son qoyuldu. Sizin rəhbərliyinizlə qazanılan möhtəşəm Qələbə həmvətənlərimizə sevinc və qürur hissi bəxş etdi. Namizədliyinizin yüksək səs göstəricisi ilə dəstəklənməsi ölkə naminə etdiyiniz misilsiz xidmətlərə Azərbaycan xalqının verdiyi qiymətdir.

Siz Azərbaycanı dünyada güclü mövqeyi olan dövlətlərdən biri etdiniz. Sizə dərin minnətdarlığımızı bildiririk.

Cənab Prezident, prezidentlik fəaliyyətinizin yeni dövründə Sizə uğurlar arzulayıram. İnanıram ki, Sizin liderliyiniz sayəsində ölkəmizdə ictimai-siyasi sabitlik qorunacaq və bizim beynəlxalq müstəvidə nüfuzlu mövqeyimiz daimi olacaqdır. Azərbaycandan uzaqda yaşasaq da, biz azərbaycanlılar Sizinlə qürur duyuruq.

Yaşasın bütöv Azərbaycan!

*Hörmətlə,*

***Kəmalə ŞİRİYEVA,***
***Kanada Azərbaycan-Türk Assosiasiyanın sədri,***
*Kanada, Ontario əyaləti.*

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Sizi Azərbaycan Respublikası Prezidenti seçkilərində qələbəniz münasibətilə Tatarıstanın Naberejnıye Çelnı şəhərində fəaliyyət göstərən "Xarı-Bülbül" Azərbaycan Milli-mədəni muxtariyyətinin yerli təşkilatının üzvləri adından səmimi-qəlbdən təbrik edirəm.

Bu seçkilərin nəticələri Sizin xalqın arasında danılmaz nüfuzunuzdan, ölkə vətəndaşlarının rəhbərliyiniz altında fəal işləməyə və strateji sosial-iqtisadi problemləri həll etməyə hazır olduğundan xəbər verir!

Sizə möhkəm cansağlığı, yüksək dövlət vəzifələrinizdə yeni uğurlar diləyir, rəhbərliyinizlə xalqımıza rifah və firavanlıq arzulayıram. Siz Azərbaycan və Azərbaycan xalqı üçün layiqli gələcəyə inam yaradırsınız!

*Hörmətlə,*

***İsfəndiyar ƏHMƏDOV,***
***Naberejnıye Çelnı şəhərindəki "Xarı-Bülbül" Azərbaycan Milli-mədəni muxtariyyətin sədri***
*Rusiya Federasiyası, Tatarıstan Respublikası, Naberejnıye Çelnı şəhəri.*

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Azərbaycan Respublikasında keçirilmiş növbədənkənar prezident seçkilərində qazandığınız parlaq qələbə münasibətilə Rusiya Federasiyasında fəaliyyət göstərən "İnkişaf" Azərbaycanlıların Regionlararası Alyansı" ictimai təşkilatının üzvləri adından və şəxsən öz adımdan Sizi səmimi-qəlbdən təbrik edirəm. Seçkilərdə əldə etdiyiniz qələbə Azərbaycan xalqının Sizə olan etimadının və inamının bariz nümunəsidir. Azərbaycan xalqı bir daha öz layiqli Liderini yüksək səs çoxluğu ilə dəstəklədi.

Azərbaycan Respublikasının suverenliyinin bərpasından sonra ilk dəfə ölkəmizin bütün ərazilərində bu seçkinin keçirilməsi xüsusi əhəmiyyət kəsb edir. Azad edilmiş torpaqlarımıza qayıdışın sevincini yaşayan xalqımız seçimində bir daha müdrik qərar verdi, Vətənimiz üçün yorulmadan çalışan rəhbərini yenidən Prezident seçdi.

Sizin uzaqgörən siyasətiniz, yüksək diplomatik bacarığınız sayəsində bu gün Azərbaycan dünyada Qalib ölkə kimi tanınır. Əminik ki, Sizin davamlı müdrik rəhbərliyiniz və liderliyiniz sayəsində Azərbaycan və Rusiya arasında dostluq, tərəfdaşlıq münasibətləri daha da güclənəcək və inkişaf edəcəkdir.

Cənab Prezident, Sizə möhkəm cansağlığı və məsuliyyətli fəaliyyətinizdə uğurlar, Vətənimiz Azərbaycana tərəqqi, xalqımıza xoşbəxtlik və əmin-amanlıq arzu edirik.

*Hörmətlə,*

***Ramil ƏLİYEV,***
***"İnkişaf" Azərbaycanlıların Regionlararası Alyansı" ictimai təşkilatının sədri,***
*Rusiya Federasiyası, Moskva vilayəti, İstra şəhəri.*

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

"Poltava vilayətində Ukrayna Azərbaycanlıları Şurası" İctimai Təşkilatının sədri və Poltava vilayətində azərbaycanlıların diasporu adından növbədənkənar prezident seçkilərində parlaq qələbə qazanmağınız münasibətilə Sizi təbrik edirəm.

Səsvermənin nəticələri Azərbaycan xalqının Sizə olan sevgisini və sədaqətini təsdiq etdi.

Cənab Prezident, Sizin sayənizdə bu gün Azərbaycan xalqı öz tarixinin ən şərəfli və qürurlu dövrünü yaşayır. Mən Qalib Xalqın nümayəndəsi olduğum üçün çox xoşbəxtəm. Biz Qalib dövlətin vətəndaşlarıyıq.

Sizin adınız Azərbaycan tarixinə qızıl hərflərlə yazılacaq.

*Hörmətlə,*

***Füzuli QƏNBƏROV,***
***"Poltava vilayətində Ukrayna Azərbaycanlıları Şurası" İctimai Təşkilatının sədri,***
*Ukrayna, Poltava vilayəti.*

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Qazaxıstan Respublikasının Almatı şəhərində yaşayan bütün azərbaycanlılar adından növbədənkənar prezident seçkilərində inamlı qələbəniz və Azərbaycan xalqının mütləq etimadını qazanmağınız münasibətilə Sizi təbrik edirəm.

Biz xoşbəxtik ki, Siz bizim prezidentimizsiniz. Siz düşmən tapdağı altında olan torpağı azad edən, xalqımızın namusunu özünə qaytaran lidersiniz.

Hörmətli Prezident, Siz və atanız, Ulu Öndər Heydər Əliyev Azərbaycanın taleyini, xalqın yolunu müəyyən etdiniz. Siz Azərbaycanın min illik tarixinə öz adlarınızı və nailiyyətlərinizi qızıl hərflərlə əbədi yazmısınız. Məhz Sizin müdrik və strateji qərarlarınız işğal olunmuş torpaqların Azərbaycan xalqına qaytarılmasına kömək etdi.

Sizin uzaqgörən rəhbərliyiniz sayəsində Azərbaycan bütün sahələrdə müstəsna uğurlar qazanıb və dünya arenasında öz layiqli yerini tutub.

Biz Qazaxıstandan Vətənimizdə baş verən hadisələri diqqətlə izləyir, Sizin siyasətinizi dəstəkləyir və qlobal səviyyədə Lider kimi yüksək nüfuzunuzla fəxr edirik.

Bu seçkilər xalqın birliyinin, demokratik və şəffaf seçkilərin, xarici müşahidəçilərin bolluğunun, yüksək seçici fəallığının və şəffaflığın nümunəsi oldu. Azərbaycan sabit şəraitdə demokratik seçkilər keçirməklə, xalqın dövlət başçısına dəstəyini göstərməklə dünyaya nümunə oldu. Seçkilərin nəticəsi gözlənilən idi - Qalib ölkə xalqı öz Liderinə, Qalibinə inamını ən yüksək səs çoxluğu ilə göstərdi.

Biz Sizə inanırıq və bilirik ki, inamla Sizin arxanızca addımlamaq olar. Siz Azərbaycanın xoşbəxt gələcəyinin qarantısınız.

Qazaxıstanda yaşayan azərbaycanlılar Sizə, gözəl ailənizə möhkəm cansağlığı, uzun ömür və səadət, ümumi evimiz Azərbaycana isə çiçəklənmə və qarşıya qoyulan məqsədlərin həyata keçməsini arzulayırlar.

*Hörmətlə,*

***Qəhrəman SADİYEV,***
***Almatı Şəhər Azərbaycanlıları Assosiasiyasının sədri,***
*Qazaxıstan Respublikası, Almatı şəhəri.*

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Alban-Udi Xristian Dini İcması adından Azərbaycan Respublikasında keçirilmiş növbədənkənar Prezident seçkilərində qazandığınız parlaq qələbə münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirik. Seçicilərin yekdil dəstəyi Sizin yüksək nüfuzunuza tam etimad göstərildiyini təsdiq etdi. Bu qələbə Azərbaycan vətəndaşlarının Sizin liderliyinizə olan sonsuz etimadının təzahürüdür.

Azərbaycanda yaşayan bütün xalqların həyat səviyyəsinin yaxşılaşmasına verdiyiniz töhfə göz qabağındadır. Sizin davamlı əməyiniz sayəsində ölkə vətəndaşlarının həyatı hər gün daha da yaxşılaşır, daha keyfiyyətli, xoşbəxt olur. Bu, Azərbaycan Respublikasının Alban-Udi Xristian Dini İcmasında da tam hiss olunur. Sizin rəhbərliyiniz sayəsində ölkəmizdə hamı üçün əlverişli, tolerant və multikultural model yaradılmışdır.

Cənab Prezident, Sizin yenidən Prezident seçilməyinizlə bağlı yaşadığımız sevinc hissi hüdudsuzdur.

Sizə möhkəm cansağlığı, vəzifənizdə yeni uğurlar, Azərbaycan xalqına isə sülh və əmin-amanlıq arzu edirik. Azərbaycanın gələcəyi Sizinlə daha gözəl olacaq, xalqımız daha xoşbəxt, daha firavan yaşayacaq.

*Hörmətlə,*

***Robert MOBİLİ,***
***Azərbaycan Respublikasının Alban-Udi Xristian Dini İcmasının sədri, "Şöhrət" ordenli***
*Azərbaycan Respublikası, Bakı şəhəri*

## A.M.Cəfərova Azərbaycan Respublikasının ədliyyə naziri vəzifəsinin müvəqqəti icrasının həvalə edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının ədliyyə naziri təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası Azərbaycan Respublikası ədliyyə nazirinin müavini Azər Məmməd oğlu Cəfərova həvalə edilsin.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 fevral 2024-cü il*

## S.A.Salahlıya Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədri vəzifəsinin müvəqqəti icrasının həvalə edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Adil oğlu Salahlıya həvalə edilsin.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 fevral 2024-cü il*



# "Cənab İlham Əliyev tərəfindən qarşımıza qoyulan vəzifələrin və verilən tapşırıqların vaxtında və yüksək keyfiyyətlə yerinə yetirilməsi üçün bütün səylərimizi səfərbər edəcəyik"

## Milli Məclisin dünən keçirilən iclasında Baş nazir Əli Əsədovun çıxışı

Hörmətli xanım sədr! Hörmətli deputatlar!

İlk öncə Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə mənim namizədliyimi irəli sürdüyünə və mənə göstərilən yüksək etimada görə Azərbaycan Respublikasının Prezidenti, zati-aliləri möhtərəm cənab İlham Heydər oğlu Əliyevə dərin təşəkkürümü bildirirəm.

Hörmətli deputatlar,

Fürsətdən istifadə edərək müstəqil Azərbaycan Respublikasının tarixində ilk dəfə olaraq bütün suveren ərazilərimizi əhatə edən və şanlı tariximizə Zəfər seçkisi kimi əbədi həkk olunacaq prezident seçkilərində inamlı və möhtəşəm qələbə münasibətilə möhtərəm cənab Prezidenti bu yüksək kürsüdən bir daha ürəkdən təbrik edirəm.

Qədirbilən Azərbaycan xalqı şəffaf və demokratik şəraitdə öz layiqli və ədalətli seçimini edərək bir daha dövlət başçımıza yüksək inam və etimadını göstərdi.

Müasir tariximizə möhtəşəm 20 il kimi yazılan ötən dövrdə zamanın çağırışları və mürəkkəb geosiyasi şərtlər fonunda həyata keçirilən siyasi kurs Azərbaycanın müstəqilliyinin daha da möhkəmlənməsini, respublikamızın bölgənin Lideri və söz sahibi olan, dünya birliyində öz layiqli yerini tutan, iqtisadi və hərbi gücü ilə öz problemlərini həll edən qüdrətli bir dövlətə çevrilməsini təmin etmişdir.

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə rəşadətli ordumuzun otuz ilə yaxın işğal altında olan torpaqlarımızı 44 günlük Vətən müharibəsində azad etməsi, 2023-cü ilin antiterror tədbirləri nəticəsində ölkəmizin suverenliyinin tam bərpa olunması müstəqil dövlətçilik tariximizin ən şanlı səhifəsidir.

Bu gün Azərbaycan postmüharibə dövrünün çağırışlarına uyğun olaraq yeni inkişaf strategiyası ilə inamla irəliləyir, milli dövlət quruculuğunun növbəti şərəfli mərhələsini yaşayır.

Hörmətli deputatlar.

Fevralın 14-də Milli Məclisdə keçirilmiş andiçmə mərasimində cənab Prezident son 20 ildə Azərbaycanın daxili və xarici siyasətində əldə edilən nailiyyətlər və uğurlar barədə ətraflı danışmışdır.

Eyni zamanda andiçmə mərasimində dövlət başçısı ölkəmizin və cəmiyyətimizin hərtərəfli inkişafının əsas istiqamət və hədəflərini müəyyən edən proqram xarakterli geniş çıxış etmişdir.

Növbəti dövrdə müdafiə və milli təhlükəsizliyin daha da gücləndirilməsi, hərbi sahədə texnoloji inkişaf və hərbi-sənaye kompleksinin təkmilləşdirilməsi, silahlı qüvvələrin maddi-texniki təminatının yaxşılaşdırılması, sərhədlərimizin toxunulmazlığının təmin edilməsi əsas prioritet olacaqdır.

Cəmiyyətimizin həyatının bütün sahələrində, o cümlədən sosial sahədə inkişaf dövlət başçımızın hər zaman diqqət mərkəzində olub və olacaqdır.

Azərbaycan vətəndaşının rifahının yaxşılaşdırılması, o cümlədən şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi ən önəmli vəzifə olaraq hökumət qarşısında duracaqdır.

Təbii ki, cənab Prezident öz çıxışında qeyd etdiyi kimi, sosial rifahla bərabər əhalimizin, əsasən gənclərin təhsili, onların milli-mənəvi dəyərlərə və ənənələrə, azərbaycançılıq prinsiplərinə əsaslanaraq formalaşdırılması, müasir çağırışlara və texnologiyalara yiyələnməsi Dördüncü Sənaye İnqilabı dövründə gələcək inkişafımızın təminatçısı olacaqdır.

Gələcək illərdə dünyada artan rəqabətə hazır olmaq üçün əsas prioritetlərimizdən biri yüksək rəqabətli insan kapitalını formalaşdırmaqdır. Bunun üçün müasir təhsilin, sağlam cəmiyyətin, idmanın, mədəniyyətin, innovasiyaların təşviq edilməsi əsas şərtdir.

Əlbəttə ki, bütün bunlara nail olmaq üçün müasir çağırışlara cavab verən dayanıqlı və güclü iqtisadiyyatın, o cümlədən qeyri-neft iqtisadiyyatının sürətli inkişafı, maliyyə müstəqilliyinin daha da gücləndirilməsi təmin edilməlidir.

Növbəti dövrdə Azərbaycan Hökumətinin işinin əsas prioritetlərini bu hədəflərin reallaşdırılması, bununla bağlı qarşıda duran vacib çağırışlara çevik reaksiya verilməsi təşkil edəcəkdir.

Bu baxımdan 2030-cu ilədək milli prioritetləri özündə ehtiva edən "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası", işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış Proqramı və digər irimiqyaslı proqramlar bu istiqamətdə fəaliyyətimizin səmərəli şəkildə davam etdirilməsi üçün yaxşı zəmin yaradır.

Bu prioritetlərdən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi"dir. Təsadüfi deyil ki, COP29 kimi mötəbər beynəlxalq tədbirin məhz ölkəmizdə elan edilmiş "Yaşıl dünya naminə həmrəylik ili"ndə keçirilir.

Hörmətli xanım sədr, Hörmətli deputatlar!

2019-cu ildə cənab Prezident tərəfindən ilk dəfə Baş nazir vəzifəsinə namizədliyimin irəli sürülməsi zamanı bu yüksək kürsüdən çıxışımdan ötən müddətdə Nazirlər Kabineti ilə Milli Məclis arasında fəal birgə iş aparılmışdır.

Ötən müddət ərzində hökumət və ölkəmizin qanunverici orqanı arasında konstruktiv və səmərəli işbirliyi qurulmuş, müxtəlif qanun layihələrinin və sənədlərin məhsuldar birgə müzakirəsi keçirilmişdir.

Buna görə hörmətli deputatlarımıza təşəkkürümü ifadə edirəm.

Ümidvaram ki, növbəti müddətdə də bu xoş ənənəni davam etdirəcəyik və birgə səylərimiz bundan sonra da ölkəmizin tərəqqisinə və xalqımızın rifahının daha da yaxşılaşmasına xidmət edəcəkdir.

Onu da qeyd edim ki, yaxın vaxtlarda Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabat diqqətinizə təqdim ediləcək və ötən il hökumət tərəfindən görülən işləri və qarşıda duran vəzifələri müzakirə edəcəyik.

Hörmətli xanım sədr! Hörmətli deputatlar!

Bu gün bu yüksək kürsüdən bir daha bəyan edirəm ki, Azərbaycan Hökuməti ölkəmizin davamlı inkişafının və xalqımızın firavan həyatının təmin edilməsi ilə bağlı dövlət başçısı cənab İlham Əliyev tərəfindən qarşımıza qoyulan vəzifələrin və verilən tapşırıqların vaxtında və yüksək keyfiyyətlə yerinə yetirilməsi üçün bütün səylərini səfərbər edəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm!

# Milli Məclis Əli Əsədovun Baş nazir təyin edilməsinə razılıq verdi



**Fevralın 16-da Milli Məclisin növbəti plenar iclası keçirildi. İclası açan Milli Məclisin Sədri Sahibə Qafarova əvvəlcə prezident seçkiləri ilə bağlı fikirlərini bölüşdü.**

"Bu il fevralın 7-də ölkəmizin siyasi həyatında tarixi əhəmiyyətli bir hadisə baş vermişdir. Demokratik və şəffaf şəraitdə keçirilən azad və ədalətli seçkilərdə möhtərəm cənab İlham Əliyevin parlaq qələbəsi onun Azərbaycan xalqı və dövləti qarşısında müstəsna xidmətlərinə verilən yüksək qiymətin ifadəsi olmuşdur. Ölkəmizin bütün ərazisində keçirilən növbədənkənar Prezident seçkiləri milli inkişaf tariximizə Zəfər seçkiləri kimi daxil olmuşdur" - deyən Sahibə Qafarova bildirdi ki, xalqımız Azərbaycanın qüdrətli dünya dövlətinə çevrilməsində həlledici rolu olan liderinə sonsuz inam və etimadını bir daha ifadə etmiş, Ulu Öndər Heydər Əliyev tərəfindən təməli qoyulmuş siyasi xəttin davam etməsini istədiyini bildirmişdir. Bu müdrik seçim bölgədə və dünyada mürəkkəb proseslərin cərəyan etdiyi bir dövrdə Azərbaycanda səriştəli və məsuliyyətli rəhbərlik amilinin davamlılığını təmin etmişdir.

Milli Məclisin adından İlham Əliyevə məktub göndərdiyini, yenidən dövlət başçısı seçilməsi münasibəti ilə səmimi təbriklərini və xoş arzularını çatdırdığını deyən Sahibə Qafarovanın sözlərinə görə, bizə qürur verən bir məqam da bundan ibarətdir ki, möhtərəm cənab Prezidentin andiçmə mərasiminin Milli Məclisdə keçirilməsi ənənə halını almışdır və bu da dövlətimizin rəhbərliyi tərəfindən parlamentə verilən önəmi nümayiş etdirir.

Milli Məclisin Sədri daha sonra dedi: "Fevralın 14-də andiçmə mərasimində söylədiyi nitqdə Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev ötən 20 ildən artıq dövrdə ölkəmizin keçdiyi inkişaf yolunu geniş təhlil etdi, bu dövrü uğur və qələbələrlə dolu olan illər kimi dəyərləndirdi, eyni zamanda qarşıya çıxan çətinlikləri və problemləri, xüsusən Qarabağın azad edilməsi, dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin bərpası məsələsini xalqımızın yumruq kimi birləşərək həll etdiyini bildirdi.

Proqram xarakteri daşıyan dərin məzmunlu nitqində dövlət başçısı yeni tarixi dövrdə qarşıda dayanan vəzifələrə nəzər saldı, dövlətimizin milli təhlükəsizliyinin və müdafiə qabiliyyətinin daha da möhkəmləndirilməsi, işğaldan azad edilmiş torpaqların bərpası, sosial-iqtisadi inkişaf, texnoloji üstünlüyün təmin edilməsi, milli-mənəvi dəyərlərə sadiq olan gənc nəslin yetişdirilməsi, azərbaycançılıq məfkurəsinin gücləndirilməsi və digər sahələrdə görüləcək işlərdən danışdı, xarici siyasət istiqamətində yeni üfüqlərin açılması zərurətini qeyd etdi.

Əminliklə söyləmək olar ki, möhtərəm cənab Prezidentin siyasi məharəti və səriştəsi, yaradıcı təfəkkürü və yenilməz əzmi dövlətimizin inkişafı naminə qarşıya qoyulan bütün hədəfləri əldə etməyə imkan yaradacaqdır. Milli Məclis isə dövlət başçısının uzaqgörən daxili və xarici siyasətini qanunvericilik səviyyəsində dəstəkləmək üçün öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışacaqdır".

Gündəlik təsdiq olunduqdan sonra Milli Məclisin Sədri bildirdi ki, iclasın gündəliyində 8 məsələ var və 1-ci məsələ Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə namizədlik haqqında qərar layihəsidir. Milli Məclisin Sədri dedi ki, Azərbaycan Respublikası Konstitusiyasının 118-ci maddəsinin II hissəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Baş nazir vəzifəsinə Əli Hidayət oğlu Əsədovun namizədliyinə razılıq verilməsi üçün Milli Məclisə müraciət etmişdir: "Konstitusiyanın 95-ci maddəsinin I hissəsinin 9-cu bəndinə uyğun olaraq, parlament Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikası Baş nazirinin vəzifəyə təyin edilməsinə razılıq verilməsi məsələsinə dair qərar qəbul etməlidir".

Sahibə Qafarova daha sonra Əli Əsədovla bağlı məlumat verərək dedi: "Əli Əsədovu hamımız yaxşı tanıyırıq. O, Moskva Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir. İqtisadçı alim və mütəxəssisdir. İqtisadiyyat üzrə fəlsəfə doktoru, dosentdir. 1980-1989-cu illərdə Azərbaycan Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda işləmiş, 1989-cu ildən Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunda dosent, kafedra müdiri vəzifələrində çalışmışdır.

Əli Əsədov siyasi fəaliyyətə 1992-ci ildə Yeni Azərbaycan Partiyasının sıralarına daxil olmaqla başlamışdır. Əli müəllim birinci çağırış Milli Məclisin deputatı, İqtisadi siyasət komissiyasının üzvü olmuşdur. Ulu Öndər Heydər Əliyevin sərəncamı ilə 1998-ci ilin aprel ayında Prezidentin İqtisadi məsələlər üzrə köməkçisi təyin edilmişdir. Daha sonra o, Prezident Administrasiyası rəhbərinin müavini, Prezidentin köməkçisi - İqtisadi məsələlər şöbəsinin müdiri vəzifələrində işləmişdir.

2019-cu il oktyabrın 8-dən Azərbaycan Respublikasının Baş naziri vəzifəsində çalışmışdır, bu il fevralın 14-dən Baş nazir səlahiyyətlərini icra edir. Əli Əsədovun iqtisadi məsələləri dərindən bilən təcrübəli mütəxəssis olması Nazirlər Kabinetinin fəaliyyətinin müasir tələblər səviyyəsində qurulmasında mühüm rol oynayır. Əli müəllim yüksək işgüzar və mənəvi keyfiyyətlərə malik olan, bütün bilik və bacarığını işə sərf edən bir insandir".

Milli Məclisin Sədri əminliklə bildirdi ki, Əli Əsədov Azərbaycan Respublikasının Baş naziri vəzifəsində fəaliyyətini layiqincə davam etdirəcəkdir.

İclasda çıxış edənlər Prezident İlham Əliyevin fevralın 14-də Milli Məclisdə andiçmə mərasimindəki çıxışını Azərbaycanın gələcək inkişaf perspektivlərini müəyyən edən Yol xəritəsi kimi dəyərləndirdilər. Dövlət başçısının Azərbaycanın gələcəyi ilə bağlı çox nikbin mesajlar verdiyini vurğuladılar. Bildirildi ki, Prezidentin çıxışında Qarabağ və Şərqi Zəngəzurun bərpası prosesi, Ermənistanla münasibətlərin sülh müqaviləsi əsasında tənzimlənməsi, Zəngəzur dəhlizinin açılması və Türk dünyası ilə inteqrasiyanın yüksək səviyyədə inkişafı əsas istiqamətlər olaraq qeyd edilib.

Deputatlar ölkəmizin bundan sonra sosial-iqtisadi inkişafı ilə əlaqədar qarşıda duran məsələlərin həlli baxımından Baş nazir vəzifəsinə böyük təcrübəyə malik, iqtisadçı alim Əli Əsədovun namizədliyinin irəli sürülməsini məqsədəmüvafiq hesab etdilər. Çıxışlarda Əli Əsədovun Baş nazir kimi 5 illik fəaliyyəti dövründə yüksək peşəkarlıq nümayiş etdirdiyi, onun Azərbaycan dövlətinə və xalqına sadiq olduğu qeyd edildi, həmçinin Əli Əsədovun Yeni Azərbaycan Partiyasında fəaliyyəti yüksək qiymətləndirildi.

Sonra Əli Hidayət oğlu Əsədovun Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin edilməsinə razılıq verilməsi haqqında məsələ səsə qoyularaq qəbul edildi.

Əli Əsədov iclasda çıxış etdi. *(Çıxışın mətni qəzetin bugünkü nömrəsində dərc edilib.)*

Milli Məclisin Sədri Sahibə Qafarova Əli Əsədovu təbrik etdi və çətin, məsuliyyətli işində ona uğurlar arzuladı.

Sonra iclasda "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş), Azərbaycan Respublikasının 1994-cü il 8 fevral 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında (birinci oxunuş), Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş), "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş), "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) və "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihələri müzakirə ediləcək qəbul olundu.

İclasda son olaraq Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi bir oxunuşda müzakirə olunaraq qəbul edildi.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycanın Baş naziri Əli Əsədovun Rusiya Hökumətinin başçısı Mixail Mişustinlə telefon danışığı olub

**Fevralın 16-da Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin Azərbaycan Respublikasının Baş naziri Əli Əsədova zəng edib.**

AZƏRTAC Nazirlər Kabinetinin Mətbuat xidmətinə istinadla xəbər verir ki, Mixail Mişustin Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin olunması münasibətilə Əli Əsədovu təbrik edib.

Telefon danışığı əsnasında tərəflər Azərbaycan ilə Rusiya arasında dostluq münasibətlərinin və qarşılıqlı faydalı əməkdaşlığın inkişafını yüksək qiymətləndirib, strateji tərəfdaşlığın gələcəkdə də möhkəmləndirilməsinə ümidvar olduqlarını bildiriblər.

# Azərbaycanın Baş naziri Əli Əsədov ilə Qırğızıstan Nazirlər Kabinetinin sədri Akılbek Japarov telefonla danışıblar

**Fevralın 16-da Qırğız Respublikası Nazirlər Kabinetinin sədri Akılbek Japarov Azərbaycan Respublikasının Baş naziri Əli Əsədova telefonla zəng edib.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Akılbek Japarov Əli Əsədovu Azərbaycan Respublikasının Baş naziri təyin olunması münasibətilə təbrik edib.

Söhbət zamanı Azərbaycan ilə Qırğızıstan arasında strateji tərəfdaşlığın hərtərəfli inkişafından məmnunluq ifadə olunub.

Tərəflər Azərbaycan-Qırğızıstan qarşılıqlı faydalı əməkdaşlığının inkişaf perspektivlərini də müzakirə ediblər.



# İLHAM ƏLİYEV etimadının məsuliyyəti

## Prezident yeni dövrün inkişaf strategiyasının icrasını təcrübəli peşəkarlar komandasına həvalə etdi

**Ölkənin mühüm icra strukturunun formalaşması prosesi dünən demək olar ki, yekunlaşdı. Prezident İlham Əliyevin Baş nazir və Nazirlər Kabinetinin yeni tərkibi ilə bağlı sərəncamları hökumətin iş üslubu, fəaliyyət perspektivləri barədə ilkin təəssürat yaratmaq üçün yetərlidir. Son təyinatlar mühüm istiqamətlər üzrə Prezidentin yeni strateji baxışlarını aydınlaşdırır.**

### Yeni dövrün yeni hökuməti

Respublikada aparılan islahatlar miqyasına görə olduqca genişdir, həm də sistemlidir. Hər sahə üzrə konkret plan, layihə və vəzifə-məsuliyyət bölgüsü düzgün müəyyənləşdirilib. Yeni dövrün çağırışlarına adekvat olan islahatların uğurlu gedişini təmin etmək məqsədilə aparılan hüquqi-qanunvericilik təkmilləşməsi davamlı hal alıb. İslahatların tənzimlənməsi və yeniləşən sistemə uyğunlaşdırılması Zəfərin yaratdığı reallıqlar kontekstində də real həllini tapıb.

İlham Əliyevin "daha güclü, daha inkişaf edən Azərbaycan, daha rifahlı vətəndaş" konsepsiyasının müasir dövrdə icrasını həyata keçirəcək hökumət də məhz bu situasiyada fəaliyyət göstərəcək. Təşəbbüskarlıq, çeviklik, səmərəlilik, şəffaflıq, məsuliyyət kimi dəyərlər Prezidentin məmurlardan hər zaman əsas tələbi olub. İndi isə görünən odur ki, bunlar həm də yeni hökumətin formalaşmasında İlham Əliyevin əsas etimad meyarıdır.

Prezident yeni dövrün inkişaf strategiyasının icrasını öz sahəsində onilliklər boyu böyük təcrübə qazanmış mütəxəssislərə, eyni zamanda gənclərdən ibarət peşəkarlar komandasına həvalə edib.

Məsələn, Baş nazir vəzifəsinə yenidən təyin edilən Əli Əsədovu fərqləndirən, onun personasına pozitiv ictimai münasibəti yaradan səbəblər çoxdur. 30 ilə yaxın müddətdə dövlətin ən mühüm ali səlahiyyət məqamlarında yüksək vəzifə daşıyan Baş nazir Sovetlər Birliyinin nüfuzlu ali təhsil müəssisələrindən sayılan Moskvadakı Plexanov adına Xalq Təsərrüfatı İnstitutunu bitirib. SSRİ Elmlər Akademiyası İqtisadiyyat İnstitutunda aspirant olub, namizədlik dissertasiyasını müdafiə edərək, iqtisad elmləri namizədi elmi dərəcəsini alıb. Daha sonra fəaliyyətində elmi-pedaqoji yönümə keçib, Azərbaycan Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda, Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunda elmi işçi, dosent və kafedra müdiri kimi çalışıb.

### Niyə məhz Əli Əsədov?

Yeni Azərbaycan Partiyası yarandığı dövrlərdən onun üzvü olan Əli Əsədov Birinci çağırış Milli Məclisin deputatı seçilib. 1998-ci ildə siyasət və idarəetmə ustadı Heydər Əliyevin böyük etimadını qazanıb, Prezidentin iqtisadi məsələlər üzrə köməkçisi təyin edilib. İlham Əliyevin rəhbərliyi dövründə isə statusu həm də Prezident Administrasiyası rəhbərinin müavinliyinədək artırılıb.

Ən böyük etimadı isə 2019-cu ildə Prezident İlham Əliyev tərəfindən Azərbaycan Respublikasının Baş naziri təyin edilməklə qazanıb.

Son 26 ildə hər iki Prezidentin iqtisadi siyasətinin və islahatlar strategiyasının əsas icraçılarından biri kimi, dövlət quruculuğu prosesinə töhfələr verib. Azərbaycanın iqtisadi siyasətinin əsas məqamlarının reallaşmasında peşəkar məmur, həm də bacarıqlı nəzəriyyəçi alim kimi fəal iştirakı olub. Mühüm beynəlxalq tədbirlərdə dövləti və Prezidenti təmsil edib.

Əli Əsədovun məmur fəaliyyəti ilə bərabər, onun qətiyyətli vətəndaş mövqeyi də daim diqqəti cəlb edir. Ziyalılığı, alicənablığı, müasirliyi ilə cəmiyyətdə məmnunluq yaradır. Heydər Əliyev siyasi xəttinə, İlham Əliyev missiyasına tam sədaqətlidir, intriqalara əsla meyillənmir, həmkarları arasında səmimiyyəti, təəssübkeşliyi ilə hörmət qazanıb. Vəzifəsinin imkanlarından sui-istifadə etməməsi, inzibati təsir rıçaqlarını şəxsi maraqlarının ödənməsinə yönəltməməsi onun "təmiz məmur" reputasiyasının əsas zəminidir.

Şübhəsiz ki, Əli Əsədovun təşkilatçılıq qabiliyyəti, təşəbbüskarlığı, bacarığı, ən əsası, fərdi xüsusiyyətləri və fəaliyyət prinsipləri Prezidentin ali etimadını şərtləndirən əsas amil olub.

Milli Məclisin Sədri Sahibə Qafarovanın bu sözləri də Baş nazirə münasibətin ən dolğun ifadəsidir: "Əli Əsədovun iqtisadi məsələləri dərindən bilən təcrübəli mütəxəssis olması Nazirlər Kabinetinin fəaliyyətinin müasir tələblər səviyyəsində qurulmasında mühüm rol oynayır. Əli müəllim yüksək işgüzar və mənəvi keyfiyyətlərə malik olan, bütün bilik və bacarığını işə sərf edən bir insandır. Əminliklə söyləmək olar ki, Əli Əsədov Azərbaycan Respublikasının Baş naziri vəzifəsində fəaliyyətini layiqincə davam etdirəcək".

### Yeni hökumətin strateji prioritetləri

"Cənab İlham Əliyev tərəfindən qarşımıza qoyulan vəzifələrin və verilən tapşırıqların vaxtında və yüksək keyfiyyətlə yerinə yetirilməsi üçün bütün səylərimizi səfərbər edəcəyik" - deyərək Milli Məclisdən Baş nazir vəzifəsinə təsdiqi üçün razılıq alan Əli Əsədov yeni hökumətin strateji fəaliyyət istiqamətlərini də açıqladı.

Görünən odur ki, Prezident İlham Əliyevin yeni dövrdə inkişaf strategiyasının müddəaları elə yeni hökumətin də birmənalı fəaliyyət proqramıdır.

Baş nazirin çıxışı əsasında yeni hökumətin fəaliyyət prioritetlərini belə təsnifatlaşdırmaq olar:

*- müasir çağırışlara cavab verən dayanıqlı və güclü iqtisadiyyatın, o cümlədən qeyri-neft iqtisadiyyatının sürətli inkişafı, maliyyə müstəqilliyinin daha da gücləndirilməsi;*

*- müdafiə və milli təhlükəsizliyin daha da gücləndirilməsi, hərbi sahədə texnoloji inkişaf və hərbi-sənaye kompleksinin təkmilləşdirilməsi, silahlı qüvvələrin maddi-texniki təminatının yaxşılaşdırılması, sərhədlərimizin toxunulmazlığının təmin edilməsi;*

*- Azərbaycan vətəndaşının rifahının daha da yaxşılaşdırılması, o cümlədən şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi;*

*- əhalinin, əsasən gənclərin təhsili, onların milli-mənəvi dəyərlərə və ənənələrə, azərbaycançılıq prinsiplərinə əsaslanaraq formalaşdırılması, müasir çağırışlara və texnologiyalara yiyələnməsi;*

*- dünyada artan rəqabətə hazır olmaq üçün yüksəkrəqabətli insan kapitalını formalaşdırmaq və müasir təhsili, sağlam cəmiyyəti, idmanı, mədəniyyəti, innovasiyaları təşviq etmək...*

Baş nazir bəyan etdi ki, Azərbaycan Hökumətinin işinin əsas prioritetlərini bu hədəflərin reallaşdırılması, bununla bağlı qarşıda duran vacib çağırışlara çevik reaksiya verilməsi təşkil edəcək.

Baş nazirin bu fikirləri isə uğurlu nəticəyə indidən etibarlı zəmin yaradır: "Azərbaycan Hökuməti ölkəmizin davamlı inkişafının və xalqımızın firavan həyatının təmin edilməsi ilə bağlı dövlət başçısı cənab İlham Əliyev tərəfindən qarşımıza qoyulan vəzifələrin və verilən tapşırıqların vaxtında və yüksək keyfiyyətlə yerinə yetirilməsi üçün bütün səylərini səfərbər edəcəkdir".

### Sınanmış kadrlar, bacarıqlı mütəxəssislər

Əli Əsədovun ötən 5 ildə Baş nazir kimi fəaliyyəti Prezident və Milli Məclis tərəfindən yüksək qiymətləndirildi və o, növbəti müddətə yenidən etimad mandatı aldı.

Qarşıdakı dövrdə onun özünün və rəhbərlik etdiyi hökumətin fəaliyyətinin uğurlu olacağına zəmanət verən amil isə yeni Nazirlər Kabinetinin bacarıqlı mütəxəssis kadrlardan təşkil olunmasıdır.

Prezident İlham Əliyevin təsdiq etdiyi Nazirlər Kabinetinin yeni tərkibi əsasən, öncəki hökumətin heyətidir. Ancaq nəzərə alaq ki, bu tərkibin Baş nazir də daxil olmaqla xeyli hissəsi ötən son 6 il müddətində dəyişilib, yenilənib.

Nazirlər və komitə, xidmət, agentlik rəhbərləri öz sahələrinin bacarıqlı mütəxəssisləri, peşəkarlarıdır. Unutmayaq ki, onlar həm də tarixin ən qüdrətli Azərbaycanının və möhtəşəm Zəfərinin müəllifi olan Prezidentin müxtəlif sahələr üzrə strateji inkişaf hədəflərini reallaşdıran iqtidar mənsublarıdır.

Prezident tapşırıqlarının və təşəbbüslərinin icra prosesində çeviklik və səmərəlilik, fəaliyyətdə şəffaflıq, inzibati maneələrdən uzaq, vətəndaşın maraqlarını qoruyan idarəçilik üslubunun yeni hökumət üzvlərinin əsas meyarı olacağına cəmiyyətin yüksək əminliyi var.

Prezidentin inaqurasiya mərasimindəki çıxışının tezisləri, əslində, yeni hökumətin qarşısında konkret vəzifələri müəyyənləşdirir. Daha güclü Azərbaycanı qurmağı qarşıdakı yeddi ilin əsas hədəfi elan edən İlham Əliyevin etimadını doğrultmaq isə yeni hökumətin tək siyasi yox, həm də mənəvi borcudur...

***İxtiyar HÜSEYNLİ,***
***"Azərbaycan"***

# Lüksemburq portalında Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsinin müsahibəsi dərc olunub

**Lüksemburqun https://chronicle.lu portalında Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyovla müsahibə dərc olunub.**




AZƏRTAC xəbər verir ki, müsahibədə E.Əmirbəyov ikitərəfli əlaqələrdən, Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrdən, Bakının evsahibliyi edəcəyi COP29 konfransından, ölkəmizdə bu yaxınlarda keçirilmiş prezident seçkilərindən danışıb.

Lüksemburqa səfəri ilə bağlı sualı cavablandıran Elçin Əmirbəyov bildirib ki, məqsəd lüksemburqlu dostlarla müntəzəm əlaqəni təmin etmək, onlara regional hadisələr haqqında məlumat vermək və ikitərəfli əməkdaşlığı müzakirə etməkdir. O, 2024-cü ilin yanvarında Lüksemburqun Azərbaycandakı ilk səfirinin (Alain de Muyser) akkreditasiyasını ikitərəfli münasibətlərdə mühüm addım kimi qiymətləndirib. Elçin Əmirbəyov vurğulayıb ki, İKT və "yaşıl investisiya" (Lüksemburq üçün təcrübə sahəsi), eləcə də səhiyyə və əczaçılıq sənayesi iki ölkə arasında potensial əməkdaşlıq sahələridir. Bildirilib ki, Lüksemburqun "Cargolux" yük daşıyıcı aviaşirkəti artıq Bakıdan regional mərkəz kimi istifadə edir. Həmçinin hər iki ölkə vətəndaşlarının bir-birini tanımaları üçün daha çox mədəni mübadilələr və turizm imkanlarının genişləndirilməsi zəruridir.

Xüsusi tapşırıqlar üzrə nümayəndə Azərbaycan ilə Avropa İttifaqı (Aİ) arasında münasibətlərin hazırkı vəziyyətindən söz açaraq, Aİ-nin ölkəmizin ən mühüm ticarət tərəfdaşlarından biri olduğunu vurğulayıb. Azərbaycanın Avropaya təbii qaz ixrac etməsinə də toxunan E.Əmirbəyov ölkəmizin Aİ-nin enerji təhlükəsizliyi üzrə strateji tərəfdaşı olduğunu deyib. Əlavə edib ki, Azərbaycan strateji baxımdan Cənubi Qafqazda, Çin və Avropa bazarlarını birləşdirən mühüm geoiqtisadi kəsişmə nöqtəsində yerləşir.

Bu ilin noyabrında Bakının COP29-a evsahibliyi edəcəyini xatırladan Elçin Əmirbəyov diqqətə çatdırıb ki, məqsəd xüsusilə iqlim maliyyəsi ilə bağlı nəbzi tutmaqdır. Birləşmiş Ərəb Əmirliklərinin (COP28), Azərbaycanın (COP29) və Braziliyanın (COP30) davamlılığı təmin etmək və iqlim ambisiyalarını yüksəltmək üçün üçlük (Troyka) yaratması barədə məlumata istinad edən xüsusi nümayəndə, iqlim dəyişikliyi istiqamətində konkret addımlar atmağın hamının məsuliyyəti olduğunu vurğulayıb.

O, ölkəmizdə keçirilən prezident seçkilərinə də toxunub, Prezident İlham Əliyevin seçicilərin 90 faizindən çoxunun səsini toplayaraq yenidən dövlət başçısı seçildiyini vurğulayıb.

Xüsusi tapşırıqlar üzrə nümayəndə vurğulayıb ki, Cənubi Qafqazda münaqişədən sonrakı sülh dövrü yeni mərhələnin başlanğıcıdır.

# YAP Veteranlar Şurasının iclası keçirilib

Fevralın 16-da Yeni Azərbaycan Partiyasının (YAP) Veteranlar Şurasının iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, iclasda çıxış edən YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə əvvəlcə fevralın 7-də ölkəmizdə keçirilən prezident seçkilərinin önəmindən danışıb. O, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin möhtəşəm qələbəsinin xalqın iradəsinin ifadəsi olduğunu diqqətə çatdırıb. Prezident seçkilərinin ilk dəfə müstəqil Azərbaycanın bütün ərazilərində keçirilməsinin tarixi hadisə olduğunu vurğulayan A.Rəhimzadənin sözlərinə görə, bütün dünya bir daha ölkəmizdə Xalq-Lider birliyinin sarsılmazlığına şahid oldu.

YAP Veteranlar Şurasının sədri qeyd edib ki, prezident seçkilərindən sonra artıq müstəqil dövlətimizin həyatında yeni mərhələ başlayıb. Dövlətimizin başçısı andiçmə mərasimində qarşıda dayanan yeni vəzifələri və hədəfləri açıqladı. Xalqımız əmindir ki, Prezident İlham Əliyevin liderliyi ilə yeni dövrdə də hədəflərimizə çatacağıq.

Daha sonra iclasın gündəliyi barədə məlumat verilib. Bildirilib ki, gündəliyə YAP Veteranlar Şurasının ötən ildə fəaliyyətinin yekunları və cari il üçün tədbirlər planının müzakirəsi daxildir.

A.Rəhimzadə diqqətə çatdırıb ki, 2023-cü il YAP Veteranlar Şurası məhsuldar fəaliyyət göstərib. Tədbirlər planında nəzərdə tutulmuş bütün məsələlər icra olunub, Veteranlar Şurasının üzvləri paytaxt Bakıda və regionlarda keçirilən tədbirlərdə fəal iştirak ediblər. A.Rəhimzadə xüsusilə "Heydər Əliyev İli" çərçivəsində keçirilən tədbirlərin önəmini vurğulayaraq, gənclərlə görüşlərin əhəmiyyətinə diqqət çəkib.

2024-cü ilin tədbirlər planına gəlincə, YAP Veteranlar Şurasının sədri il ərzində müxtəlif toplantıların keçirilməsinin nəzərdə tutulduğunu, ideoloji məsələlərin, gənclərlə işin, xüsusilə də Heydər Əliyev ideyalarının təşviqi və Prezident İlham Əliyevin siyasətinin təbliğinin daim diqqət mərkəzində olacağını vurğulayıb.

İclasda YAP Veteranlar Şurasının üzvləri çıxış ediblər. Çıxışlarda yeni dönəmdə dövlətimizin və xalqımızın Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni-yeni nailiyyətlər qazanacağına əminlik ifadə olunub. Natiqlər YAP Veteranlar Şurasının fəaliyyətinə dair ötən ilin yekunlarını qənaətbəxş qiymətləndirməklə yanaşı, 2024-cü ilin tədbirlər planı ilə bağlı fikir və təkliflərini səsləndiriblər.

İclasın sonunda müzakirə olunan məsələlərlə bağlı müvafiq qərarlar qəbul edilib.

# Azərbaycanın və Meksikanın ombudsman təsisatları arasında əməkdaşlığın gücləndirilməsi məsələləri müzakirə edilib

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Meksika Birləşmiş Ştatlarının ölkəmizdəki səfiri xanım Mariya Viktoriya Romero Kabalyeron ilə görüşüb.



Ombudsman Aparatından AZƏRTAC-a bildirilib ki, görüşdə Səbinə Əliyeva qonağa insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində həyata keçirdiyi fəaliyyət barədə geniş məlumat verib. Müvəkkil beynəlxalq qurumlarla əməkdaşlığa mühüm əhəmiyyət verildiyini, xarici ölkələrin ombudsman və milli insan hüquqları institutları ilə sıx əməkdaşlıq əlaqələrinin mövcud olduğunu və bir sıra təsisatlarla anlaşma memorandumlarının imzalandığını bildirib.

Səbinə Əliyeva "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanununa edilmiş son dəyişikliklərdən danışaraq, əlilliyi olan şəxslərin və uşaq hüquqlarının müdafiəsi, bərabərlik hüququnun təminatı və ayrı-seçkiliyin qarşısının alınması sahəsində mandatının genişləndiyini diqqətə çatdırıb.

Görüşdə gender bərabərliyinin təbliği və təmini, qadın hüquqlarının müdafiəsi istiqamətində fəaliyyətin əhəmiyyəti vurğulanıb, bu sahədəki müsbət təcrübələr və gələcək əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparılıb.

Son illərdə ölkəmizin evsahibliyi etdiyi bir sıra mühüm beynəlxalq tədbirlər və əldə olunan nailiyyətlər barədə məlumat verən ombudsman BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un 2024-cü ildə Azərbaycanda keçiriləcəyini diqqətə çatdırıb.

Görüşdə, həmçinin hər iki ölkənin ombudsman təsisatları arasında əməkdaşlığın gücləndirilməsi ilə bağlı perspektivlər və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə edilib.

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova fevralın 16-da Horadiz şəhərində vətəndaşların müraciətlərini dinləyib.

Komitədən AZƏRTAC-a bildirilib ki, Horadiz şəhərindəki Muğam Mərkəzində keçirilən görüşdə Füzuli, Beyləqan və Xocavənd rayonlarından olan sakinlər iştirak ediblər.

Görüş zamanı ünvanlı sosial yardımın bərpa olunması, əlillik dərəcəsinin müəyyən edilməsi, işlə təminolunma və digər məsələlərlə bağlı vətəndaşların ərizələrinə baxılıb.

Komitənin fəaliyyət istiqamətlərinə uyğun olan müraciətlərin həlli ilə əlaqədar müvafiq tədbirlər görülüb. Həlli araşdırma tələb edən məsələlərlə bağlı yazılı müraciət qeydə alınaraq, aidiyyəti şöbələrin icraatına yönləndirilib.

# Azərbaycanı böyük uğurlar gözləyir

**"Azərbaycan Respublikası son 20 ildə Prezident İlham Əliyevin apardığı qətiyyətli, prinsipial, milli maraqlara hesablanmış ardıcıl siyasət sayəsində inkişaf etmiş güclü ölkəyə çevrilib. Təbii ki, bu siyasətin uğurlu olmasının təməlində ölkədə təmin olunmuş sabitlik, milli birlik və həmrəylik dayanır. Bu gün Azərbaycan dünyanın sabitlik adasıdır. Son 20 ildə Azərbaycan xalqı vahid amal ətrafında birləşərək torpaqlarını erməni işğalından azad edib. Bu bir daha sübut edir ki, təmin olunmuş birlik və həmrəylik bütün uğurlarımızın təməlində dayanır".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Azər Badamov Prezident İlham Əliyevin inaqurasiya mərasimində çıxışı barədə danışarkən deyib. Deputat bildirib ki, dövlət başçısının çıxışından aydın oldu ki, yeni dövrdə əsas vəzifələrimiz ölkədəki siyasi sabitliyi qoruyub saxlamaq, sarsılmaz milli birlik və həmrəyliyi daha da möhkəmləndirməkdir: "Tarix göstərib ki, ictimai-siyasi sabitliyi təmin olunmuş ölkələrdə daim iqtisadi, sosial və hərbi uğurlar əldə edilmişdir. Biz son 20 ildə ölkəmizin iqtisadi mənzərəsinə baxsaq görərik ki, elə bir sahə olmamışdır ki, orada uğurlu nəticələr əldə olunmasın. Bu məsələnin daha yaxşı izahını son 20 ilin əsas iqtisadi göstəricilərinə diqqət yetirməklə görə bilərik. Belə ki, 2003-cü ildə ÜDM 7 milyard dollar idisə, 2023-cü ildə bu rəqəm 72 milyard dollara çatıb. Son 20 ildə valyuta ehtiyatlarımız 1,6 milyard dollardan 70 milyard dollara, minimum əməkhaqqı 9 manatdan 345 manata, minimum pensiya 20 manatdan 280 manata qədər artıb. Ölkədə orta pensiya 500 manata, orta əməkhaqqı isə 940 manata qədər artıb. Ölkəmizin xarici dövlət borcu 9 faizdən aşağıdır. Bu rəqəm Azərbaycanın qazandığı iqtisadi inkişafın qlobal iqtisadiyyatla müqayisədə ən yaxşı göstərici hesab olunur. Bu gün dünyanın inkişaf etmiş ölkələrinin xarici dövlət borcları ÜDM-in 100 faizi və ondan çoxdur".

Son 20 ilin iqtisadi uğurlarından bəhs edən deputat qeyd edib: "Ölkə iqtisadiyyatına 320 milyard dollar sərmayə yatırılıb. Ölkənin qeyri-neft sektorunun inkişafı üçün bütün imkanlar yaradılıb. İqtisadiyyatın inkişafı nəticəsində yeni müəssisələr açılıb ki, bu da işsizlik probleminin aşağı enməsini şərtləndirib. Belə ki, 2003-cü ildə ölkədə işsizlik 50 faiz olduğu halda bu gün bu rəqəm 5 faizdir. Cəmiyyətin həssas təbəqəsi olan şəhid ailələri və qazilər üçün 14800 mənzil, 7600 avtomobil verilib. O cümlədən qarşıdan gələn iki ildə bu kateqoriyadan olan ailələrin 100 faizinin mənzillərlə təmin edilməsi üçün dövlət proqramı icra olunur".

Azər Badamov Prezident İlham Əliyevin hakimiyyəti illərində ordu quruculuğunun dövlət siyasətinin əsas prioriteti olduğunu vurğulayıb. Bildirib ki, bu gün dövlət büdcəsindən ayrılan vəsaitin böyük hissəsini müdafiə xərcləri təşkil edir. Ordumuzu yüksək səviyyədə gücləndirə bildiyimiz üçün 44 gündə Vətən müharibəsində qalib gəldik və bir neçə saat ərzində ərazilərimizdə hərbi tədbirlər aparmaqla Qarabağda erməni separatçılığının kökünü kəsdik, suverenliyimizi tam təmin etdik. Bu gün də ordu quruculuğu və hərbi sənayenin inkişaf etdirilməsi dövlət başçısının müəyyənləşdirdiyi hədəflər sırasında ilk yerlərdə dayanır. Hərbi sənayenin inkişaf etdirilməsi, dövlət-özəl əməkdaşlığı sayəsində bu sektora 1 milyard manat investisiyanın yatırılmasının həyata keçirilməsi yeni nailiyyətlərin qazanılmasına yol açacaq".

Deputatın sözlərinə görə, yeni dövrdə iqtisadiyyatımızın inkişafı yeni reallıqlara uyğun müəyyənləşdirilib. Belə ki, texnoloji inkişafın həyata keçirilməsi günün əsas çağırışlarındandır. Bunun üçün yeni kadr potensialının formalaşdırılması məsələsi gündəlikdə dayanır. 2026-cı ilə qədər 140 mindən çox keçmiş məcburi köçkünün öz doğma yurdlarına qaytarılmasını təmin etmək hədəflənib.

"Azərbaycan beynəlxalq birliyin etibarlı üzvüdür. Müstəqil və qətiyyətli addımları sayəsində ölkəmizin nüfuzu çox yüksəklərə qalxıb. Ölkəmizin 2012-2013-cü illərdə 155 dövlətin dəstəyi ilə BMT TŞ-yə qeyri-daimi üzv seçilməyi, son üç ildə 120 dövlətin dəstəyi ilə Qoşulmama Hərəkatına sədrliyi və bu il keçiriləcək COP29 beynəlxalq konfransına evsahibliyi etməsi Azərbaycanın nüfuzunun göstəricisidir. Azərbaycanın evsahibliyi etdiyi bütün beynəlxalq tədbirlər yüksək səviyyədə həyata keçirilir və bu, təşlkilatların həyatında uğurlu fəaliyyəti ilə silinməz iz buraxır. Qarşıdan gələn COP29 beynəlxalq konfransı da yüksək səviyyədə təşkil olunacaq və bu tədbirdə Azərbaycanın təşəbbüsü ilə iqlim dəyişikliklərinə qarşı mübarizənin gücləndirilməsindən ötrü dünyada əhəmiyyətli qlobal qərarların qəbul olunacağına şübhə yoxdur", - deyə müsahibim bildirib.

Azər Badamov söyləyib ki, respublikamızda güclü xalq-iqtidar birliyi mövcuddur: "Bu birlik sarsılmazdır və hər bir xarici təhdidə qarşı öz cavabını verir. Bu gün Azərbaycanın müstəqil siyasətini qəbul edə bilməyən dairələr mövcuddur. Xalqımızın monolit birliyi ölkəmizdə sabitliyi pozmaq istəyən xarici qüvvələrə qarşı öz cavabını verir. Yeni dövrdə dövlət başçısının qarşıya qoyduğu bütün vəzifələrin yüksək səviyyədə icrası sayəsində Azərbaycan dinamik inkişafını davam etdirəcək və dünyada öz nüfuzlu mövqeyini daha da möhkəmləndirəcək".

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

# Yeni dövrün strateji prioritetləri

Azərbaycan xalqı 2003-cü il oktyabrın 15-dən başlayaraq İlham Əliyevin rəhbərliyi ilə zaman üçün qısa, insanlıq üçün böyük bir zaman dilimində sınaqlarla dolu, mübarizələrdən keçən və Zəfər zirvəsinə yetən şərəfli yol qət edib.



Ötən illərdə Ulu Öndər siyasi kursunun layiqli davamçısı İlham Əliyev bir zamanlar beynəlxalq meydanda təklənən, torpaqları işğal altında olan, yüz minlərlə vətəndaşı didərgin düşən, iqtisadiyyatı tənəzzül edən Azərbaycanı hərtərəfli, istər siyasi, iqtisadi, istərsə də hərbi cəhətdən olsun, inkişaf etdirərək dünyanın nüfuzlu, eləcə də güclü ölkələri sırasına yüksəldib.

Qalib Lider İlham Əliyev şəxsi liderlik qabiliyyəti, siyasi əzmi və qətiyyəti ilə 2020-ci il Şuşa zəfərini və onun möhtəşəm davamı olan 2023-cü il Xankəndi zəfərini qazanaraq xalqımıza son iki yüz illik tariximizdəki ən möhtəşəm qələbələri bəxş edib. Fevralın 7-də keçirilən prezident seçkilərində xalqın yüksək etimadını qazanaraq qalib olan İlham Əliyev andiçmə mərasimindəki çıxışında məhz bu məqamlara toxunaraq bildirdi ki, ötən illər uğurlarla, qələbələrlə dolu illər olmuşdur: "2003-cü ildə verdiyim bütün vədlər yerinə yetirildi. Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır. Biz doğrudan da bütün dünyaya sübut etmişik ki, böyük xalqıq, biz öz taleyimizi özümüz həll edirik, ölkə qarşısında duran problemləri özümüz heç kimin köməyi olmadan həll edirik və əsaslı şəkildə həll edirik".

## Milli inkişaf istiqamətləri

Ancaq bu gün qürurunu yaşadığımız bu qələbələrə, uğurlara yetənə qədər xeyli çətinlikləri aşmalı, böyük güclərlə savaş aparmalı olduq.

1993-cü ildə Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə gəlməsi ilə Azərbaycan hərtərəfli inkişaf yoluna qədəm qoydu. 2003-cü ildən sonra isə ölkəmiz İlham Əliyevin rəhbərliyi altında daha böyük nailiyyətlərə imza atdı.

Torpaqlarımızın işğal altında olduğu, məcburi köçkünlük problemi yaşandığı və üstəlik də siyasi, diplomatik müstəvidə bəzi beynəlxalq qurum və ölkələrin qərəzi ilə üz-üzə qaldığımız dövrdə İlham Əliyev Azərbaycanı tərəqqi və dinamik inkişaf səviyyəsinə yüksəldərək, sözün əsl mənasında, imkansız olanı da bacaran dahi siyasətçi kimi adını tarixə həkk etdirdi.

Prezident İlham Əliyevin qarşısına qoyduğu birnömrəli vəzifə ərazilərimizin işğaldan azad edilməsi və torpaqlarımızda kök salan erməni separatizminin məhv edilməsi idi. Buna görə də ötən 20 il ərzində bu milli hədəf istiqamətində böyük qətiyyət, əzm və iradə ilə dövlətimizin həm daxilində, həm beynəlxalq arenada məqsədyönlü fəaliyyət aparır, xüsusilə də ordu quruculuğu sahəsində mühüm işlər gerçəkləşdirirdi.

Fevralın 14-də andiçmə mərasimində Prezident İlham Əliyev xüsusi vurğuladı ki, verdiyi vədlər arasında, ilk növbədə, ölkəmizin ərazi bütövlüyünün bərpası gəlirdi: "...2018-ci ildə bax bu kürsüdən andiçmə mərasimində demişdim ki, Ermənistan-Azərbaycan münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır, heç vaxt Azərbaycan xalqı öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək və nəyin bahasına olursa-olsun biz öz doğma torpaqlarımızı azad edəcəyik".

Həmin günün üzərindən cəmi 2 il yarım keçdikdən sonra Vətən müharibəsində xalqımız bir yumruq kimi birləşərək düşmənin başında güclü zərbəyə çevrildi və torpaqlarımızın böyük hissəsini düşmən tapdağından azad etdi. 300-dən çox şəhər və kənd, o cümlədən Şuşa azad olundu. Qəhrəman döyüşçülərimiz Qarabağın tacı Şuşanı elə bir cəsurluqla azadlığına qovuşdurdular ki, belə hünərə dünya hərb tarixində hələ rast gəlinməyib. Çünki o gün Şuşanı azad edən igid oğullarımızın silahı top-tüfəng deyil, düşmənə qəzəb hissi, bir də hər azərbaycanlının özünə Vətən qibləsi saydığı Şuşaya olan tükənməz sevgisi idi.

## Bütöv Azərbaycanın qüruru

Qalib Lider İlham Əliyevin 2023-cü il sentyabrın 20-də qazandığı Xankəndi qələbəsi isə xalqımızın onilliklərdir gəldiyi haqq yolunun Zəfər zirvəsi oldu.

Ərazi bütövlüyümüz, suverenliyimiz tam təmin edildi, bayrağımız Xankəndidə, Xocalıda, Xocavənddə, Əsgəranda - bütün ərazilərimizdə dalğalandırıldı.

Bununla da Qarabağda erməni separatizminin kökü birdəfəlik kəsildi. Torpaqlarımız uğrunda şəhid olan bütün vətən övladlarının qisası alındı. Xocalıda, Bağanis-Ayrımda, Ballıqayada, Ağdabanda, Başlıbeldə və digər neçə-neçə şəhər və kəndlərimizdə dinc sakinlərimizə qarşı soyqırımı törədən erməni canilər bir-bir həbs edilərək törətdikləri qaniçən əməllərin hesabını vermək üçün Bakıya gətirilərək ədalət məhkəməsinə çıxarıldılar.

2024-cü il fevralın 7-də isə Xankəndidə Prezident İlham Əliyevin səsvermə qutusuna atdığı bülletenlə, dövlət başçısının özünün təbirincə desək, erməni separatizminin tabutuna son mismar çalındı.

Qalib Lider İlham Əliyevin rəhbərliyi ilə illər öncə qarşısına qoyduğu milli vəzifəsinə Xankəndi zəfəri ilə son nöqtəsini qoyan, layiqincə mübarizə apararaq tarixi ədaləti bərpa edən Azərbaycan indi uğurlara hədəflənən və çağırışlarla bol yeni dövrə qədəm qoyub.

Qarşısına Silahlı Qüvvələrimizin bundan sonra da gücləndirilməsi, sərhədlərimizin daha da güclü qorunması, Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsi, yeni dövrdə xarici siyasət istiqamətində yeni üfüqlərin açılması və sair kimi mühüm vəzifələr qoyan Azərbaycanın bütün sahələrdə uğurlara nail olacağı, məqsədlərinə, hədəflərinə doğru inamla addımlayaraq işıqlı sabahlara yetişəcəyi şübhəsizdir.

Necə ki bunu fevralın 14-də inaqurasiya mərasimində Prezident İlham Əliyev qətiyyətlə bildirdi: "İndi isə yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq, mən buna şübhə etmirəm".

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan gəncləri milli-mənəvi dəyərlərə sadiq qalmalıdırlar

**Azərbaycan ictimaiyyəti, dünya azərbaycanlıları və tərəqqipərvər bəşəriyyət cari il fevralın 7-də ölkəmizdə keçirilən prezident seçkilərinin şahidi oldular. Təqribən 30 illik fasilədən sonra ilk dəfə olaraq ölkəmizin bütün ərazilərində keçirilən bu səsvermədə hamının qəlbində ədalətli seçki coşqusunu nümayiş edirdi.**

Azərbaycan üçün tarixi önəm daşıyan bu seçkilərdə işğaldan azad edilmiş ərazilərdə təxminən 22 min seçici səsvermədə iştirak etdi. Qarabağın incisi Şuşada, bir vaxtlar separatçı rejimin "paytaxt"ına çevrilmiş Xankəndidə, ermənilərin soyqırımı cinayəti törətdikləri Xocalıda və digər işğaldan azad olunmuş ərazilərdə olduğu kimi, respublikamızın başqa şəhər və kəndlərində yaşayan insanlarda da xoş ovqat yaratmışdı.

Seçkilərdə 92,12 faiz səslə qələbə qazanan cənab İlham Əliyev fevralın 14-də Milli Məclisdə keçirilən andiçmə mərasimindən sonra prezidentlik fəaliyyətinin beşinci dövrünə qədəm qoymuşdur.

Ölkə əhalisində məmnunluq doğuran, Qalib Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin nitqində deyildiyi kimi, "Bu gün Azərbaycan xalqı bir yumruq kimi birləşib. Bizi birləşdirən ümummilli məsələ Qarabağın azad edilməsi idi. Bu məsələ artıq öz həllini tapıb. Bu milli birlik daimi olmalıdır, çünki Azərbaycanın önəmi artır, dünyada oynadığı rolu artır. Görünən odur ki, ölkəmizə qarşı bundan sonra da ideoloji təxribatlar istisna deyil. Uğurlarımıza kölgə salmaq, bizi diskriminasiyaya uğratmaq, Azərbaycan haqqında əsassız və yalançı, mənfi imic yaratmaq - biz bütün bunları gündəlik həyatda görürük, Azərbaycan xalqı görür və bundan hiddətlənir".

Odur ki, insanlar, xüsusən də milli-mənəvi dəyərlər ruhunda böyüyən gənclərimiz xalqımızın qələbəsinə, haqq-ədalət uğrunda apardığı mübarizəyə və beynəlxalq qanunlara söykənən tələblərinə kölgə salmağa çalışan, bəzi xarici qüvvələrin yalan və şantaj xarakterli uydurmalarını pisləyir və bundan sonra da pisləyəcəklər.

Gənc nəslin milli dəyərlər və vətənpərvərlik ruhunda tərbiyə edilməsi onun mənsub olduğu xalqın rifahı, eyni zamanda ölkənin inkişafının rəhnidir. Zamanında Ulu Öndər Heydər Əliyev çıxışlarında vurğulamışdır: "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir". Ulu Öndər hesab edirdi ki, gənclər hər bir xalqın gələcəyini və inkişaf yolunu müəyyənləşdirən, cəmiyyətin ictimai-siyasi həyatında yaxından iştirak edən aparıcı təbəqədir. Təsadüfi deyildir ki, müasir dövrdə gənclərimiz Milli Ordumuzun sıralarını artıran, ictimai-siyasi həyatda dövlətin ümumi inkişaf səviyyəsini, iqtisadi-siyasi potensialını müəyyənləşdirən böyük qüvvə sayılır. Bu baxımdan, dünyanın sivil cəmiyyətlərində olduğu kimi, ölkəmizdə də gənc nəslin mənəvi-ideoloji tərbiyəsi əsas prioritetlərdən hesab olunur.

Azərbaycan Prezidenti andiçmə mərasimində xüsusi olaraq vurğulamışdır: "Biz elə bir gənc nəsil yetişdirməliyik ki, onlar da daim bizim kimi milli ənənələrə, milli-mənəvi dəyərlərə sadiq olsunlar, onların beyinləri saf olsun. Heç kim onların beyinlərini zəhərləmək istəyəndə uğura nail olmasın və burada, əlbəttə ki, ilk növbədə, ailə tərbiyəsi ön plana çıxır. Xoşbəxtlikdən Azərbaycan ailəsi sağlam ailədir, ənənələr, milli dəyərlər üzərində qurulan ailədir. Ailə tərbiyəsi hər bir gənc üçün, hər bir uşaq üçün əsas tərbiyədir. İkinci yerdə məktəb tərbiyəsidir və belə müzəffər gənclərimizin yetişdirilməsində də Azərbaycan məktəbinin çox böyük rolu vardır. Məktəblərdə uşaqlara aşılanan dəyərlər, müstəqilliklə bağlı, milli ləyaqətlə bağlı, əsrlər boyu bizə qarşı edilən ədalətsizliklə, - təkcə son 30 il ərzində yox, - torpaqlarımızın müxtəlif dövrlərdə əlimizdən alınması ilə bağlı və bizim qəhrəmanlıq tariximizlə bağlı uşaqlara verilən tərbiyə və biliklər çox böyük önəm daşıyır. Bütövlükdə milli-mənəvi dəyərlərə gəldikdə, bu, bizim cəmiyyətimizin əsasıdır və bu, sarsılmaz varlıqdır, sarsılmaz dəyərdir və bunu sarsılmaz etmək bizim əlimizdədir. Çünki burada hər hansı bir kənar qüvvə öz çirkin niyyətlərinə çatsa, o zaman bizim ciddi problemlərimiz olacaq. Ona görə gənclərimizin milli ruhda tərbiyə edilməsi, ənənəvi dəyərlər əsasında tərbiyə edilməsi, dırnaqarası mütərəqqi və yad dəyərlərin tamamilə cəmiyyətimizdən silinməsi - bu vəzifə bizim hamımızın qarşısında durur, hər bir ailə qarşısında durur və dövlət qarşısında durur".

Müzəffər Ali Baş Komandan İlham Əliyev bir daha xatırlatmışdır ki, biz bundan sonra da Azərbaycanda vətəndaş cəmiyyətinin yaradılması ilə bağlı addımlar atacağıq. Azərbaycan xalqının həmrəyliyi əsas uğurlarımızdan biridir. İkinci Qarabağ müharibəsindəki parlaq qələbə bir daha onu göstərdi ki, Azərbaycan xalqı böyük xalqdır. Azərbaycanda yaşayan bütün etnik qruplar, bütün xalqlar Azərbaycan bayrağı altında birləşib. Bu qələbədə, bu tarixi zəfərdə ölkəmizdə yaşayan hər bir xalqın öz dəyərli töhfəsi var.

Azərbaycançılıq ideologiyası, azərbaycançılıq prinsipləri ölkəmizdə çoxdan bərqərar olub. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu azərbaycançılıq məfkurəsi bu gün Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilir. Müasir Azərbaycan gəncləri də bu müsbət amillərə, milli-mənəvi dəyərlərə sadiq qalaraq qarşıya qoyulan məsələlərin həlli üçün əllərindən gələni əsirgəməməlidirlər.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# Yeni hədəflər

## Daha güclü iqtisadiyyat, daha qüdrətli ordu, daha təminatlı həyat

**Prezident İlham Əliyevin fevralın 14-də Milli Məclisdə keçirilən andiçmə mərasimində ölkəmizin müstəqillik dövründə yaşadığı tarixi hadisələri, o cümlədən işğalçı Ermənistan üzərində qazandığı zəfəri dərindən təhlil edərək onlara qiymət verməsi geniş maraq doğurub.**

Dövlət başçısı qələbəmizin mənbəyi olan bir neçə önəmli amilə toxunarkən iqtisadi inkişafımızın əhəmiyyətini xüsusi olaraq vurğulamış, işğaldan azad edilən torpaqlarımızda icra edilən nəhəng quruculuq-bərpa işlərinin sürətlə aparılmasında iqtisadi uğurların əhəmiyyətinin önəmli rol oynadığını bildirmişdir. Vurğulamışdır ki, dövlətimizin iqtisadi cəhətdən güclü olması, maliyyə imkanlarımız müharibədə qələbə qazanmağa, postmüharibə dövründə sürətli bərpa-quruculuq layihələri icra etməyə imkan vermişdir.

Məlumdur ki, iqtisadi inkişaf hər bir dövlətə müstəqil siyasət aparmağa imkan verən başlıca amildir. Çünki maliyyə dəstəyi üçün müraciət edilən ölkələr və ya beynəlxalq maliyyə qurumları mütləq öz şərtlərini irəli sürürlər. Dünya təcrübəsi isə göstərir ki, belə şərtlər, adətən, ölkələrin daxili işlərinə qarışmaq və xarici siyasətinə yön vermək kimi tələblərdən ibarət olur. Bu da borc götürən ölkəni asılı vəziyyətdə qoyur, müstəqil qərar vermək imkanlarını məhdudlaşdırır.

Prezident İlham Əliyev andiçmə mərasimindəki çıxışında güclü iqtisadiyyat, güclü ordu, daxili sabitlik, xalq-iqtidar birliyi formulunun əhəmiyyətini qeyd edərkən iqtisadi gücümüzün önəminə toxunaraq demişdir: "Biz heç kimdən heç nə xahiş etmirik. Mən 20 ildən çoxdur ki, Prezidentəm, bu günə qədər heç kimdən heç nə xahiş etməmişəm, çünki buna ehtiyac da olmayıb. Biz özümüzü tam təmin edən ölkəyik. Biz ikitərəfli formatda əməkdaşlığın tərəfdarıyıq və xarici siyasətimiz də buna hesablanıb - bərabərhüquqlu münasibətlər, bir-birinə hörmət, bir-birinə, necə deyərlər, xoş münasibət, bir-birinin işinə qarışmamaq. Bu, bizim prinsiplərimizdir və bu prinsipləri biz diktə etmişik, bunları qəbul etdirə bilmişik".

Ulu Öndərin başladığı iqtisadi islahatlar Prezident İlham Əliyevin rəhbərliyi ilə 20 ildən çoxdur ki, yeni çağırışlar çərçivəsində davam edir. Bu islahatlar ölkəmizin hərtərəfli inkişafında müstəsna rol oynayır. Onların uğurlu nəticələri ölkəmizin sosial-iqtisadi həyatında özünü açıq şəkildə göstərir. İqtisadi sahədəki inkişaf bizə güclü ordu yaratmağa və düşmən üzərində tarixi qələbə qazanmağa, bu gün isə Qarabağı və Şərqi Zəngəzuru yenidən qurmağa imkan vermişdir.

Dövlət başçısının 2003-cü ildən davam etdirdiyi islahatlar sayəsində qazandığımız uğurlar statistik rəqəmlərdə də aydın



görünür. Məsələn, 20 il öncə ölkə üzrə ÜDM istehsalının dəyəri 7 milyard dollar idisə, keçən il bu rəqəm 72 milyard dollara bərabər olmuşdur. Bu illər ərzində valyuta ehtiyatlarımız 1,6 milyard dollardan 69,5 milyard dollarıdək artmışdır. Bir mühüm fakt isə ondan ibarətdir ki, xarici borcumuz gəlirlərimiz və valyuta ehtiyatlarımızla müqayisədə çox aşağıdır. Belə hal ölkəmizin maliyyə sabitliyinin əsas göstəricilərindən biri olmaqla yanaşı, iqtisadi müstəqilliyimizi özündə əks etdirən mühüm amildir. Təsəvvür edin ki, 69,5 milyard dollar valyuta ehtiyatı olan, 72 milyard dollarlıq ÜDM istehsal edən ölkəmizin xarici borcu cəmi 6,4 milyard dollardır. Bu rəqəm inkişaf etmiş bir çox xarici ölkələrdə 100, hətta 140 faiz də təşkil edir. Ancaq ölkəmizdə bu rəqəm ümumi daxili məhsulun 9 faizindən də azdır.

Ölkəmizdə iqtisadi dinamika yüksək olaraq alır. Cari ilin ilk ayında ÜDM istehsalı 5 faiz, o cümlədən qeyri-neft sektorunda 12 faizdən çox artıb. Bu onu göstərir ki, iqtisadiyyatımız sağlam təməl üzərində qurulduğundan qarşıdakı illərdə göstəricilərimiz daha yüksək olacaq.

Dövlətimiz inkişaf etdikcə, onun maliyyə imkanları artdıqca əhalinin sosial vəziyyətini daha da yaxşılaşdırmaq imkanı yaranır. Prezident İlham Əliyev andiçmə mərasimində əhalinin sosial vəziyyəti istiqamətində görülən işlər barədə demişdir: "Sosial sahədə görülmüş işlər də göz qabağındadır. 2003-cü ildə bizim minimum əməkhaqqı - bəlkə də çoxlarının yadında deyil - 9 manat idi. İndi 345 manatdır. Əlbəttə ki, bu da yetərli deyil, ancaq dinamika var və dinamika davam edəcək. Minimum pensiya 2003-cü ildə 20 manat idi. Bu gün 280 manata çatıb. Orta pensiya 500 manatdan çoxdur. Orta əməkhaqqı 940 manatdır. Əlbəttə ki, yenə də deyirəm, bu, bizi qane edə bilməz. Ancaq dinamika var, inkişaf var və ən önəmlisi, gözəl perspektivlər var".

Hazırda ölkə qarşısında duran əsas məsələlərdən biri də işğaldan azad edilən ərazilərdə bərpa-quruculuq işlərini davam etdirməklə, oradan məcburi köçkün düşmüş soydaşlarımızın ləyaqətlə geri dönüşünü təmin etməkdir. Artıq 5400 keçmiş məcburi köçkün hər cür şəraiti olan evlərə köçürülüb. Cari ilin sonuna qədər yenidən qurulmuş 20 yaşayış məntəqəsinə soydaşlarımızın qayıtması planlaşdırılır. Onlar 5 şəhər və 15 kənddə məskunlaşacaqlar. Ümumilikdə isə Böyük qayıdış proqramının birinci mərhələsində, yəni 2026-cı ilin sonuna qədər 140 min vətəndaşımızın dədə-baba yurduna dönüşü proqnozlaşdırılır. Bu səbəbdən bölgədə paralel olaraq geniş sosial infrastruktur layihələr də icra edilir. Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonunda xəstəxanalar, məktəblər, idman və infrastruktur obyektləri, yollar, 130-dan çox tunel və körpü tikilir. Ən əsası isə buraya qayıdacaq insanlar üçün hər cür şəraiti olan yaşayış evləri və binaları inşa olunur.

İşğaldan azad olunan ərazilər həmçinin ölkəmizin iqtisadi inkişafına yeni güc qatacaq. Burada kənd təsərrüfatı, sənaye və turizmin inkişafı üçün imkanlar genişdir. Bu, eyni zamanda doğma yurdlarına dönən insanların məşğulluğunun təmin edilməsində önəmli rol oynayacaq. Dövlət başçısının dediyi kimi, ölkəmizdə başlanan yeni dönəmdə işğaldan azad olunan ərazilər də ümumi inkişafa əlavə imkanlar qazandıracaq.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Azərbaycan tarixinin yeni mərhələsi başlayır

## Ölkəmiz Prezident İlham Əliyevin liderliyi ilə bütün hədəflərə çatacaq

**"Fevralın 7-də ölkəmizdə keçirilən prezident seçkilərində xalqımız öz iradəsini ifadə edərək cənab İlham Əliyevə inam və etimadını bir daha təsdiqlədi. Tariximizə Zəfər seçkisi kimi düşən bu seçkilərin qalibi Müzəffər Ali Baş Komandan, xalqımıza qələbə sevinci yaşadan Qalib lider İlham Əliyev oldu. Bununla da, müasir müstəqil Azərbaycanın tarixində yeni mərhələ başladı".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib. Deputat bildirib ki, Prezident İlham Əliyev fevralın 14-də andiçmə mərasimində çıxışı zamanı qarşıda dayanan vəzifələrdən və hədəflərdən ətraflı bəhs etdi. Dövlət başçısının 20 illik fəaliyyətinin zirvəsində ərazi bütövlüyü və suverenliyimizin bərpası dayanır. Bu tarixi nailiyyətə məhz xalqımızın birliyi və dövlət başçısına sonsuz inam sayəsində nail olundu. Hazırda Azərbaycan Cənubi Qafqazda sülhün təmin olunması istiqamətində təşəbbüslər göstərir. Lakin Ermənistan öz havadarlarının təhriki ilə prosesi uzadır. Müəyyən beynəlxalq dairələr bu məsələ ətrafında spekulyasiya etməkdə maraqlıdırlar. Ona görə də, Prezident İlham Əliyev haqlı olaraq vurğuladı ki, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesi beynəlxalq gündəlikdən düşməlidir. Çünki yerindən duran bu məsələ ilə məşğul olmaq istəyir, amma biz öz məsələmizi həll etmişik. Ermənistanın havadarlarının pozuculuq fəaliyyəti isə bundan sonra da fiaskoya uğrayacaq. Prezident İlham Əliyevin "Xankəndidə qutuya atdığım bülleten erməni separatçılarının tabutuna vurulan son mismar idi", sözləri isə Ermənistana və onun havadarlarına konkret mesaj idi.

Azərbaycanın müstəqil siyasi kurs həyata keçirdiyini vurğulayan S.Fətəliyeva bildirib ki, ölkəmizin reallaşdırdığı siyasət sırf müstəqillik və suverenlik kimi fundamental prinsiplərə əsaslanır: "Biz müttəfiqlərimizi özümüz seçirik. 7 fevral seçkilərinin qalibi olan Prezident İlham Əliyev andiçmə mərasimində söylədiyi nitqində ölkəmizin xarici siyasət kursu ilə bağlı strateji seçiminə bir daha diqqət çəkib. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən müyyənləşdirilən çoxvektorlu xarici siyasət kursunun əsas mahiyyəti ondan ibarətdir ki, milli maraqlar təmin edilir. Eyni zamanda tərəfdaşlara böyük hörmət bəslənilir və onlarla qarşılıqlı maraqlar əsasında sıx əməkdaşlıq qurulur. Belə effektiv siyasətin nəticəsidir ki, hazırda respublikamıza və onun Lideri İlham Əliyevə həm yerləşdiyi coğrafiyada, həm də uzaq xaricdə böyük hörmət bəslənilir".

Deputat qeyd edib ki, Azərbaycanın qonşuluq siyasəti səmimilik, xoş niyyət və beynəlxalq hüquq normalarına əsaslanır. Respublikamızın hansısa qonşu dövlətlə münaqişəyə girmək, ərazi iddiaları ilə çıxış etmək kimi bir niyyəti yoxdur. Azərbaycanın Türkiyə, Gürcüstan, Rusiya, Mərkəzi Asiya dövlətləri ilə münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Ölkəmizin nüfuzlu beynəlxalq təşkilatlarda, o cümlədən də Birləşmiş Millətlər Təşkilatında yüksək fəallığı diqqəti cəlb edib. Qısa müstəqillik tarixinə malik olan Azərbaycanın 2011-ci il oktyabrın 24-də BMT Baş Assambleyasının plenar iclasında gizli səsvermənin nəticələrinə əsasən, 2012-2013-cü illərdə Şərqi Avropa bölgəsini qurumun Təhlükəsizlik Şurasında təmsil edəcək qeyri-daimi (müvəqqəti) üzv seçilməsini diplomatiyamızın BMT zirvəsi kimi səciyyələndirə bilərik. Respublikamız 2011-ci ildə Qoşulmama Hərəkatına tamhüquqlu üzv qəbul olunub. Ölkəmizin QH-də təmsilçiliyi uzun zaman müddətini əhatə etməsə də, öz səmərəliliyi və məhsuldarlığı ilə diqqət çəkir. Azərbaycanın Qoşulmama Hərəkatının prinsiplərinə sadiqlik nümayiş etdirməsi, daim onun ideyalarının təşviqinə çalışması, ehtiyac yarandığı təqdirdə ayrı-ayrı üzv dövlətləri dəstəkləməsi, qurumun fəaliyyətinə digər sanballı töhfələr verməsi QH-də ölkəmizə böyük etimad və nüfuz qazandırıb. Bunun nəticəsidir ki, hərəkata üzv ölkələrin 2016-cı ildə Venesuelada keçirilmiş Zirvə görüşündə quruma 2019-2022-ci illər üzrə sədrliyin Azərbaycana həvalə edilməsi barədə yekdil qərar qəbul edilib. Təsisata üzv dövlətlər quruma 3 illik sədrliyi 2022-ci ildə bitməli olan Azərbaycana hərəkata əlavə bir il də sədrlik etmək barədə müraciət ünvanlayıblar və bu müaciət respublikamız tərəfindən müsbət dəyərləndirilib.

Komitə sədrinin müavini bildirib ki, dünya birliyinin BMT-nin ən genişmiqyaslı tədbirlərindən sayılan COP29 konfransının Azərbaycanda keçirilməsi ilə bağlı qərar qəbul etməsi beynəlxalq səviyyədə ölkəmizə inamın artmasının daha bir ifadəsidir. "Ölkəmiz mühüm ekoloji çağırışların, "yaşıl enerji" gündəliyinin müzakirə olunacağı bu tədbirə də yüksək səviyyədə evsahibliyi etmək əzmindədir. Artıq bu ilin ikinci yarısında baş tutacaq tədbirə hazırlıq proseslərinə başlanıb və tədbirlər planı uğurla reallaşdırılır", - deyə o əlavə edib.

Sevinc Fətəliyeva qeyd edib ki, yeni dövrdə xarici siyasətimizin əsas prioritetlərindən biri türk dünyasına inteqrasiyanın dərinləşdirilməsi olacaq. Bununla bağlı Prezident İlham Əliyev çıxışı zamanı deyib: "Biz beynəlxalq təşkilatlarla bağlı bundan sonra da öz addımlarımızı atacağıq, ilk növbədə, Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir, mən bunu açıq demək istəyirəm, yəqin ki, indi aparılan siyasət də hər kəsə bunu aydın göstərir. Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır". Deputat vurğulayıb ki, dövlət başçısının yeni dövrdə ölkəmizin xarici siyasət kursunun əsas prioritetlərindən biri kimi türkdilli dövlətlərlə inteqrasiyanın dərinləşdirilməsinin zəruriliyini önə çəkməsi heç də təsadüfi deyil. Prezident andiçmə mərasimindəki nitqində bu barədə açıq danışıb.

Deputat sonda vurğulayıb ki, qarşıdakı dövr üçün xarici siyasətimizin yeni hədəfləri var və Azərbaycan cənab İlham Əliyevin liderliyi ilə bu hədəflərə çatacaq.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Böyük zəfərlərə doğru

**"Fevralın 7-də keçirilən prezident seçkilərində İlham Əliyevin parlaq qələbəsi ilə müstəqil Azərbaycanın həyatında yeni tarixi mərhələ başlayıb. Xalqımız prezident seçkilərində çox yüksək əhvali-ruhiyyə ilə iştirak edərək Heydər Əliyev siyasətinin davamına, Prezident İlham Əliyevin liderliyi ilə yeni qələbələrin qazanılmasına səs verib. Ən önəmli məqam isə seçkilərin ilk dəfə olaraq müstəqil Azərbaycanın öz ərazisi üzərində suverenliyini tam bərpa etməsi şəraitində keçirilməsi idi. Beləliklə, qalib xalq ərazi bütövlüyü və suverenliyi tam təmin olunmuş ölkənin vətəndaşı olaraq qalib Liderinə - şanlı Zəfərin müəllifinə səs verməklə Heydər Əliyev ideyalarına sədaqətini, İlham Əliyevə minnətdarlığını ifadə edib".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Pərvin Kərimzadə deyib. Deputat bildirib ki, son 20 ilin mənzərəsi dövlət başçısının verdiyi bütün vədləri yüksək səviyyədə yerinə yetirdiyini təsdiqləyir: "Ölkə iqtisadiyyatında və sosial sahədə uğurlar qazanılıb. Bu gün dünyada etibarlı tərəfdaş kimi tanınan Azərbaycan bir çox ölkələrlə, o cümlədən qonşu dövlətlərlə müxtəlif platformalarda əməkdaşlıq əlaqələri quraraq mövcud münasibətlərini daha da möhkəmləndirir. Eləcə də, Azərbaycanın 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına sədrlik etməsi, habelə ən böyük beynəlxalq konfransın (COP29) Bakıda keçirilməsi haqqında yekdil qərarın qəbul edilməsi dünya miqyasında artan nüfuzumuzun göstəricisidir. Qarşıdakı əsas hədəflərdən biri isə türk dövlətləri ilə birliyi daha da gücləndirməkdir".

Deputatın sözlərinə görə, qazanılan uğurların zirvəsində, təbii ki işğal altındakı torpaqlarımızın azad olunması və Qarabağda erməni separatizminin kökünün kəsilməsi dayanır. Öz lideri ətrafında "dəmir yumruq" kimi birləşən xalq gücünü və qələbə əzmini bütün dünyaya nümayiş etdirdi. Prezident, Müzəffər Ali Baş Komandan bu qələbə ilə Azərbaycanı qalib ölkəyə, xalqı qalib xalqa çevirdi. Azərbaycanın qazandığı misilsiz uğurların təməlində də məhz xalq-iqtidar birliyi dayanır. Hazırda Azərbaycan Cənubi Qafqazda sülhün təmin olunması istiqamətində təşəbbüslər göstərir. Lakin Ermənistan öz havadarlarının təhriki ilə prosesi uzadır. Müəyyən beynəlxalq dairələr də bu məsələ ətrafında spekulyasiya etməkdə maraqlıdır. Ona görə də, Prezident İlham Əliyev andiçmə mərasimində haqlı olaraq vurğuladı ki, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesi beynəlxalq gündəlikdən düşməlidir.

Pərvin Kərimzadə qeyd edib ki, Prezident İlham Əliyevin Xankəndidə səs verməsi isə rəmzi məna daşıyırdı: "30 ildən çox idi ki, tarixi şəhərimiz olan Xankəndi erməni separatçılarının yuvasına çevrilmişdi. Məhz buradan xalqımıza qarşı məkrli planlar hazırlanırdı. Amma ötən ilin sentyabr ayında ordumuzun keçirdiyi antiterror tədbirləri nəticəsində Qarabağda erməni separatçıları diz çökdürüldü. Bütün bunların fonunda Xankəndi şəhərində seçki prosesinin təşkili və səsvermənin keçirilməsi zəfərimizin təntənəsi oldu. Prezident İlham Əliyevin dediyi kimi, Xankəndidə qutuya atdığı bülleten erməni separatçılarının tabutuna vurulan son mismar idi".

Dövlətimizin başçısının andiçmə mərasimində gələcək hədəflərlə bağlı prioritetləri açıqladığını deyən deputat əlavə edib: "Milli maraqlarımıza uyğun olaraq daxili və xarici siyasətin davam etdirilməsi, təhlükəsizliyimizin təmin olunması məqsədilə ordumuzun daha da gücləndirilməsi, əhalinin sosial rifahının artırılması, iqtisadiyyatın inkişafı və sair prioritetlər sırasındadır. Ən əsas məqamlardan biri isə işğaldan azad edilmiş ərazilərimizin bərpası və yenidən qurulmasıdır. Ermənistan təxminən 30 il ərzində işğalda saxladığı ərazilərimizi xarabalığa çevirib, burada qanunsuz iqtisadi fəaliyyət həyata keçirib və sərvətlərimizi talayıb. İşğaldan azad olunmuş ərazilərə Böyük qayıdışın təmin edilməsi indiki strateji mərhələdə ölkəmizin beş milli prioritetindən biri kimi müəyyənləşdirilib. Xarabalıqlar üzərində yeni şəhərlər, kəndlər ucaldılır. Biz şəhərlərimizi, kəndlərimizi yenidən qururuq və artıq 5 mindən çox keçmiş məcburi köçkün öz doğma torpaqlarına qayıdıb. 2023-cü ilin mart ayında - Novruz bayramı ərəfəsində Talış kəndində bayram sevinci yaşandı. Avqustda Füzuli şəhərinə və Zabux kəndinə soydaşlarımızın köçü oldu. Ötən il Müstəqillik Günündə Laçın şəhərinə keçmiş məcburi köçkünlər qayıtdılar. Bundan əvvəl isə ilk olaraq Ağalı kəndində məskunlaşdırma həyata keçirilib. Prezident İlham Əliyev andiçmə mərasimində bir daha bildirib ki, önəmli vəzifə Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsidir".

Deputat yekunda vurğulayıb ki, növbəti mərhələdə Azərbaycanı yeni-yeni nailiyyətlər gözləyir. Xalqımız Prezident İlham Əliyevin liderliyi ilə ölkəmizin yeni zəfərlər qazanacağına birmənalı olaraq inanır.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

# Xalq liderinin sədaqət andına şahidlik etdi

## Prezident İlham Əliyev görülən və görüləcək işlərin hesabatını verdi

**"Azərbaycan daha bir möhtəşəm tarixi hadisəyə şahidlik etdi. Prezident seçkilərində seçicilərin mütləq əksəriyyətinin səsini qazanaraq qalib gəlmiş Prezident İlham Əliyevin andiçmə mərasimində məzmunlu çıxışı geniş ictimai marağa səbəb oldu".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Rəşad Mahmudov deyib. O bildirib ki, Prezident nitqində önəmli mesajlar səsləndirməklə yanaşı, Azərbaycanın inkişafı üçün bundan sonra da əlindən gələni əsirgəməyəcəyini qətiyyətlə vurğulayıb. Bədxahlara, ölkəmizin uğurlarından narahat olanlara isə ciddi xəbərdarlıqlar göndərdi - Azərbaycanın haqq işinə haram qatmaq istəyən qüvvələrin bütün cəhdləri uğursuzluğa məhkum olacaq.

Deputat qeyd edib ki, xalqın böyük etimadını qazanmış İlham Əliyevin prezident səlahiyyətlərinin icrasına başlaması ilə Azərbaycan inkişafın yeni mərhələsinə qədəm qoyub: "Seçkilərdə kütləvi şəkildə məntəqələrə axışan seçicilərin xalqın zəfər namizədini dəstəkləməsi, böyük səs çoxluğu ilə onu seçməsi, əslində, təkcə Prezident İlham Əliyevin deyil, həm də xalqın qələbəsi idi. Xalq heç vaxt seçimində yanılmır. Prezident İlham Əliyevin seçkilərdə yenidən qalib gəlməsinin əsasında onun rəhbərliyi altında Azərbaycanın son 20 ildə dinamik inkişaf dövrünü yaşaması, strateji məqsədlərə tam nail olunması kimi ciddi amillər dayanırdı. Azərbaycan liderinin 2003-cü ildə və ondan sonrakı dövrdə respublikamızın inkişafı, xalqımızın əmin-amanlıq və firavan həyatını təmin etmək üçün verdiyi bütün vədləri yerinə yetirməsi İlham Əliyevə ümumxalq dəstəyini daha da gücləndirdi. Seçicilərin 92,12 faizi İlham Əliyevi dəstəkləməklə Azərbaycanın növbəti uğurlarına təminat sənədi almış oldular".

R.Mahmudov vurğulayıb ki, bu gün Azərbaycan dünyanın siyasi xəritəsində yeni obrazda öz yerini tutur. Məhz İlham Əliyevin prezidentliyi dönəmində Azərbaycan bir sıra qabaqcıl ölkələrin uzun illər keçdiyi inkişaf mərhələsini 20 ildə sürətlə qət etməyi bacarıb. Ötən dövr ərzində Azərbaycan Cənubi Qafqazın lider dövləti kimi dünya birliyində öz mövqelərini daha da möhkəmləndirib. Beynəlxalq aləmdə qarşılıqlı faydalı və bərabərhüquqlu əməkdaşlığa, geostrateji maraqların həyata keçirilməsinə, terrorizmə qarşı mübarizəyə, vətəndaşlarımızın firavan və təhlükəsiz şəraitdə yaşamasına yönəlmiş uzaqgörən xarici və daxili siyasət həyata keçirib. Ən əsası, otuz il Cənubi Qafqaz regionunu "barıt çəlləyi"nə döndərmiş Qarabağ münaqişəsi məhz Prezident İlham Əliyevin hərbi-siyasi iradəsi ilə həll olunub, suverenliyimiz tam bərpa edilib, azadlığa qovuşmuş ərazilərimizə həyat yenidən qayıdıb.

Azərbaycanın yeni dövrə qədəm qoyduğunu deyən deputat, Prezident İlham Əliyevin andiçmə mərasimində söylədiyi fikirləri xatırladıb: "Xalqımız bu dövrə alnıaçıq, üzüağ, başı dik daxil olur. Prezident nitqində bu dövrün böyük nailiyyətləri olacağının anonsunu da verdi. Qarşıya qoyulan bütün vəzifələrin icra edildiyini xatırladan dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan cəmiyyətində hökm sürən çox müsbət ab-hava bizi daha da gücləndirir. Bu amil qarşıdakı illərdə də uğurların əldə edilməsinə imkan yaradacaq".

R.Mahmudov qeyd edib ki, Cənubi Qafqaz regionu yeni reallıqlar şəraitində inkişaf edir və rəsmi Bakı da bu reallığın məntiqinə uyğun siyasət yürüdür. Azərbaycan bir tərəfdən azad olunmuş ərazilərdə erməni vandalizminin izlərini silir, digər tərəfdən, Ermənistana düşmənçilik səhifəsini bağlayıb normal qonşuluq münasibətlərinin yaradılmasını təklif edir. Lakin son hadisələr onu göstərir ki, postmüharibə sancıları davam edən Ermənistan ona uzadılmış əməkdaşlıq və barış əlini sıxmağa tələsmir, marionet ölkə olaraq kənar qüvvələrin diktəsi ilə sülh gündəmini pozmağa çalışır.

"Prezident İlham Əliyev andiçmə mərasimində bu məqama xüsusilə toxunaraq İrəvana, onun havadarlarına sərt və aydın mesajlar göndərdi. Azərbaycanla Ermənistan arasında vasitəçiliyə lüzum olmadığını bəyan etdi. Dövlətimizin başçısı nitqində ordu quruculuğu və xarici siyasət məsələlərinə toxunaraq növbəti illərdə də bu prosesin davam etdiriləcəyini bildirdi. Azərbaycanda çox güclü hərbi sənaye kompleksinin yaradıldığını vurğulayan Prezident İlham Əliyev nitqində bu sahədə yeni, daha genişmiqyaslı mərhələnin başlanacağının anonsunu verdi. Bu isə o deməkdir ki, Azərbaycan bundan sonra da regionun ən güclü dövləti olaraq qalacaq və milli maraqlarının müdafiəsini daha yüksək səviyyədə təmin edəcək", - deyə R.Mahmudov əlavə edib.

Deputat yekunda vurğulayıb ki, xalqımız növbəti yeddi il üçün uğurun, xoşbəxt həyatımızın təminatçısının sədaqət andına şahidlik etdi. İyirmi illik fəaliyyəti dövründə bütün vədlərinə sadiq qalaraq xalqın maraqlarının, müstəqil Azərbaycanın keşiyində qətiyyətlə duran Prezident İlham Əliyev qalib lider kimi parlamentdə çıxış etdi, görülən və görüləcək işlərin hesabatını verdi.

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# *Əli HÜSEYNLİ:* "Paris Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətini açıq şəkildə dəstəkləyir"

**Paris Ermənistanın Azərbaycana qarşı təcavüzkar, terrorçu və etnik zəmində nifrət siyasətini açıq şəkildə dəstəkləyir.**



AZƏRTAC xəbər verir ki, bu barədə Moskvada keçirilən "Millətlərin azadlığı uğrunda!" forumda çıxış edən Milli Məclisin Sədrinin birinci müavini Əli Hüseynli bildirib.

O qeyd edib ki, Fransa neokolonializm siyasəti aparan ölkələrdən biridir. Ə.Hüseynli əlavə edib: "Bu ölkənin Afrikada və başqa qitələrdə apardığı siyasət milyonlarla günahsız insanın əsas hüquqlarının kobud şəkildə pozulması ilə nəticələnib. Rəsmi Paris Ermənistanın Azərbaycana qarşı təcavüzkar, terrorçu və etnik zəmində nifrət siyasətini açıq şəkildə dəstəkləyir. Fransa son zamanlar Azərbaycana münasibətdə qərəzli mövqeyini gücləndirib".

Ə.Hüseynli vurğulayıb ki, hakim Yeni Azərbaycan Partiyasının bu məsələdə mövqeyi həmişə açıq-aydın olub: "Biz yeni müstəmləkəçilik ekspansiyası metodlarını açıq şəkildə pisləyirik. Prezident İlham Əliyevin şəxsində ölkəmizin rəhbərliyi bu mənfi proseslərə mane olmaq məqsədilə müxtəlif siyasi platformalardan istifadə edir. Qoşulmama Hərəkatına sədrliyi dövründə Azərbaycan bu struktur çərçivəsində müstəmləkəçiliyə qarşı mübarizə aparan xalqları dəstəkləmək üçün geniş fəaliyyət göstərib".

Milli Məclisin Sədrinin birinci müavini xatırladıb ki, bu məqsədlə təsis edilən Bakı Təşəbbüs Qrupu uğurlu fəaliyyət göstərir. Ötən ilin oktyabrında və noyabrında Bakıda bu mövzularla bağlı konfranslar keçirilib. "Bu günlərdə cənab İlham Əliyev xalqların müstəmləkə zülmündən azad olması uğrunda mübarizəyə ölkəmizin dəyişməz sədaqətini bir daha ifadə etdi", - deyə Ə.Hüseynli sözlərinə yekun vurub.

# Prokurorluq əməkdaşları və media qurumlarına mükafatlar təqdim olunub





**Fevralın 16-da Baş Prokurorluqda Azərbaycan Respublikası Prezidentinin 30 sentyabr 2023-cü il tarixli Sərəncamına əsasən təltif edilmiş, həmçinin Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən həvəsləndirilmiş, habelə "İlin ən yaxşı müstəntiqi" və "İlin ən yaxşı dövlət ittihamçısı" müsabiqələrinin qalibi olmuş prokurorluq işçilərinə, eləcə də "Prokurorluğun dostu" mükafatına layiq görülmüş media nümayəndələrinə mükafatların təqdim olunması ilə bağlı tədbir keçirilib.**





Baş Prokurorluğun Mətbuat xidmətinin məlumatına görə, əvvəlcə I Qarabağ, 44 günlük Vətən müharibələri və Qarabağ iqtisadi rayonunda keçirilmiş lokal xarakterli antiterror tədbirləri zamanı Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçmiş şəhidlərimizin, həlak olmuş vətəndaşlarımızın əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən baş prokuror Kamran Əliyev dövlət başçısı cənab İlham Əliyevin növbədənkənar prezident seçkilərində qalib gəlməsi ilə əlaqədar prokurorluq əməkdaşları və tədbir iştirakçılarını təbrik edərək fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Milli Məclisdə andiçmə mərasimi zamanı proqram xarakterli çıxışında ölkəmizin gələcək inkişafına hesablanmış konseptual məsələlər və həlli vacib olan proseslərlə bağlı səsləndirdiyi fikirlərin müasir dövrdə respublikada qanunçuluq və hüquq qaydalarının möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizə, ictimai təhlükəsizlik və asayişin təmin olunması sahəsində prokurorluq orqanları qarşısında yeni vəzifələr qoymasından bəhs edib, ölkəmizin hərtərəfli inkişafı, ərazi bütövlüyümüzün qorunması, hüquqi dövlət quruculuğu naminə bundan sonrakı fəaliyyətində də prokurorluq orqanlarının siyasi kursa sadiq qalacağını, verilən tapşırıq və tövsiyələrə dönmədən əməl edəcəyini xüsusilə vurğulayıb.

Qeyd olunub ki, xalqımızın qalib lideri cənab İlham Əliyevin rəhbərliyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yaxından dəstəyi ilə uğurla həyata keçirilən dövlət gənclər siyasəti, o cümlədən gənc nəslin milli-mənəvi, vətənpərvər ruhda tərbiyəsinə dair fəaliyyət prokurorluq orqanlarında da gender bərabərliyi təmin olunmaqla prioritet məsələlər sırasında yer tutur.

Dövlət quruculuğunun Heydər Əliyev strategiyasını yeni müstəvidə və müasir məzmunda inkişaf etdirən Möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən prokurorluq orqanlarına yüksək etimad, dövlət səviyyəsində hərtərəfli diqqət və qayğı göstərildiyi, onun fəaliyyətinin daha da təkmilləşdirilməsi üçün müvafiq tədbirlər görüldüyü tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Mərasim zamanı, dövlət başçısı cənab İlham Əliyevin xidməti vəzifələrinin icrasında fərqlənmiş və peşəkarlıq göstərmiş prokurorluq əməkdaşlarına müvafiq medallar təqdim olunub.

Daha sonra "İlin ən yaxşı müstəntiqi" və "İlin ən yaxşı dövlət ittihamçısı" müsabiqələrinin təşkili və keçirilmə qaydası barədə baş prokurorun müavini Heydər Məmmədov çıxış edərək ətraflı məlumat verib.

Müsabiqələrin nəticələrinə əsasən, "İlin ən yaxşı müstəntiqi" seçilmiş Baş Prokurorluğun İstintaq idarəsinin xüsusilə mühüm işlər üzrə müstəntiqi Tural Hümmət-zadəyə və "İlin ən yaxşı dövlət ittihamçısı" seçilmiş Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Rayon (şəhər) məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin Şirvan Apellyasiya Məhkəməsinin yurisdiksiyasına aid olan birinci instansiya məhkəmələri üzrə prokuroru (Lənkəran rayon məhkəməsi üzrə) Zamil Mehralıyevə baş prokuror tərəfindən diplom və mükafatlar təqdim olunub.

Bundan başqa, tədbir çərçivəsində "Prokurorluğun dostu" təltifinə layiq görülmüş media qurumlarına mükafatların təqdim edilməsi mərasimi keçirilib.

Diqqətə çatdırılıb ki, prokurorluq orqanları tərəfindən cəmiyyətdə formalaşan yeni çağırışlara adekvat uyğunlaşma, o cümlədən vətəndaş məmnunluğunun və fəaliyyətdə aşkarlığın, hesabatlılığın və şəffaflığın təmin olunması məqsədilə media ilə işgüzar əlaqələrin möhkəmləndirilməsi prioritet vəzifələrdən biri hesab edilir.

Qeyd edilib ki, həmin tədbirlər çərçivəsində 2023-cü ilin yekunlarına əsasən prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı aşkarlıq və hesabatlılığın ictimaiyyətə operativ şəkildə çatdırılması, prokurorluq orqanları ilə media arasında operativ və səmərəli kommunikasiyanın qurulmasında fərqlənən Azad Azərbaycan Müstəqil Teleradio Şirkəti, "Bakinski raboçi" qəzeti və "e-huquq.az" informasiya portalı "Prokurorluğun dostu" mükafatı ilə təltif olunub.

Mərasim çərçivəsində, xalqımızın Ümummilli lideri müasir Azərbaycanın memarı böyük tarixi şəxsiyyət Heydər Əliyevin həyat və fəaliyyətinə həsr edilmiş "Heydər Əliyev və prokurorluq" adlı kitabın təqdimatı keçirilib.

Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anar çıxış edərək dövlətimizin başçısı cənab İlham Əliyevin növbədənkənar Prezident seçkilərində qalib gəlməsi münasibəti ilə tədbir iştirakçılarını təbrik edərək, prokurorluq orqanlarında aparılan islahatların cəmiyyət tərəfindən müsbət qarşılandığını qeyd edib, hüquqi dövlət quruculuğunda prokurorluğun iştirakının əhəmiyyətindən bəhs edib. Xalq yazıçısı prokurorluq orqanları tərəfindən ərsəyə gətirilmiş kitab barədə təəssüratlarını bölüşərək, kitabda zəngin məlumatların yer aldığını, nəşrin prokurorluq və digər hüquq-mühafizə orqanlarının işçiləri, prokurorluğun fəaliyyəti ilə maraqlanan oxucular və geniş hüquq ictimaiyyəti üçün faydalı və sanballı məlumat mənbəyi olacağından əminliyini ifadə edib.

Tədbirdə, həmçinin 2023-cü ildə prokurorluq orqanları tərəfindən görülən işlər və əldə olunmuş nailiyyətlərə həsr olunan hesabat xarakterli videoçarx nümayiş olunub.

# Dövlət Statistika Komitəsində geniş kollegiya iclası keçirilib

Dövlət statistika orqanlarının 2023-cü ildəki fəaliyyəti və 2024-cü ildə qarşıda duran vəzifələrlə bağlı fevralın 16-da Dövlət Statistika Komitəsi aparatı şöbələrinin, Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi, şəhər və rayon statistika idarələrinin rəhbərlərinin iştirakı ilə geniş kollegiya iclası keçirilib. Dövlət Statistika Komitəsinin İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, kollegiyanın sədri Tahir Budaqov çıxış edərək, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə 2023-cü ildə bütün sahələrdə sistemli və ardıcıl xarakterli islahatların həyata keçirildiyini, siyasi və iqtisadi idarəetmə metodlarının müasirləşdirildiyini, birgünlük antiterror tədbirləri nəticəsində ölkə suverenliyinin tam bərpa edildiyini, ölkəmizin dünyada nüfuzunun daha da gücləndiyini diqqətə çatdırıb.




Tahir Budaqov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin milli statistika sisteminin beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi ilə bağlı tapşırıqlarına uyğun olaraq komitə tərəfindən həyata keçirilən islahatlar və qurumun 2023-cü ildəki fəaliyyəti barədə ətraflı məlumat verib. Qeyd edib ki, rəsmi statistika məlumatlarının müasir tələblərə uyğun hazırlanmasını, milli statistika sisteminin inkişafı məsələlərini daim diqqət mərkəzində saxlayan Dövlət Statistika Komitəsi 2023-cü ildə öz fəaliyyətini Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırılaraq təsdiq edilmiş Statistik işlər proqramı əsasında qurmuşdur. Bununla yanaşı, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamından, Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planından, Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasından, 2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramından, Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramından, Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Tədbirlər Planından, "Çoxgöstəricili Klaster Sorğusunun (MICS) keçirilməsi ilə əlaqədar İstiqamətləndirici Komitənin yaradılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamından, "2025-ci ildə Azərbaycan Respublikasında kənd təsərrüfatının siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarından, digər normativ hüquqi aktlardan, BMT Baş Assambleyasının qəbul etdiyi "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn vəzifələrin icrası, eləcə də dəqiq və dolğun statistik məlumatlara, davamlı informasiya dəstəyinə olan tələbatın ödənilməsi məqsədilə komitə tərəfindən zəruri tədbirlər görülüb.

Milli statistika sisteminin müasir çağırışlara uyğun inkişaf etdirilməsini, inzibati məlumatlardan istifadəni genişləndirməklə ölkənin dayanıqlı inkişafı ilə bağlı statistik informasiya təminatının təkmilləşdirilməsini və bu hədəflərə çatmaq üçün statistika sahəsində maddi-texniki bazanın və kadr potensialının möhkəmləndirilməsini təmin etmək məqsədilə "2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı" üzrə 2023-cü il üçün nəzərdə tutulmuş 16 işin hamısı yerinə yetirilib, komitənin digər dövlət proqramları üzrə icraçı kimi çıxış etdiyi tədbirlərin icrası təmin edilib.

2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə əlaqədar komitə tərəfindən "Heydər Əliyev 100. Bir Ömrün Əbədiyyəti" adlı statistik məcmuə nəşr etdirilib, ilk dəfə olaraq ölkədə yuxarı sinif şagirdləri və ali məktəb tələbələri arasında Statistik olimpiada keçirilib.

Milli hesablar sisteminin tələblərinə uyğun növbəti ehtiyat və istifadə cədvəlləri qurulub, rəsmi statistikanın müasirləşdirilməsi istiqamətində komitə tərəfindən aparılan islahatlar çərçivəsində qiymət statistikası sahəsində məlumatların toplanmasında innovativ yanaşmanın tətbiqi nəticəsində qiymət qeydiyyatçılarının üzərinə düşən yükün azaldığı nəzərə alınaraq, Bakı Şəhər Statistika İdarəsinin ştat strukturu təkmilləşdirilib.

2023-cü ildə komitənin əsas fəaliyyət istiqamətlərindən biri, metodoloji bazanın möhkəmləndirilməsi olub, BMT, Avrostat, BVF, İƏİT, BƏT və digər beynəlxalq təşkilatların metodologiyalarına uyğunlaşdırılmaqla, habelə yerli qanunvericilikdə baş vermiş dəyişikliklər nəzərə alınmaqla 72 metodoloji material hazırlanıb və ya onlara əlavə və dəyişikliklər edilib. Aidiyyəti dövlət qurumları ilə razılaşdırılmaqla il ərzində 3 yeni hesabat forması təsdiq edilib, 5 hesabat forması ləğv edilib, 48 formaya isə aktuallığını itirmiş göstəricilərin çıxarılması, tələbata uyğun yenilərinin əlavə edilməsi ilə yenidən baxılıb.

Milli statistik təsnifatlar sisteminin inkişafı sahəsində işlər davam etdirilib, "Bələdiyyələrin statistik ərazi təsnifatı" yeni redaksiyada hazırlanıb.

İsveçrənin "SGS" şirkətinin yerli nümayəndəliyi tərəfindən komitə aparatının struktur bölmələrində və keyfiyyəti idarəetmə sisteminin tətbiq edildiyi bir sıra yerli statistika orqanlarında keçirilmiş növbəti sertifikatlaşma auditinin nəticələrinə əsasən, komitənin aparatı və 45 yerli statistika orqanı "Rəsmi statistika məlumatlarının istehsalı və yayılması" sahəsində ISO 9001:2015 beynəlxalq uyğunluq sertifikatına layiq görülüb. Sahibkarların statistika orqanları ilə münasibətlərində qarşılaşdıqları problemlərin öyrənilməsi və həlli məqsədilə komitənin veb-səhifəsində hər rüb "Sahibkarlar üçün 7 sual" rəy sorğusu keçirilib, verilmiş təkliflərin gələcəkdə nəzərə alınması üçün cavablar ümumiləşdirilərək təhlil edilib.

Statistika məlumatlarının toplanmasında, emalında və yayımlanmasında istifadə olunan informasiya texnologiyalarının tətbiqi imkanlarının genişləndirilməsi, statistik informasiya sisteminin inkişafı sahəsində işlər davam etdirilib, respondentlərin yerli statistika orqanlarına gəlmədən hesabat məlumatlarını elektron formada təqdim etmələri üçün həyata keçirilmiş tədbirlər nəticəsində rəsmi statistika hesabatlarının onlayn rejimdə elektron formada qəbulu 97,0 faizi ötüb, statistik hesabatları elektron formada internet vasitəsilə təqdim etmək üçün il ərzində 5,6 milyon müraciət daxil olub, bununla da vətəndaş-məmur təmaslarının səviyyəsi minimuma endirilib, eyni zamanda statistik məlumatların işlənməsi və təhlili imkanları yüksəlib.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən "Elektron Xidmətlərin Qiymətləndirilməsi" əsasında tərtib edilmiş reytinqdə komitə 28 qurum (o cümlədən 24-ü mərkəzi icra hakimiyyəti orqanı) arasında 79,37 faiz nəticə ilə 3-cü mövqedə qərarlaşıb.

"Çoxgöstəricili Klaster Sorğusunun (MICS) keçirilməsi ilə əlaqədar İstiqamətləndirici Komitənin yaradılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 17 avqust tarixli 526s nömrəli Sərəncamının icrası ilə bağlı işlər davam etdirilib, 2023-cü ilin may-avqust aylarında sorğu aparılıb, əldə edilmiş məlumatlar əsasında yekun cədvəllər hazırlanır.

"2025-ci ildə Azərbaycan Respublikasında kənd təsərrüfatının siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 4 oktyabr tarixli 357 nömrəli Qərarı ilə yaradılmış İstiqamətləndirici Komitənin 15 dekabr tarixli iclasında siyahıyaalmaya hazırlıq işlərinin gedişi müzakirə edilib, qərarın icrası olaraq Dövlət Statistika Komitəsinin hazırladığı kənd təsərrüfatının siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi üzrə təqvim planı, siyahıyaalma vərəqəsi forması və onun doldurulması qaydası təsdiq edilib. Siyahıyaalma sənədləri hazırlanarkən FAO-nun tövsiyələri, milli xüsusiyyətlər, aidiyyəti dövlət qurumlarının, xarici ekspertin rəy və təklifləri nəzərə alınıb.

2023-cü ilin 2 mart tarixində Bakıda keçirilmiş "Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə Görüşü"ndə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən irəli sürülmüş təşəbbüsə əsasən minatəmizləmənin 18-ci Dayanıqlı İnkişaf Məqsədi kimi təşviq edilməsi məqsədilə Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının 2023-cü il 18 aprel tarixli qərarının icrası olaraq komitə tərəfindən aidiyyəti qurumlarla birlikdə milli 18-ci Dayanıqlı İnkişaf Məqsədi ("Mina təhlükəsi ilə mübarizəyə dair fəaliyyətlər") üzrə 15 göstəriciyə dair metodologiya hazırlanıb, elmi-metodoloji şurada təsdiq edilib və məlumat istehsalına başlanılıb.

Müxtəlif mövzular üzrə 32 adda illik statistik məcmuə və digər nəşrlər çap etdirilib, 49 təhlili məruzə və 122 mətbu-məlumat hazırlanıb. Statistik məcmuə və bülletenlərin elektron versiyaları komitənin veb-səhifəsində yerləşdirilib. Yerli statistika orqanları tərəfindən də rayon və şəhərlər üzrə illik statistik məcmuələr nəşr edilib, 264 təhlili məruzə hazırlanıb.

Komitənin fəaliyyətinin əsas istiqamətlərindən biri də beynəlxalq təşkilatlarla əməkdaşlıqdır. BMT və onun təşkilatları, Avropa İttifaqı, BVF, Dünya Bankı, Asiya İnkişaf Bankı, İƏİT, İƏT, Avrostat, MDB Dövlətlərarası Statistika Komitəsi və bir sıra digər beynəlxalq təşkilatlarla, həmçinin dünya ölkələrinin milli statistika xidmətləri ilə əməkdaşlıq, eyni zamanda milli metodologiyaların beynəlxalq standartlara uyğunlaşdırılması, təcrübə mübadiləsinin aparılması, qabaqcıl təcrübələrin öyrənilməsi və tətbiqi istiqamətində beynəlxalq təşkilatlarla və onların Azərbaycandakı nümayəndəlikləri ilə işlər davam etdirilib.

Sonda kollegiya iclasına yekun vuran Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov qarşıda duran vəzifələrin vaxtında və keyfiyyətlə icrası üçün qurumun müvafiq strukturlarına konkret tapşırıqlar verib.

# *QMİ sədri:* "Qafqazda sabitliyin davamlı olması üçün din xadimləri də səy göstərməlidirlər"

Fevralın 16-da Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Rus Pravoslav Kilsəsinin Azərbaycan və Bakı Yeparxiyası rəhbərinin vəzifəsini müvəqqəti icra edən, Pyatiqorsk və Çərkəz arxiyepiskopu Feofilaktı qəbul edib.



Qafqaz Müsəlmanları İdarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Şeyxülislam Allahşükür Paşazadə QMİ ilə Rus Pravoslav Kilsəsi arasında əlaqələrin yüksək səviyyədə olduğunu diqqətə çatdırıb, Moskva və Bütün Rusiyanın Patriarxı Kirillin bu sahədə xidmətlərini xüsusi qeyd edib. Şeyxülislam Allahşükür Paşazadə 30 il davam edən Ermənistan-Azərbaycan münaqişəsi zamanı Patriarxın vasitəçilik missiyasını yüksək dəyərləndirərək vurğulayıb ki, məhz atılan addımlar nəticəsində problemin dini müstəviyə keçməsinin qarşısı alınıb.

Şeyxülislam Allahşükür Paşazadə Patriarx vəzifəsinə seçilməsinin 15 illiyi ilə bağlı təbriklərini Moskva və Bütün Rusiyanın Patriarxı Kirillə çatdırmağı qonaqdan xahiş edib.

QMİ sədri bildirib ki, ölkəmiz ilk gündən Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həllinə çalışıb, qarşı tərəfi də buna səsləyib. Azərbaycan dövlətinin və xalqının birliyi sayəsində əzəli torpaqların azad olunduğunu, ölkəmizin suverenliyinin tam bərpa edildiyini diqqətə çatdıran Şeyxülislam bildirib ki, Qafqazda sülhün və sabitliyin davamlı olması üçün din xadimləri də səy göstərməlidirlər.

Rus Pravoslav Kilsəsinin Azərbaycan və Bakı Yeparxiyası rəhbərinin vəzifəsini müvəqqəti icra edən, Pyatiqorsk və Çərkəz arxiyepiskopu Feofilakt Moskva və Bütün Rusiyanın Patriarxı Kirillin salamlarını QMİ sədrinə yetirməkdən məmnunluq duyduğunu deyib. Qonaq Azərbaycan xalqını mühüm hadisə - fevralın 7-də keçirilmiş prezident seçkiləri münasibətilə təbrik edib, and içərək öz vəzifəsinin icrasına başlayan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə uğurlar arzulayıb. Feofilakt əmin olduğunu bildirib ki, Prezident İlham Əliyev Azərbaycan dövlətinin daha da qüdrətlənməsi, burada yaşayan bütün xalqların rifahı üçün bundan sonra da yorulmadan çalışacaq.

Qəbulda qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 444; 2006, № 12, maddə 1029; 2007, № 5, maddə 442, № 6, maddə 562, № 8, maddə 756; 2009, № 12, maddə 948; 2010, № 3, maddə 171; 2012, № 7, maddə 643; 2013, № 3, maddə 214; 2014, № 4, maddə 325; 2015, № 1, maddə 1; 2016, № 1, maddə 7; 2017, № 11, maddə 1961; 2018, № 3, maddə 406, № 5, maddə 848; 2019, № 2, maddə 186; 2020, № 7, maddə 839; 2021, № 8, maddə 903) aşağıdakı dəyişikliklər edilsin:

1. 2-ci maddə üzrə:

1.1. 2.1.7-ci maddəyə "dəniz" sözündən sonra "ətraf" sözü əlavə edilsin;

1.2. 2.1.8-ci maddəyə "idman" sözündən sonra ", gəzinti" sözü əlavə edilsin;

1.3. aşağıdakı məzmunda 2.5-1-ci maddə əlavə edilsin:

"2.5-1. Dəniz əməliyyatları bazası - dəniz üzgüçülüyünün təhlükəsizliyinin və dövlət nəzarətinin təmin edilməsi, gəmilərin dayanması, onlara xidmət göstərilməsi, habelə dəniz neft-qaz yataqlarının maddi-texniki təchizatı üçün nəzərdə tutulmuş və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada reyestri aparılan qurğular kompleksi.";

1.4. 2.8-ci maddəyə "limanları" sözündən sonra "və dəniz əməliyyatları bazaları" sözləri əlavə edilsin;

1.5. aşağıdakı məzmunda 2.11-ci və 2.12-ci maddələr əlavə edilsin:

"2.11. Dənizçi - gəmidə hər hansı vəzifədə işləyən və ya işlərə cəlb olunan şəxs.

2.12. Beynəlxalq Dəniz Təşkilatı nömrəsi - gəmiyə və dənizçilik şirkətinə Beynəlxalq Dəniz

2. 4.1-4.3-cü, 4.4-cü (ikinci halda), 9.2-ci, 12.1-ci, 15.3-cü, 27.1-ci, 27.2-ci maddələrdə, 36.2-ci maddənin birinci cümləsində, 45-ci maddənin ikinci cümləsində, 47.2-ci, 67.1-67.3-cü, 68-ci, 69.1-69.3-cü maddələrdə, 89-cu maddənin birinci və ikinci cümlələrində, 142.2-ci, 182.1-ci maddələrdə, 182.2-ci maddənin birinci və ikinci cümlələrində və 275.3-cü maddədə ismin müvafiq hallarında "orqanı" sözü ismin müvafiq hallarında "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə, 4.4-cü maddədə (birinci halda) "yaratdığı quruma" sözləri "müəyyən etdiyi orqana (quruma)" sözləri ilə əvəz edilsin.

3. 5-ci maddə üzrə:

3.1. 5.1-ci maddədə "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

3.2. 5.2-ci maddə üzrə:

3.2.1. birinci abzasda "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

3.2.2. 5.2.5-ci maddəyə "limanlarında" sözündən sonra ", habelə dəniz əməliyyatları bazalarında" sözləri əlavə edilsin;

3.2.3. 5.2.7-ci maddəyə "dəniz" sözündən sonra "ətraf" sözü əlavə edilsin.

4. 5-1-ci maddə ləğv edilsin.

5. 6-1-ci maddə üzrə:

5.1. 6-1.1.4-cü maddədə "heyətin" sözü "minimum heyət" sözləri ilə əvəz edilsin;

5.2. 6-1.1.5-ci maddədə "çirklənmənin qarşısının alınması" sözləri "çirkləndirmədən vurulan zərərə görə mülki məsuliyyətin sığortalanması və ya "Neftlə çirkləndirmədən vurulan zərərə görə mülki məsuliyyət haqqında" 1969-cu il tarixli Beynəlxalq Konvensiyaya uyğun digər maliyyə təminatı" sözləri ilə əvəz edilsin;

5.3. 6-1.1.11-ci maddədən "işçi" sözü çıxarılsın;

5.4. 6-1.1.12-ci maddədə "hazırlıq kursları sertifikatlarının" sözləri "xüsusi hazırlıq şəhadətnamələrinin" sözləri ilə əvəz edilsin;

5.5. 6-1.1.13-cü maddədə "Qeyd Kitabçasının" sözləri "qeyd kitabçasının" sözləri ilə əvəz edilsin;

5.6. 6-1.1.22-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 6-1.1.23-cü və 6-1.1.24-cü maddələr əlavə edilsin:

"6-1.1.23. Gəmi tarixinin fasiləsiz qeydlər sənədinin verilməsi;

6-1.1.24. Dəniz nəqliyyatı sahəsində fəaliyyət göstərən təlim-tədris mərkəzlərinə, habelə fiziki və hüquqi şəxslərə onların fəaliyyətinin beynəlxalq konvensiyaların tələblərinə uyğun olması haqqında Şəhadətnamənin verilməsi.".

6. 8.2-ci maddə üzrə:

6.1. birinci abzasda "orqanının" sözü "orqanının müəyyən etdiyi orqanın (qurumun)" sözləri ilə əvəz edilsin;

6.2. 8.2.3-cü və 8.2.4-cü maddələrdə "gəmi mülkiyyətçisinin dövlətinin" sözləri "gəminin gəmi reyestrində qeydiyyata alındığı xarici dövlətin" sözləri ilə əvəz edilsin.

7. 13.1-ci maddəyə "reyestrində" sözündən sonra ", berbout-çarter reyestrində" sözləri əlavə edilsin.

8. 14-cü maddə üzrə:

8.1. adına "siqnalı" sözündən sonra "və Beynəlxalq Dəniz Təşkilatı nömrəsi" sözləri əlavə edilsin;

8.2. aşağıdakı məzmunda 14.3-cü maddə əlavə edilsin:

"14.3. Gəminin Beynəlxalq Dəniz Təşkilatı nömrəsi olmalıdır.".

9. 16-cı maddə üzrə:

9.1. 16.2-ci maddədə "sərnişin, yük-sərnişin, maye yük daşıyan, yedəkçi gəmilərinə, habelə baş mühərriklərinin gücü 55 kVt-dan az olmayan digər özühərəkətedən gəmilərə və qeyri-kommersiya məqsədləri üçün istifadə edilən idman və gəzinti gəmiləri istisna olmaqla, tutumu 80 tondan az olmayan özühərəkətetməyən" sözləri "kiçikhəcmli gəmilər istisna olmaqla, digər" sözləri ilə əvəz edilsin;

9.2. 16.3-cü maddədə "Tutumuna və baş mühərrikinin gücünə görə bu Məcəllənin 16.2-ci maddəsində müəyyənləşdirilmiş qaydaların tətbiq edilmədiyi" sözləri "Bu Məcəllənin 16.2-ci maddəsində nəzərdə tutulan gəmilər istisna olmaqla, digər" sözləri ilə əvəz edilsin və həmin maddəyə "orqanının" sözündən sonra "müəyyən etdiyi orqanın (qurumun)" sözləri əlavə edilsin;

9.3. aşağıdakı məzmunda 16.4-cü maddə əlavə edilsin:

"16.4. Gəminin konstruksiyasında dəyişikliklər və gəmidə aparılan modifikasiya ilə bağlı layihələr müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırıldıqdan sonra həyata keçirilir.".

10. 17-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Bu Məcəllənin 16.2-ci maddəsində göstərilən gəmilər quruluş tipindən və təchizatından asılı olaraq təsnifatlandırılırlar və onlara müvafiq təsnifat şəhadətnamələri verilir.".

11. 18-ci maddə üzrə:

11.1. 18.1.4-cü maddədə "şəhadətnaməsi (sərnişin gəmisi üçün)" sözləri "gəmisinin təhlükəsizlik üzrə şəhadətnaməsi" sözləri ilə əvəz edilsin;

11.2. 18.1.6-cı və 18.4-cü maddələrdə "çeşidi" sözü "nişanı" sözü ilə əvəz edilsin;

11.3. 18.1.7-ci maddədə "gəmi heyətinin" sözləri "minimum heyət" sözləri ilə əvəz edilsin;

11.4. 18.1.8-ci maddədə "çirkləndirmənin qarşısının alınması" sözləri "çirkləndirmədən vurulan zərərə görə mülki məsuliyyətin sığortalanması və ya "Neftlə çirkləndirmədən vurulan zərərə görə mülki məsuliyyət haqqında" 1969-cu il tarixli Beynəlxalq Konvensiyaya uyğun digər maliyyə təminatı" sözləri ilə əvəz edilsin;

11.5. 18.1.10-cu maddə ləğv edilsin.

12. 20-ci maddədə "İdman, gəzinti və baş mühərriklərinin gücü 55 kVt-dan az olan digər özühərəkətedən gəmilərdə və tutumu 80 tondan az olan özühərəkətetməyən" sözləri "Kiçikhəcmli" sözü ilə və "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.

13. 22-ci maddə üzrə:

13.1. adına "orqanlar" sözündən sonra "və həmin sənədlərin müddətləri" sözləri əlavə edilsin;

13.2. 22.2-ci maddə üzrə:

13.2.1. birinci cümləyə "sərnişin" sözündən sonra "gəmisinin təhlükəsizlik üzrə" sözləri əlavə edilsin və həmin cümlədə "çeşidi" sözü "nişanı" sözü ilə, "zibil ilə çirkləndirmənin qarşısının alınması haqqında şəhadətnaməni və digər əlavə" sözləri "Beynəlxalq Dəniz Təşkilatının tələblərinə uyğun" sözləri ilə əvəz edilsin;

13.2.2. ikinci cümlədə "çeşidi" sözü "nişanı" sözü ilə əvəz edilsin;

13.3. 22.6-cı maddədə (hər iki halda) "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

13.4. aşağıdakı məzmunda 22.7-ci və 22.8-ci maddələr əlavə edilsin:

"22.7. Bu Məcəllənin 6-1.1.3-6-1.1.5-ci, 6-1.1.7-6-1.1.10-cu, 6-1.1.21-6-1.1.24-cü maddələrində nəzərdə tutulan sənədlər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən aşağıdakı müddətlərə verilir:

22.7.1. bu Məcəllənin 6-1.1.3-cü maddəsində nəzərdə tutulmuş şəhadətnamə və 6-1.1.23-cü maddəsində nəzərdə tutulmuş sənəd müddətsiz;

22.7.2. bu Məcəllənin 6-1.1.4-cü maddəsində nəzərdə tutulmuş şəhadətnamə Dövlət Gəmi Reyestrində qeydiyyata alınmış gəmiyə beş il müddətinə, berbout-çarter reyestrində qeydiyyata alınmış gəmiyə bir il müddətinə;

22.7.3. bu Məcəllənin 6-1.1.5-ci və 6-1.1.21-ci maddələrində nəzərdə tutulan sənədlər məsuliyyətin sığorta və ya "Neftlə çirkləndirmədən vurulan zərərə görə mülki məsuliyyət haqqında" 1969-cu il tarixli Beynəlxalq Konvensiyaya uyğun digər maliyyə təminatının müddətinə;

22.7.4. bu Məcəllənin 6-1.1.7-6-1.1.10-cu maddələrində nəzərdə tutulan şəhadətnamələr və 6-1.1.22-ci maddəsində nəzərdə tutulmuş sertifikat beş il müddətinə;

22.7.5. bu Məcəllənin 6-1.1.24-cü maddəsində nəzərdə tutulmuş şəhadətnamə bir il müddətinə.

22.8. Gəmi sahibinin və ya təsnifat cəmiyyətinin müraciəti əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) razılığı ilə təsnifat cəmiyyəti tərəfindən bu Məcəllənin 18.1-ci və 19-cu maddələrində qeyd edilmiş sənədlərdən əlavə olaraq Beynəlxalq Dəniz Təşkilatının tələblərinə uyğun digər gəmi sənədləri də verilir.".

14. 23-cü maddəyə "limanlarına" sözündən sonra "və ya dəniz əməliyyatları bazalarına" sözləri əlavə edilsin.

15. 25-ci maddə üzrə:

15.1. 25.1-ci maddədə "18.1.19-cu" sözləri "18.1.18-ci" sözləri ilə əvəz edilsin;

15.2. 25.2-ci maddənin birinci cümləsində "gəmidə iki" sözləri "gəminin adının və ya gəmi sahibinin dəyişməsindən asılı olmayaraq gəmidə üç" sözləri ilə əvəz edilsin.

16. 26-cı maddə üzrə:

16.1. 26.2-ci və 26.6-cı maddələrə "reyestrində" sözündən sonra ", berbout-çarter reyestrində" sözləri əlavə edilsin;

16.2. 26.5-ci maddədə (hər iki halda) "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.

17. 28.4-cü maddə ləğv edilsin.

18. 29.2-ci maddəyə "hakimiyyəti" sözündən sonra "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri əlavə edilsin.

19. 30-cu maddə üzrə:

19.1. 30.2.3-cü maddədə "gəmiyə beynəlxalq dəniz təşkilatı tərəfindən verilmiş identifikasiya" sözləri "gəminin Beynəlxalq Dəniz Təşkilatı" sözləri ilə əvəz edilsin;

19.2. 30.3.1-ci maddəyə"orqanının" sözündən sonra "müəyyən etdiyi orqanın (qurumun)" sözləri əlavə edilsin.

20. 32-ci maddənin mətninə "mülkiyyətçisi" sözündən sonra ", gəmi sahibi" sözləri əlavə edilsin.

21. 33-cü maddənin mətnində (birinci halda) "gündən bir ay ərzində" sözləri ", gəmi barədə əqd (alqı-satqı müqaviləsi və s.) bağlandığı, habelə" sözləri ilə əvəz edilsin.

22. 35-ci maddənin mətninə "reyestrinə" sözündən sonra ", berbout-çarter reyestrinə" sözləri əlavə edilsin.

23. 38-ci maddə üzrə:

23.1. adına "reyestrindən" sözündən sonra ", berbout-çarter reyestrindən" sözləri əlavə edilsin;

23.2. 38.1-ci maddə üzrə:

23.2.1. birinci abzasa "reyestrindən" sözündən sonra", berbout-çarter reyestrindən" sözləri əlavə edilsin;

23.2.2. 38.1.2-ci maddədə "məhv olduqda" sözləri "istismara yararsız hala düşdükdə" sözləri ilə əvəz edilsin;

23.3. 38.1.4-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 38.1.5-38.1.7-ci maddələr əlavə edilsin:

"38.1.5. Dövlət gəmi reyestrində və ya gəmi kitabında qeydiyyata alınmış gəminin mülkiyyətçisinin və ya berbout-çarter reyestrində qeydiyyata alınmış gəminin fraxtedəninin ərizəsi (səbəbi göstərilməklə) əsasında;

38.1.6. məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda;

38.1.7. gəmi çıxdaş edildikdə.";

23.4. 38.3-cü maddədə "məhv olmuş" sözləri "istismara yararsız hala düşmüş" sözləri ilə əvəz edilsin.

24.42.3-cü maddədə "gəminin komandir heyətinə aid edilməyən şəxslərdən" sözləri "gəmi kapitanı və gəminin komandir heyətinin digər üzvləri istisna olmaqla digər dənizçilərdən" sözləri ilə əvəz edilsin.

25. 43-cü maddə üzrə:

25.1. adında "heyətinin minimal tərkibi" sözləri "heyəti tərkibinin say həddi" sözləri ilə əvəz edilsin;

25.2. mətnində "heyətinin minimal tərkibi" sözləri "heyəti tərkibinin say həddi" sözləri ilə, "və təyinatından" sözləri ", təyinatından, gəmi heyətinin iş və istirahət vaxtlarının təmin edilməsindən" sözləri ilə və "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.

26. 44-cü maddə üzrə:

26.1. 44.1-ci maddədə"orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə, "şəxslər" sözü "dənizçilər" sözü ilə əvəz edilsin;

26.2. 44.2-ci maddəyə "vəziyyətinə," sözündən sonra "təhsilinə və" sözləri əlavə edilsin və həmin maddədə "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

26.3. 44.3-cü maddədə "Bu Məcəllənin 44.1-ci maddəsində göstərilən sertifikatlar (diplomlar) belə sertifikatların (diplomların)" sözləri "Gəmi kapitanının və gəminin komandir heyətinin digər üzvlərinin sertifikatları (diplomları) onların" sözləri ilə və "orqanının" sözü "orqanının müəyyən etdiyi orqanın (qurumun)" sözləri ilə əvəz edilsin;

26.4. 44.4-cü maddəyə "dəniz" sözündən sonra "ətraf" sözü əlavə edilsin və həmin maddədə "aldatmanın" sözü "saxtakarlığın" sözü ilə, "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

26.5. 44.5-ci maddədə "təsdiqlənmiş sertifikatın (diplomun)" sözləri "Gəmi kapitanının və gəminin komandir heyətinin digər üzvlərinin sertifikatlarının (diplomlarının)" sözləri ilə əvəz edilsin.

27. 46-cı maddənin mətnində (hər iki halda), 60-cı maddənin adında və mətnində "böyük" sözü "baş" sözü ilə əvəz edilsin.

28. Aşağıdakı məzmunda 48.4-cü və 48.5-ci maddələr əlavə edilsin:

"48.4. Gəmi sahibi gəminin bu Məcəllədə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulan tələblərə uyğunluğunu təmin etməlidir.

48.5. Gəmi sahibi dənizdə gəmidə baş vermiş qəza barədə dərhal müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verməlidir.".

29. 49-cu maddə üzrə:

29.1. 49-cu maddənin mətni 49.1-ci maddə hesab edilsin və həmin maddəyə "dəniz" sözündən sonra "ətraf" sözü əlavə edilsin;

29.2. aşağıdakı məzmunda 49.2-ci və 49.3-cü maddələr əlavə edilsin:

"49.2. Gəmi kapitanı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) dəniz üzgüçülüyünün təhlükəsizliyi, dənizdə insan həyatının və sağlamlığının qorunması, dəniz ətraf mühitinin mühafizəsi ilə bağlı göstərişlərini icra etməlidir.

49.3. Gəmi kapitanı dənizdə gəmidə baş vermiş qəza barədə dərhal gəmi sahibinə və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verməlidir.".

30. 61-ci maddə üzrə:

30.1. adında, 61.2-ci maddənin birinci cümləsində və 61.4-cü maddədə "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

30.2. 61.1-ci maddəyə "limanında" sözündən sonra ", habelə dəniz əməliyyatları bazasında" sözləri əlavə edilsin və həmin maddədə "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

30.3. aşağıdakı məzmunda 61.5-ci maddə əlavə edilsin:

"61.5. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) dəniz nəqliyyatı sahəsində göstərdiyi aşağıdakı xidmətlərə görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi məbləğdə haqq ödənilir:

61.5.1. gəminin tikintisi, konstruksiyasında dəyişikliklər, dəniz limanının (o cümlədən yükaşırma terminalının, yanalma körpüsünün)və dəniz əməliyyatları bazasının inşası və yenidən qurulması ilə bağlı layihələrin, dəniz limanlarının (onun hidrotexniki qurğularının) və dəniz əməliyyatları bazasının fəaliyyətə başlamağa hazırlıq səviyyəsinin qiymətləndirilməsi;

61.5.2. gəmilərin beynəlxalq konvensiyaların tələblərinə uyğun illik, həmçinin gəmi sahibinin təşəbbüsü ilə aralıq müayinəsinin həyata keçirilməsi;

61.5.3. dəniz limanının və ya dənizçilik şirkətinin beynəlxalq konvensiyaların tələblərinə uyğunluğunun, limanın, onun infrastruktur obyektlərinin mühafizə planlarının adekvatlığının, aidiyyəti digər planların və (və ya) təlimatların qiymətləndirilməsi;

61.5.4. gəmiyə dəniz mobil identifikasiya və ya peyk rabitə stansiyası nömrələrinin verilməsi;

61.5.5. gəmi heyəti üzvlərinə sertifikatların (diplomların) verilməsi, həmçinin etibarlılıq müddəti bitmiş sertifikatların (diplomların) yenisi ilə əvəz edilməsi üçün beş dəfə ödənişsiz təşkil edilən imtahanlardan sonra təkrar imtahanlarda iştiraka buraxılma.".

31. 62-ci maddə üzrə:

31.1. adında "orqanının" sözü "orqanının müəyyən etdiyi orqanın (qurumun)" sözləri ilə əvəz edilsin;

31.2. 62.1-ci maddə üzrə:

31.2.1. birinci abzasda "orqanının" sözü "orqanının müəyyən etdiyi orqanın (qurumun)" sözləri ilə əvəz edilsin və həmin abzasa "təhlükəsizliyinin" sözündən sonra ", ətraf mühitin mühafizəsinin" sözləri, "limanında" sözündən sonra ", habelə dəniz əməliyyatları bazasında" sözləri əlavə edilsin;

31.2.2. 62.1.4-cü maddədə "dənizçi" sözü "dənizçinin qeyd" sözləri ilə əvəz edilsin;

31.2.3. 62.1.8-ci maddədə "orqanının" sözü "orqanının müəyyən etdiyi orqanın (qurumun)" sözləri ilə əvəz edilsin və həmin maddəyə "dənizdə" sözündən sonra "gəmilərdə" sözü əlavə edilsin, həmin maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 62.1.9-62.1.12-ci maddələr əlavə edilsin:

"62.1.9. dəniz yollarını və dəniz üzgüçülüyü məqsədləri üçün istifadə edilən digər dəniz ərazilərini, habelə onların adlarını müəyyən etmək;

62.1.10. gəmilərin hərəkətinin və dayanmasının qadağan edildiyi rayonları müəyyən etmək, habelə liman akvatoriyasının müəyyən edilməsi üçün tədbirlər görmək;

62.1.11. limanlarda və dəniz nəqliyyatı obyektlərində gəmi tullantılarının qəbulu qurğularının adekvatlığını qiymətləndirmək;

62.1.12. gəmilərdə mühafizə tədbirlərinə əməl edilməsinə nəzarəti həyata keçirmək.";

31.3. 62.2-ci maddə üzrə:

31.3.1. birinci abzasa "limanında" sözündən sonra ", habelə dəniz əməliyyatları bazasında" sözləri əlavə edilsin;

31.3.2. 62.2.1-ci və 62.2.3-cü maddələrə "limana" sözündən sonra "və ya dəniz əməliyyatları bazasına" sözləri və "limandan" sözündən sonra "və ya dəniz əməliyyatları bazasından" sözləri əlavə edilsin.

32. 63-cü maddə üzrə:

32.1. 63.1-ci və 63.2-ci maddələrdə "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

32.2. 63.3-cü maddəyə "limanından" sözündən sonra "və ya dəniz əməliyyatları bazasından" sözləri əlavə edilsin və həmin maddədə "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

32.3. 63.4-cü maddəyə "limanlarına" sözündən sonra "və ya dəniz əməliyyatları bazalarına" sözləri, "orqanının" sözündən sonra "müəyyən etdiyi orqanın (qurumun)" sözləri əlavə edilsin.

33. 64-cü maddə üzrə:

33.1. adına "limanından" sözündən sonra "və ya dəniz əməliyyatları bazasından" sözləri əlavə edilsin;

33.2. 64.1-ci maddənin birinci cümləsində "limanından" (hər iki halda) sözündən sonra "və ya dəniz əməliyyatları bazasından" sözləri əlavə edilsin, həmin maddənin ikinci cümləsinə "limandan" sözündən sonra "və ya dəniz əməliyyatları bazasından" sözləri əlavə edilsin və həmin cümlədə "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

33.3. 64.1.2-ci maddəyə "dəniz" sözündən sonra "ətraf" sözü əlavə edilsin;

33.4. 64.1.6-cı maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 64.1.7-ci maddə əlavə edilsin:

"64.1.7. hidrometeoroloji və naviqasiya şəraitinin dəyişməsi gəminin limandan çıxmasına maneə törətdikdə.".

34. 65-ci maddənin adına "limanında" sözündən sonra ", habelə dəniz əməliyyatları bazasında" sözləri əlavə edilsin və həmin maddənin mətnində "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.

35. 66-cı maddənin mətninə "limanlarına" sözündən sonra ", dəniz əməliyyatları bazalarına" sözləri və (beşinci halda) "dəniz" sözündən sonra "ətraf" sözü əlavə edilsin.

36. 70.2.1-ci maddənin birinci cümləsində, 83.3-cü (ikinci halda), 84.1.2-ci (ikinci halda) və 298.3-cü (ikinci halda) maddələrə "dəniz" sözündən sonra "ətraf" sözü əlavə edilsin.

37. 83.4-cü maddənin birinci cümləsində "dəniz limanı kapitanı" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə və ikinci cümləsində "orqanına" sözü "orqanının müəyyən etdiyi orqana (quruma)" sözləri ilə əvəz edilsin.

38. 220.1.3-cü və 238-ci maddələrdə "tam konstruktiv məhvi" sözləri "konstruksiya cəhətdən istismara yararsız hala düşməsi" sözləri ilə əvəz edilsin.

39. 256-cı maddə üzrə:

39.1. 256.2.1-ci maddəyə "adı" sözündən sonra ", çağırış siqnalı" sözləri əlavə edilsin;

39.2. 256.2.2-ci və 256.2.4-cü maddələrdə "əsas fəaliyyət yeri" sözləri "ünvanı" sözü ilə əvəz edilsin;

39.3. 256.4-cü maddədə "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.

40. 265-ci maddə üzrə:

40.1. 265.2.3-cü maddədə "beynəlxalq dəniz təşkilatının gəmiyə verdiyi identifikasiya" sözləri "gəminin Beynəlxalq Dəniz Təşkilatı" sözləri ilə əvəz edilsin;

40.2. 265.4-cü maddədə "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.

41. 280.3-cü maddəyə "sərnişin" sözündən sonra "gəmisinin təhlükəsizlik üzrə" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 dekabr 2023-cü il*

# "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1066-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1066-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Ticarət Gəmiçiliyi Məcəlləsinin 2.5-1-ci (hər iki halda), 4.1-4.3-cü, 4.4-cü (hər iki halda), 5.1-ci maddələrində, 5.2-ci maddəsinin birinci abzasında, 8.2-ci maddəsinin birinci abzasında, 9.2-ci maddəsində, 12.1-ci maddəsinin birinci abzasında, 15.3-cü, 16.3-cü, 16.4-cü, 20-ci, 22.6-cı (hər iki halda) maddələrində, 22.7-ci maddəsinin birinci abzasında, 22.8-ci, 26.5-ci (hər iki halda), 27.1-ci, 27.2-ci, 29.2-ci, 30.3.1-ci maddələrində, 36.2-ci maddəsinin birinci cümləsində, 43-cü, 44.1-44.4-cü maddələrində, 45-ci maddəsinin ikinci cümləsində, 47.2-ci, 48.5-ci, 49.2-ci, 49.3-cü maddələrində, 61-ci maddəsinin adında, 61.1-ci maddəsində, 61.2-ci maddəsinin birinci cümləsində, 61.4-cü maddəsində, 61.5-ci maddəsinin birinci abzasında (hər iki halda), 62-ci maddəsinin adında, 62.1-ci maddəsinin birinci abzasında, 62.1.8-ci, 63.1-63.4-cü maddələrində, 64.1-ci maddəsinin ikinci cümləsində, 65-ci, 67.1-67.3-cü, 68-ci, 69.1-69.3-cü maddələrində, 83.4-cü və 89-cu maddələrinin birinci və ikinci cümlələrində, 142.2-ci, 182.1-ci maddələrində, 182.2-ci maddəsinin birinci və ikinci cümlələrində, 256.4-cü, 265.4-cü və 275.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 4.4-cü (ikinci halda) maddəsində "orqan (qurum)" dedikdəAzərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 2.5-1-ci (ikinci halda), 16.3-cü, 22.6-cı (ikinci halda), 26.5-ci (ikinci halda), 44.1-ci, 47.2-ci maddələrində, 62.1.8-ci, 63.4-cü, 67.1-ci, 142.2-ci, 182.1-ci maddələrində, 182.2-ci maddəsinin ikinci cümləsində və 256.4-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.4. həmin Məcəllənin 4.2-ci, 43-cü, 69.1-ci, 69.3-cü maddələrində, 83.4-cü maddəsinin birinci cümləsində və 265.4-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

1.5. həmin Məcəllənin 4.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi nəzərdə tutulur;

1.6. həmin Məcəllənin 20-ci, 27.2-ci və 275.3-cü maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi nəzərdə tutulur;

1.7. həmin Məcəllənin 45-ci maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi nəzərdə tutulur;

1.8. həmin Məcəllənin 61.5-ci maddəsinin birinci abzasında (ikinci halda) "orqan (qurum)"dedikdə, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəyi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

1.9. həmin Məcəllənin 83.4-cü maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi nəzərdə tutulur;

1.10. həmin Məcəllənin 2.5-1-ci (birinci halda), 4.1-ci, 5.1-ci maddələrində, 5.2-ci və 8.2-ci maddələrinin birinci abzaslarında, 9.2-ci maddəsində, 12.1-ci maddəsinin birinci abzasında, 15.3-cü, 16.4-cü, 22.6-cı (birinci halda) maddələrində, 22.7-ci maddəsinin birinci abzasında, 22.8-ci, 26.5-ci (birinci halda), 27.1-ci, 29.2-ci, 30.3.1-ci maddələrində, 36.2-ci maddəsinin birinci cümləsində, 44.2-44.4-cü, 48.5-ci, 49.2-ci, 49.3-cü maddələrində, 61-ci maddəsinin adında, 61.1-ci maddəsində, 61.2-ci maddəsinin birinci cümləsində, 61.4-cü maddəsində, 61.5-ci maddəsinin birinci abzasında (birinci halda), 62-ci maddəsinin adında, 62.1-ci maddəsinin birinci abzasında, 63.1-63.3-cü maddələrində, 64.1-ci maddəsinin ikinci cümləsində, 65-ci, 67.2-ci, 67.3-cü, 68-ci, 69.2-ci maddələrində, 89-cu maddəsinin birinci və ikinci cümlələrində və 182.2-ci maddəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Dövlət Dəniz və Liman Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

1.11. həmin Məcəllənin 4.4-cü maddəsində (birinci halda) "orqan (qurum)" dedikdə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti, o cümlədən onun strukturuna daxil olan qurumlar nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Ticarət Gəmiçiliyi Məcəlləsinin 2.5-1-ci maddəsinə uyğun olaraq, dəniz əməliyyatları bazasının reyestrinin aparılması qaydasını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1066-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi:

3.1. Azərbaycan Respublikası Ticarət Gəmiçiliyi Məcəlləsinin 61.5-ci maddəsinə uyğun olaraq, Dövlət Dəniz və Liman Agentliyinin dəniz nəqliyyatı sahəsində göstərdiyi xidmətlərə görə haqqın məbləğlərini, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəyi nəzərə alınmaqla, iki ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1066-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

4. "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinin tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli 541 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 478 (Cild I) 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"2. Müəyyən edilsin ki:

2.1. Azərbaycan Respublikası Ticarət Gəmiçiliyi Məcəlləsinin 2.5-ci, 2.5-1-ci (hər iki halda), 4.1-4.3-cü, 4.4-cü (hər iki halda), 5.1-ci maddələrində, 5.2-ci maddəsinin birinci abzasında, 8.2-ci maddəsinin birinci abzasında, 9.2-ci maddəsində, 12.1-ci maddəsinin birinci abzasında, 15.3-cü, 16.3-cü, 16.4-cü, 20-ci, 22.6-cı (hər iki halda) maddələrində, 22.7-ci maddəsinin birinci abzasında, 22.8-ci, 26.5-ci (hər iki halda), 27.1-ci, 27.2-ci, 29.2-ci, 30.3.1-ci maddələrində, 36.2-ci maddəsinin birinci cümləsində, 43-cü, 44.1-44.4-cü maddələrində, 45-ci maddəsinin ikinci cümləsində, 47.2-ci, 48.5-ci, 49.2-ci, 49.3-cü maddələrində, 61-ci maddəsinin adında, 61.1-ci maddəsində, 61.2-ci maddəsinin birinci cümləsində, 61.4-cü maddəsində, 61.5-ci maddəsinin birinci abzasında (hər iki halda), 62-ci maddəsinin adında, 62.1-ci maddəsinin birinci abzasında, 62.1.8-ci, 63.1-63.4-cü maddələrində, 64.1-ci maddəsinin ikinci cümləsində, 65-ci, 67.1-67.3-cü, 68-ci, 69.1-69.3-cü maddələrində, 83.4-cü və 89-cu maddələrinin birinci və ikinci cümlələrində, 142.2-ci, 182.1-ci maddələrində, 182.2-ci maddəsinin birinci və ikinci cümlələrində, 256.4-cü, 265.4-cü və 275.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Məcəllənin 4.4-cü (ikinci halda) maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

2.3. həmin Məcəllənin 42.2-ci və 61.2-ci maddələrinin ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.4. həmin Məcəllənin 2.5-1-ci (ikinci halda), 16.3-cü, 22.6-cı (ikinci halda), 26.5-ci (ikinci halda), 44.1-ci, 47.2-ci maddələrində, 62.1.8-ci, 63.4-cü, 67.1-ci, 142.2-ci, 182.1-ci maddələrində, 182.2-ci maddəsinin ikinci cümləsində və 256.4-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

2.5. həmin Məcəllənin 13.2-ci, 14.2-ci, 18.2-ci, 22.4-cü və 25.1-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi həyata keçirir;

2.6. həmin Məcəllənin 18.3-cü və 22.5-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirir;

2.7. həmin Məcəllənin 4.2-ci, 43-cü, 69.1-ci, 69.3-cü maddələrində, 83.4-cü maddəsinin birinci cümləsində və 265.4-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

2.8. həmin Məcəllənin 4.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi nəzərdə tutulur;

2.9. həmin Məcəllənin 20-ci, 27.2-ci və 275.3-cü maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi nəzərdə tutulur;

2.10. həmin Məcəllənin 45-ci maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi nəzərdə tutulur;

2.11. həmin Məcəllənin 61.5-ci maddəsinin birinci abzasında (ikinci halda) "orqan (qurum)" dedikdə, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəyi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

2.12. həmin Məcəllənin 83.4-cü maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi nəzərdə tutulur;

2.13. həmin Məcəllənin 2.5-ci maddəsində "orqan (qurum)" dedikdə "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinə münasibətdə Azərbaycan İnvestisiya Holdinqi, digər limanlara münasibətdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

2.14. həmin Məcəllənin 2.5-1-ci (birinci halda), 4.1-ci, 5.1-ci maddələrində, 5.2-ci və 8.2-ci maddələrinin birinci abzaslarında, 9.2-ci maddəsində, 12.1-ci maddəsinin birinci abzasında, 15.3-cü, 16.4-cü, 22.6-cı (birinci halda) maddələrində, 22.7-ci maddəsinin birinci abzasında, 22.8-ci, 26.5-ci (birinci halda), 27.1-ci, 29.2-ci, 30.3.1-ci maddələrində, 36.2-ci maddəsinin birinci cümləsində, 44.2-44.4-cü, 48.5-ci, 49.2-ci, 49.3-cü maddələrində, 61-ci maddəsinin adında, 61.1-ci maddəsində, 61.2-ci maddəsinin birinci cümləsində, 61.4-cü maddəsində, 61.5-ci maddəsinin birinci abzasında (birinci halda), 62-ci maddəsinin adında, 62.1-ci maddəsinin birinci abzasında, 63.1-63.3-cü maddələrində, 64.1-ci maddəsinin ikinci cümləsində, 65-ci, 67.2-ci, 67.3-cü, 68-ci, 69.2-ci maddələrində, 89-cu maddəsinin birinci və ikinci cümlələrində və 182.2-ci maddəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Dövlət Dəniz və Liman Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

2.15. həmin Məcəllənin 4.4-cü maddəsində (birinci halda) "orqan (qurum)" dedikdə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti, o cümlədən onun strukturuna daxil olan qurumlar nəzərdə tutulur.".

5. "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 506 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1053 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

6. "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 22 may tarixli 583 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 5, maddə 465 (Cild I) 2-ci hissəsindən "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinin 28.4-cü maddəsində," sözləri çıxarılsın.

7. "Dəniz nəqliyyatı sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında"Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 oktyabr tarixli 1462 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1106 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

7.1. 3.1-ci bənddən "(naviqasiya və mayak, bələdçi, kanal, lövbər və gəmi yığımı)" sözləri çıxarılsın;

7.2. həmin Fərmanla təsdiq edilmiş "Dövlət Dəniz və Liman Agentliyinin Nizamnaməsi" üzrə:

7.2.1. 1.1-ci, 2.1.11-ci və 3.1.22-ci yarımbəndlərdən "(naviqasiya və mayak, bələdçi, kanal, lövbər və gəmi yığımı)" sözləri çıxarılsın;

7.2.2. 3.1.15-ci yarımbənddə "və limanlar" sözləri ", limanlar və dəniz əməliyyatları bazaları" sözləri ilə əvəz edilsin;

7.2.3. aşağıdakı məzmunda 3.1.45-1-ci yarımbənd əlavə edilsin:

"3.1.45-1. dəniz əməliyyatları bazalarının reyestrinin aparılmasını təmin etmək;";

7.2.4. 3.2.5-ci yarımbəndə "dövlət rüsumu" sözlərindən sonra ", habelə Azərbaycan Respublikası Ticarət Gəmiçiliyi Məcəlləsinin 61.5-ci maddəsinin birinci abzasına uyğun olaraq dəniz nəqliyyatı sahəsində xidmətlərə görə haqq" sözləri əlavə edilsin;

7.2.5. 3.2.13-cü yarımbəndə "limana" sözündən sonra "və ya dəniz əməliyyatları bazasına" sözləri əlavə olunsun, həmin yarımbənddə "və ya limandan" sözləri ", habelə limandanvə ya dəniz əməliyyatları bazasından" sözləri ilə əvəz edilsin;

7.2.6. 5.6-cı bəndə "dövlət rüsumu" sözlərindən sonra ", habelə Azərbaycan Respublikası Ticarət Gəmiçiliyi Məcəlləsinin 61.5-ci maddəsinin birinci abzasına uyğun olaraq dəniz nəqliyyatı sahəsində xidmətlərə görə haqq" sözləri əlavə edilsin.

8. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 11 sentyabr tarixli 3130 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 9, maddə 1081 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dəniz təhlükəsizliyi strategiyası"nda aşağıdakı dəyişikliklər edilsin:

8.1. 3.3.2.5-ci yarımbəndə "dəniz" sözündən sonra "ətraf" sözü əlavə edilsin;

8.2. 4.1.6-cı yarımbənddə "Dövlət Dəniz Administrasiyası" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Dəniz və Liman Agentliyi" sözləri ilə əvəz edilsin;

8.3. 6.6.4-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"6.6.4. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Dəniz və Liman Agentliyi Azərbaycan Respublikasının ərazi sularında və açıq dənizdə gəmilərin uzaq məsafədən tanınmasını və izlənilməsini Beynəlxalq Dəniz Təşkilatının tələblərinə uyğun olaraq həyata keçirir, gəmilər, limanlar və dəniz əməliyyatları bazaları tərəfindən Azərbaycan Respublikasının ərazi sularında üzmə qaydalarının tələblərinə riayət olunmasını təmin edir;";

8.4. Strategiyaya Əlavə 2 - "Vəzifələrin yerinə yetirilməsi məqsədi ilə qurumlar üçün əsas və dəstək tipli cavabdehlik cədvəli" üzrə:

8.4.1. 2-ci, 3-cü, 9-cu, 11-ci, 12-ci hissələrin, 13-cü hissənin "a" bəndinin, 16-cı və 17-ci hissələrin "Dəstək" sütununda "DDA" akronimi "RİNN DDLA" akronimi ilə əvəz edilsin;

8.4.2. 7-ci hissənin "Əsas" sütununa "BBDTL" akronimindən sonra "və digər dəniz limanları" sözləri əlavə edilsin;

8.4.3. 10-cu hissənin "Dəstək" sütununa "ETSN" akronimindən sonra ", RİNN DDLA" akronimi əlavə edilsin;

8.4.4. 14-cü hissənin "Dəstək" sütununda"DDA" akronimi "RİNN DDLA" akronimi ilə əvəz olunsun və həmin sütuna "BBDTL" akronimindən sonra "və digər dəniz limanları" sözləri əlavə edilsin;

8.4.5. 16-cı hissənin "Dəstək" sütunundan "BBDTL," akronimi çıxarılsın;

8.4.6. "İxtisarlar" hissəsində "DDA - Dövlət Dəniz Administrasiyası" sözləri "RİNN DDLA - Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Dəniz və Liman Agentliyi" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 fevral 2024-cü il*

# "Dəniz limanları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Dəniz limanları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 464; 2019, № 6, maddə 990; 2020, № 6, maddə 663; 2021, № 8, maddə 903; 2022, № 8, maddə 829) aşağıdakı dəyişikliklər edilsin:

1. 2.2-ci maddənin ikinci cümləsində, 4.1-ci, 4.2-ci maddələrdə, 5.1-ci maddənin birinci cümləsində, 6.1-ci (hər iki halda) maddədə, 6.2-ci maddənin birinci və ikinci cümlələrində, 7.1-ci, 7.3-cü, 7.4-cü, 8.4-cü maddələrdə, 9.2-ci maddənin birinci və ikinci cümlələrində, 9.5-ci, 10-cu, 11.1-ci maddələrdə, 11.2-ci maddənin birinci və ikinci cümlələrində, 12.1-ci, 12.2-ci (hər iki halda), 12.4-cü, 13.1-13.3-cü, 13.6.1-ci, 13.6.3-cü, 15.2-ci, 20.6-cı, 23.1-ci maddələrdə, 23.2-ci maddənin ikinci cümləsində, 28.1-ci maddənin ikinci cümləsində və 29.2-ci maddədə ismin müvafiq hallarında "orqanı" sözü ismin müvafiq hallarında "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.

2. 13.6.2-ci maddədə "orqanlarına" sözü "orqanının müəyyən etdiyi orqanlara (qurumlara)" sözləri ilə əvəz edilsin.

3. 15.3-cü maddədə ", liman qurğularının istismarı, yükaşırma" sözləri "(liman qurğularının istismarı və yükaşırma daxil olmaqla)" sözləri ilə, "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.

4. Aşağıdakı məzmunda 15.3-1-ci maddə əlavə edilsin:

"15.3-1. Bu Qanunun 15.3-cü maddəsində nəzərdə tutulan dəniz üzgüçülüyünün təhlükəsizliyi fəaliyyəti ilə bağlı aşağıdakı xidmətlərə görə tarif müəyyən edilir:

15.3-1.1. gəminin limana giriş-çıxışının rəsmiləşdirilməsi;

15.3-1.2. dəniz üzgüçülüyü üçün təhlükəli olan dəniz rayonlarında, limanda və liman akvatoriyasında, dəniz əməliyyatları bazasında, habelə məntəqələr arasında gəminin bələdçi vasitəsilə keçirilməsi üzrə xidmətlərin həyata keçirilməsi və bələdçinin fəaliyyətinin təşkili;

15.3-1.3. gəmilərə məlumatların çatdırılması, radar müşahidəsinin, naviqasiya təminatının və gəmilərin uzaq məsafədən tanınmasının həyata keçirilməsi;

15.3-1.4. gəmilərin lövbər ərazilərində yerləşdirilməsi, gəmilərin lövbərdə dayandığı dövrdə dəniz üzgüçülüyünün təhlükəsizliyi baxımından daimi müşahidədə saxlanılması.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 dekabr 2023-cü il*

# "Dəniz limanları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1070-VIQD nömrəli Qanununun tətbiqi və "Dəniz limanları haqqında" Azərbaycan Respublikasının 2014-cü il 18 aprel tarixli 945-IVQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 20 aprel tarixli 395 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 14 may tarixli 161 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Dəniz limanları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1070-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Dəniz limanları haqqında" Azərbaycan Respublikası Qanununun 2.2-ci maddəsinin ikinci cümləsində, 4.1-ci, 4.2-ci maddələrində, 5.1-ci maddəsinin birinci cümləsində, 6.1-ci (hər iki halda) maddəsində, 6.2-ci maddəsinin birinci və ikinci cümlələrində, 7.1-ci, 7.3-cü, 7.4-cü, 8.4-cü maddələrində, 9.2-ci maddəsinin birinci və ikinci cümlələrində, 9.5-ci, 10-cu, 11.1-ci maddələrində, 11.2-ci maddəsinin birinci və ikinci cümlələrində, 12.1-ci, 12.2-ci (hər iki halda), 12.4-cü, 13.1-13.3-cü, 13.6.1-13.6.3-cü, 15.2-ci, 15.3-cü, 20.6-cı, 23.1-ci maddələrində, 23.2-ci və 28.1-ci maddələrinin ikinci cümlələrində və 29.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 4.1-ci maddəsində, 5.1-ci maddəsinin birinci cümləsində, 6.1-ci (ikinci halda), 7.1-ci maddələrində, 9.2-ci maddəsinin ikinci cümləsində, 9.5-ci, 10-cu, 11.1-ci maddələrində, 11.2-ci maddəsinin ikinci cümləsində, 12.4-cü, 13.1-ci, 13.3-cü, 15.2-ci, 20.6-cı, 23.1-ci maddələrində, 23.2-ci və 28.1-ci maddələrinin ikinci cümlələrində və 29.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 4.2-ci və 12.2-ci (hər iki halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi nəzərdə tutulur;

1.4. həmin Qanunun 12.1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

1.5. həmin Qanunun 13.6.2-ci maddəsində "orqanlar (qurumlar)" dedikdə, fəaliyyət istiqamətlərinə uyğun olaraq, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

1.6. həmin Qanunun 15.3-cü maddəsində "orqan (qurum)" dedikdə, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəyi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

1.7. həmin Qanunun 2.2-ci maddəsinin ikinci cümləsində, 6.1-ci (birinci halda) maddəsində, 6.2-ci maddəsinin birinci və ikinci cümlələrində, 7.3-cü, 7.4-cü, 8.4-cü maddələrində, 9.2-ci maddəsinin birinci cümləsində, 11.2-ci maddəsinin birinci cümləsində, 13.2-ci, 13.6.1-ci və 13.6.3-cü maddələrində "orqan (qurum)" dedikdə Dövlət Dəniz və Liman Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Dəniz limanları haqqında" Azərbaycan Respublikası Qanununun 28.1-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, liman infrastrukturunun dövlət mülkiyyətində olan obyektinin müsabiqə əsasında icarəyə verilməsi qaydasını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. "Dəniz limanları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1070-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "Dəniz limanları haqqında" Azərbaycan Respublikasının 2014-cü il 18 aprel tarixli 945-IVQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 20 aprel tarixli 395 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 14 may tarixli 161 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 474 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3.1-ci bənddə "3.1.2-ci və 5.4-cü maddələrində, 28.1-ci maddəsinin ikinci cümləsində" sözləri "2.2-ci maddəsinin ikinci cümləsində, 3.1.2-ci, 4.1-ci, 4.2-ci maddələrində, 5.1-ci maddəsinin birinci cümləsində, 5.4-cü, 6.1-ci (hər iki halda) maddələrində, 6.2-ci maddəsinin birinci və ikinci cümlələrində, 7.1-ci, 7.3-cü, 7.4-cü, 8.4-cü maddələrində, 9.2-ci maddəsinin birinci və ikinci cümlələrində, 9.5-ci, 10-cu, 11.1-ci maddələrində, 11.2-ci maddəsinin birinci və ikinci cümlələrində, 12.1-ci, 12.2-ci (hər iki halda), 12.4-cü, 13.1-13.3-cü, 13.6.1-13.6.3-cü, 15.2-ci, 15.3-cü, 20.6-cı, 23.1-ci maddələrində, 23.2-ci və 28.1-ci maddələrinin ikinci cümlələrində və 29.2-ci maddəsində" sözləri ilə əvəz edilsin;

3.2. 3.2-ci bənddə "maddəsinin ikinci cümləsində və 29.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir" sözləri "və 28.1-ci maddələrinin ikinci cümlələrində və 29.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur" sözləri ilə əvəz edilsin;

3.3. 3.2-1-ci bənddə "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin;

3.4. 3.3-cü bənddə "nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyi həyata keçirir" sözləri "orqan (qurum)" dedikdə Dövlət Dəniz və Liman Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur" sözləri ilə əvəz edilsin;

3.5. 3.4-cü bənddə "nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Müdafiə Nazirliyi həyata keçirir" sözləri "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi nəzərdə tutulur" sözləri ilə əvəz edilsin;

3.6. 3.4-1-ci bənddə "nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi həyata keçirir" sözləri "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur" sözləri ilə əvəz edilsin;

3.7. 3.5-ci bənddə "nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini, öz" sözləri "orqan (qurum) dedikdə" sözləri ilə və "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi həyata keçirir" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur" sözləri ilə əvəz edilsin;

3.8. 3.6-cı bənddə "nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini" sözləri "orqan (qurum)" dedikdə" sözləri ilə və "həyata keçirir" sözləri "nəzərdə tutulur" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 fevral 2024-cü il*

# "Kosmik fəaliyyət haqqında" Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 927-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Kosmik fəaliyyət haqqında" Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 927-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 11 aprel tarixli 564 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 4, maddə 326 (Cild I) ilə təsdiq edilmiş Əlavə 2 - "Daşınar əmlakın rəsmi reyestrlərində qeydiyyata alınan əmlak növlərinin və onların qeydiyyatını aparan inzibati orqanların Siyahısı"na aşağıdakı məzmunda 12-1-ci hissə əlavə edilsin:

| | | |
|---|---|---|
| 12-1. | Kosmik obyektlər | Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi |

2. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 1, maddə 41 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.1-ci bəndə "hökumət," sözündən sonra "kosmik fəaliyyət," sözləri əlavə edilsin;

2.2. 2-ci hissə üzrə:

2.2.1. 2.0.10-cu yarımbəndə "poçtun," sözündən sonra "peyk xidmətlərinin, kosmik fəaliyyətin və" sözləri əlavə edilsin;

2.2.2. 2.0.14-cü yarımbəndə "aidiyyəti" sözündən əvvəl "kosmik texnologiyaların, habelə" sözləri əlavə edilsin;

2.3. 3-cü hissə üzrə:

2.3.1. 3.0.18-1-ci yarımbənd 3.0.18-6-cı yarımbənd hesab olunsun və aşağıdakı məzmunda 3.0.18-1?3.0.18-5-ci yarımbəndlər əlavə edilsin:

"3.0.18-1. tabeliyindəki qurum vasitəsilə BMT-nin Kosmik Fəzanın Sülh Məqsədləri üçün İstifadəsi üzrə Komitəsi və kosmik fəaliyyət sahəsində digər beynəlxalq təşkilatlarla əməkdaşlıq etmək, onların işində iştirak etmək;

3.0.18-2. "Beynəlxalq Telekommunikasiya İttifaqının Radiorabitə Reqlamentinin və Ümumdünya Radiorabitə Konfransının Yekun Aktlarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada orbital mövqelər, onlarla əlaqədar radiotezliklər, habelə peyk şəbəkələrini kosmik operatorlarla birgə koordinasiya etmək;

3.0.18-3. Azərbaycan Respublikasında filialı və ya nümayəndəliyi olmayan xarici kosmik operatorun (onun səlahiyyətləndirdiyi xarici hüquqi şəxsin) istismar etdiyi xarici kosmik obyektdən Azərbaycan Respublikasında birbaşa yer stansiyası vasitəsilə qəbulu milli kosmik operator tərəfindən həyata keçirilən ilkin informasiyaların göstəricilərini təsdiq etmək;

3.0.18-4. Azərbaycan Respublikasının, habelə xarici ölkələrin telekommunikasiya peykləri vasitəsilə ölkə daxilində və ölkə xaricində peyk sistemlərini və telekommunikasiya peyk şəbəkələrini tabeliyindəki qurum vasitəsilə təşkil etmək;

3.0.18-5. Kosmik fəzada milli fəaliyyətin əlaqələndirilməsini və həmin fəaliyyətə texniki nəzarəti tabeliyindəki qurum vasitəsilə həyata keçirmək;";

2.3.2. aşağıdakı məzmunda 3.0.32-1-ci, 3.0.47-1-ci və 3.0.96-1-ci yarımbəndlər əlavə edilsin:

"3.0.32-1. kosmik obyektlərin tikintisinə icazə verilməsinə dair rəy vermək;";

"3.0.47-1. kosmik obyektlərin dövlət qeydiyyatını həyata keçirmək və reyestrini aparmaq;";

"3.0.96-1. kosmik fəaliyyət sahəsində tənzimləməni və nəzarəti həyata keçirmək;".

3. "Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)" publik hüquqi şəxsin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 27 aprel tarixli 1326 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 4, maddə 331 (Cild I) 3.1-ci bəndində "həyata keçirən," sözləri" və "Kosmik fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq milli kosmik operator funksiyalarını həyata keçirən, habelə" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 fevral 2024-cü il*

# REGİONLAR

◆ Mütəxəssis təklif verir

# Prezidentin işğaldan azad edilmiş əraziləri cənnətə çevirmək çağırışını necə gerçəkləşdirə bilərik?

## Bu işdə özəl sektor dövlətin yanında olmalıdır

İlin əvvəlində Prezident İlham Əliyev ölkənin televiziya kanallarına müsahibəsində 20 il ərzində görülmüş işlərin hesabatını vermiş, Xankəndidəki Zəfər paradından sonra yeni bir tarixi dövrün başlandığını bəyan etmişdir. Prezident Azərbaycan cəmiyyətinin diqqətini yeni dövrə yeni milli məqsədlər və ideyalarla başlamağın zəruriliyinə yönəltmişdir.

Prezident torpaqlarımızın azad edilməsinin, ölkəmizin bütün ərazisində dövlət suverenliyimizin bərpa edildiyini, tarixi bir qələbə olduğunu bildirməklə işğaldan azad olunmuş ərazilərin cənnətə çevrilməsi ideyasının da yaxın gələcəyimiz üçün yerinə yetirilməsi vacib olan böyük bir vəzifə olduğunu xatırlatmışdır. Əvvəlki qələbələrimizin rəhni olan xalq-hakimiyyət birliyinin gələcək vəzifələrin də yerinə yetirilməsində ən güclü silahımız olduğunu qeyd edən Prezident bu birliyin daha da möhkəmləndirilməsinin zəruri olduğunu vurğulamışdır. Dövlət başçısının fikrincə, işğaldan azad edilmiş torpaqlarımızdakı bərpa-quruculuq işlərinin sürətlə aparılması, işğal nəticəsində bu ərazilərdən didərgin düşmüş vətəndaşlarımızın yurdlarına qayıdıb firavan yaşamalarının təmin edilməsi də böyük bir tarixi vəzifədir və onun yerinə yetirilməsi həm də milli birliyimizin möhkəmləndirilməsindən asılıdır. Prezident sahibkarların bərpa və quruculuq işlərinə yardımçı olmaqda böyük imkanlara malik olduqlarını nəzərə alaraq onları bərpa və quruculuq işlərinə qoşulmağa çağırmışdır. Jurnalistin ""yerli sahibkarların, xarici investorların bu işlərə daha da fəal cəlb olunması üçün hansı institusional addımların atılması nəzərdə tutulub" sualına dövlət başçısının verdiyi cavab zənnimizcə, işğaldan azad edilmiş ərazilərdəki bərpa və quruculuq işlərində yeni bir mərhələnin başlanmasına start verilməsi kimi qəbul olunmalıdır: "...bir daha özəl sektora müraciət edərək onlara çağırış etmək istəyirəm ki, Qarabağa və Şərqi Zəngəzura daha fəal investisiya qoysunlar".

Prezident fikrini davam etdirərək bu investisiya qoyuluşlarının konkret istiqamətlərini də göstərmişdir: "... bizim özəl sektorumuz Bakıda, Sumqayıtda, hər bir tində ev tikməkdənsə, getsinlər orada evlər tiksinlər. Və görərlər ki, o, iqtisadi cəhətdən daha səmərəli olar, eyni zamanda biznesin sosial məsuliyyəti nöqteyi-nəzərindən də önəmli olar. Çünki bu gün biznes dairələri üçün Azərbaycanda çox gözəl şərait yaradılıb və dövlət tərəfindən dəstək göstərilir. Ona görə biznesin sosial məsuliyyəti hesab edirəm ki, bu olmalıdır. Getsinlər müəssisələr qursunlar, evlər tiksinlər, zavodlar, fabriklər inşa etsinlər. Dövlət isə öz üzərinə düşən bütün işləri görəcək - infrastruktur, xəstəxanalar, məktəblər, su anbarları, qazlaşdırma, içməli su, elektrik enerjisi, evlər, yollar, körpülər... Yəni 2024-cü ilədək bu işlərə çox güclü təkan veriləcək və bütün qarşıda duran vəzifələr təmin ediləcək".

Göründüyü kimi, dövlət başçısı biznes adamlarını Qarabağda və Şərqi Zəngəzurda aparılan böyük bərpa-quruculuq işlərinə fəal qoşulmağa, evlər tikməyə, müəssisələr qurmağa çağırmışdır. Bəs bu çağırışın məzmununda və mahiyyətində nələrə diqqət yetirməliyik?

Mahiyyət ondan ibarətdir ki, dövlət artıq bu ərazilərdə xeyli işlər görüb, mənzil tikintisi və infrastruktur quruculuğu ardıcıl olaraq davam edir. Lakin dövlətin başqa qayğıları da var. Ölkənin təhlükəsizliyini daha da gücləndirmək üçün müdafiə sənayesini inkişaf etdirmək, iqtisadiyyatın modifikasiyasını həyata keçirmək, başqa regionların inkişafını davam etdirmək, əhalinin sosial güvənliyini diqqətdə saxlamaq, Bakının, digər iri şəhərlərimizin infrastrukturunu təkmilləşdirmək və digər bu kimi vəzifələrin hər biri böyük investisiyalar tələb edir. Dövlət büdcəsinin imkanları isə hər bir tarixi zaman üçün məhduddur və bu məhdudluğun əsiri olmamaq, habelə işlərin sürətini artırmaq üçün özəl investisiyaların cəlb olunması, onların maksimum böyük həcmlərlə yenidənqurma işlərinə qatılması qaçılmaz zərurətdir. Bu zərurəti gerçəkliyə çevirmək üçün dövlət qurumlarının üzərinə böyük vəzifələr düşür. Əvvəla, onlar yeni iqtisadiyyat quruluşunun plan və proqramlarını işləyib hazırlamalı və özəl biznesi həmin proqramlar üzrə konkret hədəflərə istiqamətləndirməlidirlər. İkincisi, özəl biznesin bu istiqamətlərə hədəflənməsi üçün lazım olan şərait yaradılmalı, kömək göstərilməli və təşkilati tədbirlər həyata keçirilməlidir. Buna görə də indiki mərhələdə Azərbaycanın dövlət qurumlarının və elmi-tədqiqat müəssisələrinin əsas işi iki istiqamətdə aparılmalıdır: bütün ölkədə və ilk növbədə, postkonflikt ərazilərdə yeni iqtisadiyyat quruculuğu elmi əsaslarla layihələndirilməli; həmin layihələrin gerçəkləşdirilməsi üçün zəruri olan özəl investisiyalar ənənəvi və qeyri-ənənəvi vasitələrlə cəlb olunub təşkil edilməlidir.

Məlum olduğu kimi, Prezidentin 2 fevral 2021-ci il tarixli sərəncamı ilə ölkəmizin perspektiv inkişafını təmin etmək üçün seçilmiş 5 əsas strateji hədəf təsdiq edilmişdir. Şübhəsiz, son nəticənin əldə olunmasını təmin etmək üçün bu istiqamətlər üzrə görülən işlərin gedişi dövrü olaraq qiymətləndirilməli, dünyada baş verən dəyişiklikləri nəzərə almaqla həmin strateji hədəflərin özləri və bu hədəflərə aparan yollar haqqında baxışlarımız mütəmadi olaraq dəqiqləşdirilməli və təkmilləşdirilməlidir. Ən başlıcası, bu hədəflərə aparan yollar mərhələlərlə, pillə-pillə proqramlaşdırılmalı və proqramların gerçəkləşdirilməsi təmin olunmalıdır.

Prezident İlham Əliyev öz məruzə və çıxışlarında dəfələrlə qeyd etmişdir ki, onun iqtisadi siyasətinin əsas prioritetlərindən biri və birincisi işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulmasından ibarətdir. "Biz Qarabağı və Şərqi Zəngəzuru cənnətə cevirəcəyik" formulu həmin siyasətin çox aydın və qəti ifadəsidir. Zənnimizcə, indiki mərhələdə bu siyasi xəttin yerinə yetirilməsi üçün bütövlükdə ölkə iqtisadiyyatının tarazlı inkişafının proqnozlaşdırılması və proqramlaşdırılması, həmin ümumi proqramlar çərçivəsində postkonflikt ərazilərlə, yerdə qalan ərazilərin inkişafının optimal nisbətinin təmin olunması iqtisad elmi və iqtisadi idarəçiliyin əsas vəzifələrindən biridir. Bu vəzifəni uğurla yerinə yetirmək üçün postkonflikt ərazilərdəki yeni iqtisadiyyat quruculuğu dəqiqliklə layihələndirilməlidir. Həmin ərazilərdə güzəştli və stimullaşdırıcı təsərrüfatçılıq şəraitinin formalaşdırılması zəruri şərt olsa da, qətiyyən kafi şərt deyil. Bu münbit şəraitdən istifadə etməklə yeni iqtisadiyyat quruculuğunda fəal iştirak etmək üçün sahibkarlığın, özəl investisiyaların həmin ərazilərə məqsədyönlü, ünvanlı şəkildə cəlb olunmasını təşkil etmək lazımdır. Bu cür konkret təşkilati işin aparılması, ilk növbədə, sözügedən ərazilərdə qurulacaq yeni iqtisadiyyatın sahə və təşkilati quruluşunun layihələşdirilməsini tələb edir.

Bu yerdə konkret təkliflərə keçək. Fikrimizcə, post-konflikt ərazilərdə yaradılan yeni iqtisadiyyatın layihələndirilməsi - yəni müəyyən sahələrə aid müəssisələrin seçilib konkret ərazilərdə yerləşdirilməsi sxeminin işlənib hazırlanması bir sıra vacib prinsiplər nəzərə alınmaqla həyata keçirilməlidir. Onlar bunlardır: postkonflikt ərazilərdə məskunlaşan əhalinin yüksək gəlirli işlə təmin edilməsi; tikilib-qurulan müəssisələrin müasir texnologiyalara əsaslanması, ölkə iqtisadiyyatının texniki-texnoloji səviyyəsinin yüksəldilməsinə töhfə verməsi; yaradılan yeni iqtisadiyyatın sahə quruluşunda ixtisaslaşma və kompleksləşmənin optimal nisbətinin təmin edilməsi; tam yeni, ölkə iqtisadiyyatının modernləşdirilməsinə töhfə verəcək, region ölkələrinin tələbatını nəzərdə tutan, qlobal bazara çıxış üçün rəqabətqabiliyyətli innovativ məhsul buraxılışını təmin edəcək sənaye klasterlərinin yaradılması; yaradılan emal sənayesinin ölkədə istehsal olunan kənd təsərrüfatı məhsullarının maksimum böyük hissəsinin yüksək keyfiyyətlə emalını, müasir tələblərə uyğun dizaynla tərtib edilib buraxılmasını, yeni yüksək potensiala malik bazarlara yönəldilməsi, kənd təsərrüfatı məhsulları ixracının şaxələndirilməsinə nail olunması; yaradılan yeni sənaye Azərbaycanın Avropa əhəmiyyətli "yaşıl enerji" ixracatçısı, dünya əhəmiyyətli nəqliyyat-logistika habı olmaq strategiyasının təmin olunmasına töhfə verməsi; yaradılan yeni sənayenin, elmi-tədqiqat mərkəzlərinin, ali məktəblərin, elmi-texniki xidmət mərkəzlərinin, bu regionun respublikanın elmi-texniki sıçrayışına töhfə verən yeni inkişaf mərkəzinə çevrilməsi, Bakının qeyri-mütənasib urbanizasiya tendensiyalarından yayınmasına yardım etməsi.



Zənnimizcə, sadaladığımız prinsiplər əsasında formalaşdırılan postkonflikt ərazilərdəki iqtisadiyyatın struktur sxemi özəl investisiyaların konkret istiqamətlərlə konkret ünvanlara cəlb edilməsinin layihə əsası ola bilər. Bu cür böyükmiqyaslı regional inkişaf layihəsini maliyyələşdirmək, maksimum sürətlə gerçəkləşdirmək üçün dövlət-özəl əməkdaşlığının tam yeni bir modeli təsbit olunmalıdır. Bu illər ölkənin taleyüklü problemlərinin həll edilməsində, strateji-iqtisadi məqsədlərin əldə olunmasında əsas qərarları ölkənin siyasi rəhbərləri vermiş, onların gerçəkləşdirilməsi üçün zəruri təşkilat tədbirləri də dövlət orqanları tərəfindən həyata keçirilmişdir. "Əsrin müqaviləsi" adlandırılan dünyanın ən iri enerji şirkətləri ilə neftin pay bölgüsü sazişinin imzalanmasında Ümummilli Lider Heydər Əliyevin, Azərbaycanda qaz istehsalını yeni mərhələyə qaldıran və Avropaya nəqlini təmin edən beynəlxalq sazişlərin imzalanması və icrasında, habelə Azərbaycanın "yaşıl enerji" ixracatçısına çevrilməsini nəzərdə tutan müqavilələrin imzalanmasında Prezident İlham Əliyevin başçılığı və onun hökumətinin iştirakı bunun əyani sübutudur. Digər tərəfdən, Azərbaycan dövləti ölkədə özəl biznesin yaradılması və möhkəmləndirilməsi üçün uzun illərdir böyük dəstək proqramlarını həyata keçirir. İqtisadiyyat Nazirliyi strukturunda KOBİA, Biznesə Dəstək Fondu, AZPROMO, İZİA və digər dövlət qurumlarının fəaliyyəti Azərbaycan dövlətinin özəl biznesin inkişafına necə önəm verməsinin, ona necə böyük miqyaslarla yardım etməsinin nümunəsidir.

İndi isə Azərbaycanda dövlət-özəl sektor əməkdaşlığı münasibətlərində müəyyən dəyişikliklərin baş verməsinin vaxtı gəlib çatmışdır. Bu dəyişikliklərin mahiyyətinin dövlət orqanlarının yardımçı mövqeyindən istiqamləndirici-təşkilatçı mövqeyinə keçməsi, sahibkarların yardım alan mövqeyindən milli əhəmiyyətli layihələrin gerçəkləşdirilməsində dövlətin köməkçisi, bu layihələrin məsul iştirakçısı və maliyyələşdiricisi mövqeyinə keçməsindən ibarət olmalıdır. Dövlət - özəl əməkdaşlığı formulunda bu cür modifikasiyaya nail olmaq ölkə iqtisadiyyatının texniki-texnoloji cəhətdən inkişafını və postkonflikt ərazilərin bərpa və yenidən qurulması kimi milli prioritetlərin gerçəkləşdirilməsini sürətləndirə bilər.

Bəs bu modifikasiyaya necə nail olmaq mümkündür?

Buna nail olmaq üçün həm dövlət iqtisadi idarəçilik orqanlarının, həm də sahibkarların Prezidentin çağırışını eşitmələri, özlərindən asılı olanları etməyə hazır olmaları kifayətdir. Dövlət iqtisadi idarəçilik orqanlarının özəl biznes subyektlərinə inamsızlığı bir tərəfə qoyaraq daha diqqətlə yanaşmaları, onların artıq dövlət əhəmiyyətli layihələrin icrasına hazır olduqları mövqeyindən çıxış etmələri lazımdır. Sahibkarlar isə özlərinin milli və sosial məsuliyyətlərini dərk etməli, dövlət əhəmiyyətli layihələrin işlənməsinə hazır olduqlarını hər cür ifadə etməli, milli mənafelərə sədaqətli olduqlarını işdə sübuta yetirməlidirlər. Başa düşməlidirlər ki, işğaldan azad olunmuş ərazilərdə görüləcək bərpa və quruculuq işlərinin miqyası o qədər böyükdür ki, onları yaxın zamanda yerinə yetirmək üçün özəl sektorun iştirakına və dəstəyinə böyük ehtiyac var. Ona görə də iş adamlarının bu işlərə könüllü qoşulması çox vacib milli birlik formulu ola bilər.

İnanırıq ki, Ali Baş Komandan-Ordu-Xalq birliyinin qalibiyyətini yaşamış xalqımız Prezident İlham Əliyevin ətrafında daha sıx birləşərək Prezident-Biznes-Xalq formulu ilə Qarabağ və Şərqi Zəngəzurun cənnətə çevrilməsinə də nail olacaq.

***Azər SƏFƏROV,***
***iqtisad üzrə fəlsəfə doktoru,***
***ETN İqtisadiyyat İnstitutu***
***Postkonflikt ərazilərin bərpası elmi mərkəzinin rəhbəri***

# Bahar gəlir, kəndlinin qayğıları artır

## Qazaxda yaz-tarla işlərinə hazırlıq görülür

**Ölkənin hər yerində olduğu kimi, Qazaxda da kənd təsərrüfatının inkişafına diqqətlə yanaşılır. Son illər rayonda kənd təsərrüfatı məhsulları istehsalında yüksək göstəricilər qazanılması da bunun sayəsində mümkün olub.**



Faktlara müraciət edək: əgər 2016-cı ildə rayon üzrə 16520,6 hektar sahədə əkin aparılmışdısa, hazırda bu rəqəm 20490 hektara çatdırılmışdır. O cümlədən 2016-cı ildə 7820 hektar sahədə taxıl əkilmişdisə, 2024-cü il üçün bu göstərici 11315 hektardır. Əkilmiş taxılın 4477,0 hektarı buğda, 6838 hektarı arpa sahələridir.

Rayonda kənd təsərrüfatının digər sahələri inkişaf edir. Əgər 2016-cı ildə rayonda 433 hektar sahədən 10 min 205 ton kartof tədarük olunmuşdusa, keçən il əkin sahəsi 1300 hektara çatmışdır. Bu, həm də işçi qüvvəsinə olan tələbatı xeyli artırmışdır.

Hazırda rayon ərazisində 18911 hektar suvarılan torpaq sahəsi var ki, onun da 2385 hektarı həyətyanı, 15939 hektarı pay torpaqlarından həmin əkin sahələrinin 18324 hektarı arx və nasoslar, 587 hektarı subartezian quyuları vasitəsilə suvarılır. Yeri gəlmişkən qeyd edək ki, rayonda ildən-ilə genişləndirilən əkin sahələrinin suvarma suyu ilə təmin olunmasına ciddi nəzarət olunur. Hər il rayonda olan suvarma arx və kanallar təmir edilir, kol-kosdan və lildən təmizlənməsi istiqamətində işlər görülür. Bu il üçün rayon Suvarma Sistemləri idarəsi artıq görüləcək işlərin cədvəlini tərtib etmişdir. Cari il 344,75 kilometr məsafədə arx və kanallarda təmizlik işləri aparılması nəzərdə tutulur. Bunun 193,40 kilometri texnika, 151,35 kilometri isə əl əməyi ilə həyata keçiriləcək. Onu da qeyd edək ki, əkin sahələrinin vaxtında suvarma suyu iə təmin olunması üçün hər il olduğu kimi, bu il də qabaqlayıcı tədbirlər görüləcək. Artıq bu məqsədlə kəndlərdə gecə-gündüz olmaqla növbəlilik cədvəli tərtib edilmişdir.

# GDU-da açıq dərslər təşkil olunmuşdur



**Gəncə Dövlət Universitetinin (GDU) kafedralarında boş olan dosent və baş müəllim yerlərini tutmaq üçün müraciət etmiş namizədlərin bilik və bacarıqlarını yoxlamaq məqsədilə açıq dərslər təşkil olunmuşdur.**

Müsabiqədə 10 nəfər müəllim vakant baş müəllim yerini, 9 nəfər isə dosent yerini tutmaq üçün universitet tərəfindən yaradılan komissiya qarşısında müxtəlif mövzularda nümunəvi dərslər keçmişlər.

Açıq dərslərdə universitetin tədris məsələləri üzrə prorektoru Şahin Xurşudov, elm və innovasiyalar üzrə prorektor Pərvin Kərimzadə, humanitar məsələlər üzrə prorektor Gülsüm Fətəliyeva, universitetin Azad Həmkarlar İttifaqı Komitəsinin sədri Afaq Qasımova, rektorun baş müşaviri Asif Cavadov, elmi katib Seymur Meşaik, Tədris Departamentinin direktoru Elturan Yusibov, İnnovasiyalar Departamentinin direktoru Vasif Həsənov, GDU-nun Keyfiyyətin Təminatı Mərkəzinin müdiri İsmayıl İsmayılov, tədrisin təşkili və idarə olunması sektorunun müdiri Sevinc Quliyeva və müvafiq fənlər üzrə mütəxəssislər iştirak etmişlər.

Yekunda komissiya üzvləri tərəfindən açıq dərslər ətraflı təhlil edilmiş və namizədlərə lazımi tövsiyələr verilmişdir.

# Naftalanda "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində tədbir keçirilmişdir

**Naftalan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində "Yaşıl dünya naminə həmrəylik ilinin elan edilməsi məqsədyönlü siyasətin məntiqi nəticəsidir" mövzusunda tədbir keçirilib.**



Tədbirdə Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 10 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin rəisi Azər Quliyev, müstəqil ekspert, iqlimşünas İsa Əliyev, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Şuranın sədri Amin Məmmədov, Qida Təhlükəsizliyi Agentliyi Gəncə-Daşkəsən regional bölməsinin sektor müdiri Gülnar Səfərli, hüquq-mühafizə orqanlarının rəhbərləri, eləcə də məktəblilər iştirak etmişlər.

İştirakçıları əvvəl Ümummilli Lider Heydər Əliyevin ömür yolunu əks etdirən fotoşəkillərlə tanış olmuş, daha sonra bitkilərdən ibarət sərgiyə baxış keçirmişlər. "Təbiəti qoruyaq" adlı videoçarxın nümayişindən sonra şəhər icra hakimiyyətinin başçısı Vüqar Novruzov çıxış edərək diqqətə çatdırmışdır ki, bu gün Azərbaycan dünyada gedən iqlim dəyişikliyi proseslərinə ən həssas yanaşan azsaylı ölkələrdəndir. O, COP29-un ölkəmizdə keçirilməsinin əhəmiyyətindən danışaraq demişdir ki, dövlət başçısı İlham Əliyevin sərəncamı ilə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi təkcə ölkəmiz üçün deyil, ümumilikdə bütün dünya üçün qlobal çağırışdır.

Sonda tədbir iştirakçılarına maarifləndirici bukletlər və həmişəyaşıl bitkilər paylanmışdır. Tədbirin rəsmi hissəsindən sonra Naftalanda müalicə alan bir qrup xarici turistlərlə birgə şəhərin yeni salınan Bayraq meydanında ağacəkmə aksiyası keçirilmişdir. Aksiyada 100 dən çox zeytun və digər ağac əkilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Ekoloji təlimlərdə gənclər iştirak ediblər

**"Sağlam Düşüncə" Gənclər Təşkilatı Qusar Olimpiya İdman Kompleksində 25 gəncin iştirakı ilə ekologiya və dayanıqlı inkişaf məqsədləri istiqamətində "Qış məktəbi" təlim kursuna yekun vurulub.**

Təlimin ilk günündə iştirakçıların bir-birini tanıması üçün müxtəlif oyunlar keçirilib, mövcud olan ekoloji problemlərlə bağlı təqdimatlar olub. Təlimin ikinci günündə təlimçi Gülsarə Qasımova tərəfindən dayanıqlı inkişaf məqsədləri mövzusunda təlim keçirilib, COP29 ilə bağlı iştirakçılara məlumat verilib. İştirakçılar əldə etdikləri biliklərə əsasən öz layihələrini ideya şəklində təqdim ediblər. Təlimin sonunda layihə qiymətləndirilib və növbəti planlar müzakirə olunub.



Qeyd edək ki, "Eko-Aktivist" layihəsi Azərbaycan Respublikası Gənclər Fondunun maliyyə dəstəyi ilə 17-ci qrant müsabiqəsinin qalibi olaraq icra edilir. Təlimin məqsədi gənclərin ekoloji savadlılığını artırmaq, onların ekoloji istiqamətdə nəzəri biliklərini formalaşdırmaq və dayanıqlı inkişaf məqsədləri istiqamətində fəallıqlarını artırmaqdır.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Layiqli qələbə



## Ağdamın "Qarabağ" komandası Avropa Liqasının pley-off-unda tarixi qələbə qazandı

**UEFA Avropa Liqası**
**Pley-off, ilk oyun**

**"Braqa"(Portuqaliya) - "Qarabağ" (Azərbaycan) 2:4**
**Qollar:** Marko Yankoviç, 21-pen. (0:1), Simon Banza, 44 (1:1), Abdullah Zubir, 54 (1:2), Juninyo, 67 (1:3), Abdullah Zubir, 69 (1:4), Joao Moutinyo, 90+1 (2:4)
**Baş hakim:** Morten Kroq (Danimarka)
*"Estadio Municipal de Braga" Stadionu*



**UEFA Avropa Liqasının pley-off mərhələsinin ilk qarşılaşmasında Ağdamın "Qarabağ" klubu Portuqaliyada "Braqa"nın qonağı oldu. Möhtəşəm futbolla rəqibinə 4:2 hesabı ilə qalib gələn ağdamlılar növbəti tarixi yazmağa - Avroliqanın 1/8 finalına yüksəlməyə önəmli üstünlük qazandılar. Komandalar arasında cavab matçı fevralın 22-də Tofiq Bəhramov adına Respublika Stadionunda oynanılacaq.**

Futbolda taxtika, oyun planı çox önəmli predmetlərdir. Bunlarla yanaşı əzmkarlıq, ruh yüksəkliyi, qələbə qazanmaq inadkarlığı komandaları qarşılaşmaya daha fərqli motivasiya edir. Məhz Braqada "Qarabağ"ın futbolçularında bunu gördük.

"Qarabağ" səfərdə 4:2 hesabı ilə qalib gəlməyi bacardı. Ancaq hələ heç nə bitməyib. Bu qarşılaşmanın ikinci hissəsi Bakıda oynanılacaq. Yəni evdə daha diqqətli olmalıyıq. Matçın taleyi Bakıda həll olunacaq. "Braqa"nın baş məşqçisi Artur Jorje bu məğlubiyyətin çox ağır olduğunu söyləyib: "Əslində bunu izah etmək çox çətindir. Ağır bir məğlubiyyətdir. Həqiqət budur ki, bəzi narahatlıqlar hiss etdik. Bir araya gəlməliyik, qopmamalıyıq. Biz dərhal bu yanaşmanı tətbiq edəcəyik. Uduzduq və ümumi hesabda geridəyik. Lakin gələn həftənin cümə axşamı günü cavab oyunu var. Biz buna psixoloji cəhətdən hazırlaşmalıyıq".

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Tibbin alternativ üsulu

**İnsanlar qədimdən bitkilərdən xəstəlikləri sağaltmaq üçün istifadə ediblər. Müasir tibb yaranana qədər bu üsuldan yararlanıblar. Bugünümüzdə də alternativ tibbdən geniş istifadə olunur ki, onun tez-tez müraciət olunan qollarından biri də insanların fiziki və psixoloji narahatlığını aradan qaldırmaq üçün tətbiq edilən fitoterapiyadır.**

Tibb elmi inkişaf etdikcə kimyəvi müalicələrə üstünlük verilir. Bununla yanaşı, son illər fitoterapiyaya da maraq artıb. Bu gün də dünya əhalisinin bir hissəsi, xüsusən Asiyada yaşayan insanların 80 faizi ilkin səhiyyə ehtiyacları üçün xalq təbabətinə müraciət edirlər. Elmi əsaslarla tətbiq edilən xalq təbabəti bitkilərin ölçü miqdarını, hansı növlərin qarışdırılmasının mümkünlüyünü və onların təsirini müəyyənləşdirir. Fitoterapiyanın tətbiqi mütləq həkim nəzarəti və göstərişi ilə həyata keçirilməlidir. Çünki onların yanlış istifadəsi orqanizmdə zəhərlənmələrə, allergiyaya və ya ciddi yan təsirlərə səbəb ola bilər.



### Gülxətmi, zəncirotu, alaqanqal, kəklikotu...

Mövzu ilə bağlı fikirlərini bildirən həkim-fitoterapevt Elnur Eldaroğlu deyir ki, qədim təbabət üsulu olan fitoterapiyadan əvvəllər yalnız Şərqdə istifadə edilsə də, o, tədricən Qərbə də inteqrasiya etdi: "Hazırda dünyanın əksər ölkələrində fitoterapiya kursları var. Alternativ təbabətin bu növü ilə məşğul olan şəxslər mütləq həkim olmalıdırlar. Dərmanlarda olduğu kimi, bitkilərdə də yan və əlavə təsirlər mövcuddur. Ona görə də həmin məqamlara diqqət yetirilməli, xəstəliyə uyğun bitkilər seçilməli və onlardan düzgün istifadə edilməlidir. Hər hansı bir xəstəlikdə istifadə olunan dərman bitkilərinin düzgün dozalanması və müalicə zamanı hansı bitkilərin birlikdə istifadə edilməsi olduqca önəmli məsələdir. Əsasən mədə xorası, qastrit, öd daşı problemləri, iltihabi proseslər, həmçinin yüksək xolesterin, hipertoniya və bu kimi xəstəliklərin müalicəsi üçün müxtəlif bitki çaylarından istifadə olunur".

E.Eldaroğlu inteqrativ təbabətin digər qolları olan apiterapiya, hicama, hirudoterapiya və psixoterapiyanın da olduqca effektiv olduğunu qeyd edir: "Apiterapiyada arı və arı məhsullarından, hirudoterapiyada isə zəlidən istifadə olunur. Bunlar daha çox xəstəliklərin profilaktikası üçün nəzərdə tutulur. Bitkilər, onların ekstraktları, yağları və yaxud da uçucu aromatik birləşmələri, həmçinin həmin bitkilərdən alınan tibbi məcunlar immun sisteminin artırılmasında, revmatik, xroniki və endokrinoloji xəstəliklər zamanı istifadə olunur".

Fitoterapevt bildirir ki, dərman bitkilərindən yalnız məlhəm və maye kimi deyil, həm də kapsullaşmış formada istifadə edilir: "Qaraciyər xəstəliklərində istifadə olunan zəncirotu, alaqanqal və ənginar toxumu kimi bitkilərin əsas təsiredici aktiv maddələri ekstrakt şəklində alınıb kapsullaşa bilir. Alaqanqal toxumunun tərkibindəki silimarin, ənginarın tərkibindəki sinarin metabolik sindromdan əziyyət çəkən insanlara kömək edir. Yüksək təzyiqi, şəkərli diabetə meyilli və xolesterolu yüksək olan insanlara zəncirotu kökünün dəmləmə şəklində istifadəsi məsləhət görülür. Zəncirotundan, həmçinin ağciyər xəstəlikləri və bronxial astma zamanı istifadə etmək olar".

Mütəxəssisin sözlərinə görə, yuxarı tənəffüs yolları və bakterial infeksion xəstəliklərində bəlğəmgətirici təsirə malik biyan kökü, gülxətmi və keçibuynuzu meyvəsi, quru öskürək müşahidə olunursa, evkalipt, kəklikotu və adaçayı bitkisinin dəmləməsindən istifadə edilə bilər. Təbii ki, bu zaman onların müddəti və qramları istifadəçinin yaşından və çəkisindən asılı olaraq dəyişir. Bitkilərin bir-birinin təsirini dəf etməsi və ya gücləndirməsi də mütləq nəzərə alınmalıdır.

### Bəzi bitkilərdən uzun müddət istifadə etmək tövsiyə olunmur

Son zamanlar xəstəliklərə qarşı müqavimətin azaldığını vurğulayan E.Eldaroğlu bildirir ki, orqanizmi qüvvətləndirmək üçün fərdi immun proqramı hazırlanır: "İmmun sistemini yüksəldəcək bitkilərə exinaseya, zəncəfil və jenşen kimi bitkilər aiddir. Bitkilərin bəziləri çox güclü immunstimulyator olsalar da, onlardan uzun müddət istifadə etmək tövsiyə olunmur".

Həkim söyləyir ki, son vaxtlar adını tez-tez eşitdiyimiz qızılca, məxmərək və skarlatina kimi infeksion xəstəliklərinin profilaktikasında güclü immun stimulyator olan buğda cücərtisi, exinaseya və çörəkotu toxumunun dəmləmə, habelə yağ şəklində istifadəsi məsləhət görülür.

"Müraciət edən insanların böyük bir qismi yuxusuzluqdan, gərginlikdən, əsəbdən şikayət edir. Bu problemlər zamanı antidepresant təsirə malik dazotu çayı, yağı və kapsulundan istifadə olduqca çox effektivdir. Lavanda və melissa bitkiləri də sakitləşdirici təsirə malikdir. Qeyd etməliyəm ki, bitkilərin təsirə onların növlərinə və istifadə üsullarına görə dəyişir. Məsələn, adaçayından qarqara şəklində istifadə etdikdə effekti daha yüksək olur. Bitki tərkibli məhsullardan istifadə zamanı onların saxlanma şəraitinə xüsusi diqqət ayrılmalıdır" - deyən həkimin sözlərinə görə, qapalı, havasız yerdə saxlanılan çayların qəbulu məqsədəuyğun deyil. Çünki onların istifadəsi əks təsirlərə gətirib çıxara bilər.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan İlham Əliyevi təbrik edib
Akademik Arif Paşayevə
YOLUMUZ AYDIN, HƏDƏFLƏRİMİZ BƏLLİDİR
Qarabağ Universitetinin fəaliyyətinin təşkili üçün maliyyə vəsaiti ayrılması haqqında
Azərbaycanın enerji siyasəti də yeni mərhələyə qədəm qoyur
Birinci vitse-prezident Mehriban Əliyeva akademik Arif Paşayevin yubileyi ilə əlaqədar paylaşım edib
Ekoloji terror
Ermənistan Cənubi Qafqazı ekoloji fəlakət bölgəsinə çevirir

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*


## Ləğv prosesində olan Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkətinin kreditorlarının tələblərinin bildirilməsi qaydası və müddəti açıqlandı

Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 31 yanvar tarixli Fərmanı ilə Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkəti ləğv edilmişdir. Şirkətin ləğvi ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 6 fevral tarixli Sərəncamının icrası olaraq Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan İnvestisiya Holdinqinin nümayəndələrindən ibarət ləğvetmə komissiyası yaradılmışdır.

Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 14 fevral tarixli Qərarı ilə şirkətin sığorta fəaliyyətinə verilmiş lisenziyası ləğv edilmiş və ləğvetmə komissiyası öz fəaliyyətinə başlamışdır.

Kreditorlardan cari ilin 17 aprel tarixinədək tələblərini şirkətin baş ofisinə (Bakı şəhəri, Nərimanov rayonu, Qarabağ küçəsi 31 ünvanına) bildirmələri xahiş olunur. Həmin tələblərə aşağıdakı sənədlər əlavə olunur:

- Kreditorun yazılı müraciəti (tələbin məzmunu və məbləği göstərilməklə);
- Kreditorun tələbinə əsas verən sənədlərin surətləri.

***Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkəti***

# Şəmkirdə daha bir park yenidən qurulub

**Şəmkirlilərin xoşladıqları istirahət guşələrindən olan Xəqani İbrahimli adına parkda təmir və abadlıq işləri başa çatıb.**

Abadlıq və yenidənqurma işləri çərçivəsində parkda elektrik sistemi tam yenilənmişdir - yeni və müasir standartlara uyğun lampaların qoyulduğu işıq dayaqları rənglənmiş, elektrik sisteminin avtomat idarə olunması üçün müvafiq avadanlıqlar quraşdırılmışdır. Bundan başqa, parkın ərazisindəki fəvvarə təmir olunmuş, yeni oturacaqlar qoyulmuş, sıradan çıxmış tametlər dəyişdirilmişdir.

Qeyd edək ki, yaxın günlərdə Şəmkir Rayon İcra Hakimiyyəti tərəfindən parkda şəhid Xəqani İbrahimlinin büstü və Mədəniyyət Nazirliyi tərəfindən məşhur azərbaycanlı geoloq, görkəmli alim Fərman Salmanovun heykəli də qoyulacaqdır. Artıq bununla bağlı işlərə başlanılmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***



## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 30 dekabr 2023-cü il tarixində elanı verilmiş Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərə və şəhid ailələrinə Oğuz, Balakən, Neftçala, Beyləqan, Şirvan, Ağsu və Salyan rayonlarında 2 və 3 otaqlı mənzillərin satınalınması ilə əlaqədar keçirilən açıq tenderdə qiymət təkliflərinin son verilmə tarixi və vaxtı 2024-cü il 19 fevral saat 18:00-dan 2024-cü il 26 fevral saat 18:00-dək uzadılsın. Tender təkliflərinin açılış tarixi və vaxtı 2024-cü il 27 fevral saat 15:00 kimi nəzərə alınsın.

***Tender komissiyası***

# Yağıntılı hava şəraiti fevralın 18-i gündüzədək davam edəcək

Milli Hidrometeorologiya Xidmətinin fevralın 16-sı saat 13:00-a olan məlumatına əsasən hazırda Bakıda və Abşeron yarımadasında, Göygöl, Naftalan, Gəncə, Şəmkir, Oğuz, Qəbələ, Şəki, İsmayıllı, Şamaxı, Şabran, Tərtər, Mingəçevir, Yevlax, Göyçay, Zərdab, İmişli, Kürdəmir, Sabirabad, Cəfərxan, Neftçala, Biləsuvar, Yardımlı, Lerik, Lənkəran, Qobustanda yağış yağır.

Xidmətdən AZƏRTAC-a verilən məlumata görə Xaltan, Qrız, Şahdağla bərabər hazırda Daşkəsən, Altıağac, Quba, Qusar ərazilərinə qar yağır.

Havanın temperaturu Bakıda və Abşeron yarımadasında 6, Naxçıvan MR-də 8, Aran rayonlarında 8, dağlıq ərazilərdə 2 dərəcə isti, yüksək dağlıq ərazilərdə isə 4 dərəcəyədək şaxtadır.



Ölkə ərazisində müşahidə olunan yağıntılı hava şəraiti fevralın 18-i gündüzədək davam edəcək.


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az


## ALLAH RƏHMƏT ELƏSİN!

Sumqayıt Dövlət Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi universitetin Fizika və onun tədrisi metodikası kafedrasının müdiri dosent Fuad Məmmədova atası, Bakı Dövlət Universitetinin professoru

**ƏZİZ MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4050
Sifariş 343

Qiyməti 60 qəpik